
AĞLAYAN
BULUDLAR
CEYHUN MƏMMƏDOV

# CEYHUN MƏMMƏDOV

# AĞLAYAN BULUDLAR

## Ön Söz:

Kitab iki şəhərə ayrılır. Hekayələr və şeirlər şəhəri. Hər iki şəhərə daxil olarkən, özünüzlə çətir götürməyin. Çünki üzərinizə yağacaq kəlimələri hiss etməyə çalışın. Şüurunuzun ən dərin qatlarına enəcək, cümlələr. Qorxmayın, bu sizin xeyirinizədir. Daha dərin düşünmək və özünüzü dərk etmək diləyi ilə.

Beyindən axan fikirlər buludlardan tökülən yağış damlaları kimidir. Və bu damlalar torpaq üçün xeyirli olduğu qədər, insan beynindən çıxan fikirlər də elə insanın özü üçün xeyirli əlamət idi. Fikirləri güzgü kimi görmək, onları dərk etmək və onlardan yeni fikirlər yaratmaq mənəvi böyüməyimə və dünyamın dəyişməsinə bərabər oldu. Sevgi, həyata baxış, yaxşı, pis xüsusiyyətlər, Tanrı, Şeytan, məntiq və məntiqsizlik istiqamətləri hamısı bu kitab da yer alıb. Bu kitab sizə seçimlər verəcək. Təqdim etdiyim xüsusiyyətləri özünüz seçəcəksiniz. Qaranlıq bir otaqda tək oturaraq şam işığında oxuyacağınız bu kitab sizin mənəvi böyüməyinizə səbəb olacaq. Diqqətlə, təkrarən və təhlil edərək oxuyacağınız hər bir sətir sizin daxilən dərinliyə enməyinizə yardımçı rol oynayacaq. Bu fəlsəfi kəlimələrlə qidalandığınız təqdirdə dərinlikdən çıxaracağınız fikirlərə inanmağa çalışın. Sadəcə inanmaq istədiyinizə inanın. Qoyun “Ağlayan Buludlar” sizin daxilinizə öz damlalarını axıtsınlar. Hər bir damlanın faydasını hiss etməyə çalışın.

Deyəsən həqiqət yoxdur.

# HEKAYƏLƏR

# ON DÖRT SAAT

Mən səni eyni dayanacaqlarda gözlədim. Yağışda, qarda eyni dəqiqələrdə səni gözləyirdim. Mən necə təsəvvürlər etdim, səni yenidən görmək ümüdü ilə alışıb yandım. Gözlərində o dəfə ki, kimi itmək istəyirəm, sənə qarışıb saçlarını qoxlamaq istəyirəm...

Heç havanın vəziyyətinə fikir vermirdim. Çünki fərq etmirdi mənə, gecə və gündüz gözləyirdim səni. Arada acırdım, mağazaya daxil olub bulka ilə qarnımı doydururdum. Bəzən düşünürdüm ki, zamanı geri qaytarmaq olsaydı yenidən səni bu dayanacaqda görərdim. Sevgi bilmədiyin anda gəlib səni tapır. Heç gözləmədiyin vaxtda, məkana da fikir vermədən sənin qarşında dayanır. Onsuzda mən axtarmırdım sevgini, özü məni tapacaq ümüdü ilə gəzirdim küçələri. Elə təsadüfən bir qış axşamı tapdı məni. Çox gözəl görsənirdi. Əynində qara kurtka, boynunda qırmızı şərf və əlləri qırmızı əlcək ilə örtülmüşdü. Saçları çox gözəl idi. Səliqəli şəkildə arxaya daranmışdı. Möhtəşəm bir gülüşü ilə ovsunladı məni. Kaş gec gələrdi avtobus. Lənət olsun, həmin an sözlərimi bir-bir geriyə udqunmağa məcbur oldum. Yarımçıq qaldım, yuxusuzluğuma səbəb oldun. Xəyallarım genişləndi, hər gecə səni bir film kimi izləyirəm beynimdə. Artıq uzun zamandır ki, həmin dayanacağa gedib, gəlirəm. İyirmi dört saatın, on dört saatı səni gözləməyə həsr olunur. Ancaq yatmağa gedirəm evə, ya da ki, səni xəyallarımda izləmiş oluram. Səni dayanacaqda, qara kostyumum ilə hər dəfə gözləyirəm. Gəlişin üçün çox darıxıram, inan ki, gəldiyin an səni qollarım ilə sarımaq istəyirəm. Bilirəm, məni sadəcə beş dəqiqəlik izlədin, amma o,

baxışlar məni on dört saatlıq gözləməyə vadar etdilər. Hərdən düşünürəm ki, görəsən səsin necədir. Lap elə sənin səssizliyin üçün darıxmışam. Adını öyrənə bilmədim. Eybi yox, gəldiyin gün səni sevgi deyə çağıracam...

Yenə bu səhər çayımın içinə kədər qatırdım. Kədərli çayımı içdikdən sonra, dayanacağa yollanacaqdım. Səni səssiz gözləyirdim, ancaq gəlişinin səsli olmasını istəyirdim. Soyuq bir fəsil yaratdın mənim üçün, gecələr üşüyürəm. Beynimdə səninlə bağlı olan xəyallarım isidirdi məni. Bu gün günəş var, ağlayan buludlar yoxdur. Günəş də qəribə görsənirdi mənə, amma sənin saçların külək ilə rəqs edəndə anladım ki, qəribə olan mənəm. Bu gün tez gəldin, çünki on dört saat hələ tamam olmamışdı. Sevgi deyə qışqırmaq istədim, ancaq öz səsimi eşitə bilmirdim. Əllərimi açıb, sənin yanına qaçmaq istədim, amma ayaqlarım getmirdi. Qəribə bir səs eşitdim, burda yatmaq olmaz deyə polis oyandırdı məni. Gözlərim ilə səni axtardım, yuxu olmasın deyə öz-özümə pıçıldamağa başladım...

Bəzən düşünürəm ki, bəlkə də səssiz sevmək gözəldir. Amma sonra düşünürəm ki, axı mən ona toxunmaq istəyirəm. Hətta o, ağlayanda yanında olub ovuclarım ilə göz yaşlarını toplamaq istəyi keçir içimdən. Saçlarını əllərim ilə daramaq, dizlərinin üzərində yataraq günəşi qarşılamaq istəyirəm. Yox ee yox mən ona toxunmalıyam, qollarım ilə onu sarıyıb, gözlərim ilə sevdiyimi ona deməliyəm. Kaş indi yanımda olardın, çünki bu gün mənim ad günümdür. Kasıb olsamda, dükandan balaca bir tort almağa pulum çatdı. Bax qadınım, bu şamı sənin üçün üfürürəm. Daynacaqda məndən başqa heç kim yoxdur. Nə olar, qaçaraq gəl gözlərimi bağla. Bilirəm qəribədir xəyallarım, tanımayan bir insanın gözlərini necə

bağlayacaqsan. Amma mən beş dəqiqəlik sənə baxmaqla, o gündən sonra, on dört saatımı səni gözləməyə ayırdım...

Bəlkə də təsadüf deyilən bir şey yoxdur, bəlkə də var nə bilim. Sevgi bəzən insanı yora bilər, hətta bəzən ağladıb, güldürə bilər. Mən hər şeyə hazır idim bu səhər də. Bu gün sənə bir gül almaq içimdən keçdi. Bəlkə gələrsən dayanacağa, məni görərsən deyə bu dəfə gül dəstələri ilə səni dayanacaqda gözləməyə başladım. Zaman hər zaman axır, onu saxlamaq mümkün deyil. Qolumdaki saatın əqrəbləri sənin üçün işləyir. İlk gördüyüm andan bəri səni gözləyirəm gülüm. Niyə o gündən sonra gəlmirsən deyə öz-özüm ilə yenə də danışmağa başladım. Nənəm demişdi ki, sevirsənsə və o sevgini gözləməyə bacarırsansa o mütləq sənin yanına gələcək. Nənəm haqqlı idi. Başımı aşağı əyərək oturaqlı vəziyyətdə şalvarımı təmizləyirdim. Niyə sən belə tərssən, mən yola baxdığım zaman görsənmirsən. Yaxşı ki, başımı tez qaldırdım və səni avtobusa minərkən görə bildim. Bu dəfə səni itirə bilməzdim. Güllərini əlimdə bərk-bərk saxlayaraq sənin dalınca qaçdım. Yetişəcəm sənə sevgi deyə qışqırmağa başladım. Yəqin ki, sürücü anladı məni və insafa gəlib avtobusu saxladı. İçəri daxil olan kimi, gözlərim səni axtardı. Təngə nəfəs olmuşdum, ancaq bu gülləri sənə vermək üçün nəfəsimi tükətməyə belə hazır idim. Necə də gözəl gülürsən, bilmirəm gülləri bəyəndin yoxsa məni. İnan ki, ilk dəfədir tanımadığım bir qadına gül verirəm. Gülümsə hər zaman, mən də çox xoşbəxtəm, aylarımı on dört saatlıq sənə həsr etdim. Bilirsən, heç çəkinmədim sənə yaxınlaşdığım zaman. Utanmadan adımı özüm dedim sənə, sənin adını soruşa bilmədim. Çünki sən gülürdün, mən də sənin gülüşünə həvəslə baxaraq suallarımı unutdum. Eybi yoxdur, adını zamanla bilərəm. İndi mən yalnız sənin gülüşünü izləmək istəyirəm...

Sevgi qayğıdır, saatını onun üçün ayırmaqdır. İndi əmin oldum ki, saatlarım boş-boşuna keçmədi. Çünki sən mənə qayğı göstərərək, saatlarımı qaytardın.

# 730 GÜN

Heç vaxt sözünü bəzən başa düşmürdüm. Kasıb bir ailədən anadan olmuşdum, bilirəm. Amma bu mənim günahım deyildi ki. Atam fəhlə işləyir, anam isə evdar qadındır. Artıq bir həftədir ki, kartof qızartması yeyirdim. Bunda mənim nə günahım var?! Elə vaxtlar olurdu ki, çörəyi suya batırıb qarnımızı doydururduq. Heç kimdə və heçnə də günah axtarmırdım. On üç yaşım olan kimi həyatın içinə rəsmən tüpürdüm. Beş il varlanacayıq arzusu ilə yaşadım. Sonra gördüm ki, kasıblıq yaxamızı buraxmır. Hər şeyi anladım on üç yaşımda. Anladım ki, bu həyatı unutmalıyam. Depressiya çuxuruna düşdüm, gecə və gündüz otağımda qalıb vərəqlərdə ki, yazıları oxuyurdum. Vərəqləri simiçka satan nənədən əldə edirdim. Hər gün iyirmi qəpik verib bükülü vərəqin içində simiçka alırdım. O, vərəqləri heç tullamırdım, otağımda döşəmənin üstündə oturub oxuyurdum. Çünki oxuya biləcəyim bir kitab yox idi. Kasıblığın ucbatından məktəbə də gedə bilməmişdim. Sağolsun  qonşumuz Nəzakət müəllimə, pulsuz mənə oxumağı öyrətmişdi...

Depressiyadan yenicə çıxmışdım. Amma iki gün sonra yenidən depressiyaya düşdüm. Bu dəfə səbəb kasıblığa görə deyildi. Simiçka satan nənəyə görə depressiyaya düşmüşdüm. Nənənin ölümü məni oxumaqdan məhrum etmişdi. Çünki həyətimizdə ondan başqa simiçka satan şəxs yox idi. Anam deyirdi ki, ümüdünü itirmə. Amma mən də ümüd deyilən bir şey qalmamışdı. Sanki hər şeyi yavaş-yavaş itirirdim. “Bəxt üzüyü” filmində Hüseynin dediyi cümlə tez-tez yadıma düşürdü. Demişdi ki, “Kim itirmir axı bu dünya da”. Artıq

həyatdan küsmüşdüm. Rəngsizləşmişdi dünya mənim üçün. Onsuzda doğulduğum gündən bəri qara rəngin içində idim. Yaşayırdım, amma yaşamağın mənası get-gedə sönürdü. Şəhəri çıxıb heç gəzmək fikrinə belə düşmürdüm. Çünki qorxurdum. Qorxurdum ki, dükanın vitrinindən ləzzətli yemək şəkli görüb istəyərəm. Ona görə də evdə bayquş ki, otururdum...

Bir gün atam məni öz qucağına otuzdurub, mənimlə söhbət etmək istədiyini dedi:

-Oğlum artıq 14 yaşın var. İşləmək fikrin yoxdur?

-Bu sualı heç gözləmirdim-Atama baxaraq daxilimdə dedim.

-Gəl gedək mənə kömək elə. Fəhlənin pulunu sənə verəcəm. Razısan?

-Pul, iyrənc bir kağız idi mənim üçün. Amma kitab alıb oxumaq istəyirdim. Ona görə də atamla razılaşdım.

Heç vaxt düşünmürdüm kitab mağazasına girəcəm. Atamla işlədiyim vaxtdan etibarən, dörd günə altı kitab almışdım. Çox sevincli idim. Üç günə iki kitab bitirirdim. Həyatımın dəyişdiyini hiss edirdim. Amma varlı deyildik. Əslində varlı olmağı belə artıq düşünmürdüm. Düşündüyüm tək bir şey var idi, o da ağ xələtli həkimlərin mənə sabah deyəcəkləri cavab...

Heç zaman xəstəxananı sevməmişəm. Nifrət edirəm xəstəxanalara. Ağlamaqdan gözlərim şişmişdi. Həkimlərə görə ağlamırdım. Bəxtsiz olduğum üçün ağlıyırdım. Əslində indi bir

şeyi dərk etmişdim. Sən demə həyat bizi yox, biz həyatı yaşatmalıyıq. Ən azından ölənə qədər biz bunu etməliyik. Hə bu arada onuda demək istəyirəm ki, suallarım çoxdur, amma cavab verənim yoxdur.Bilirəm ki, anam da mənim bir sualımdan başqa, digər suallara cavab verə bilmiyəcək. O, bir dənə sual da bu gün həkimlərin mənə verdikləri məlumatdan sonra yarandı. Mənə çox maraqlı idi bu sualın cavabı. Əslində cavabını özüm tapa bilərdim. Amma istəmirəm özüm tapım. Çünki qorxurdum. Gözlərim yaşlı anama tərəf dönüb sualı verdim: Ana iki il neçə gündən ibarətdir?

-Oğlum özün niyə hesablamırsan?-Anam, sualıma sual ilə cavab verdi.

-Çünki qorxuram o saydan-Dedim.

-730 gün-Anam bu rəqəmi dedikdən sonra, mən hönkür-hönkür ağlamağa başladım.

730 gün. Çox qəribədir. Sən demə mən bu gündən ölümə olan addımları sayacam. Xərçəng məni 730-cu zərbədə öldürəcək. Qəribədir bilirəm. Amma geri sayım artıq başlamışdı. İndi daha çox həyəcanlandım. Ölümümə beş gün qalanda isə daha çox həyəcanlanacam. Eh, həyatımı həyəcansız yaşamaq istədim, alınmadı.

# KEÇMİŞİN NÖQTƏSİ

Yadıma düşür çantamı yığmağım. Çiynimə taxıb səssiz evə əlvida deməyim. Heç kimin olmamasına, boş qalacaq evə əlimi qaldırıb sağol deməyim. Qəribədir, görəsən bir də bu evə nə vaxt qayıdacam. Bəlkə də heç qayıtmadım kim bilir. Amma fərqi nədir qayıtsam da yenə də boş olacaq ev. Məndən başqa heç kimin səsi gəlməyəcək bu evdə. Çünki təkcə mən və bir də divarlar var idi. Bunları indi çox aydın xatırlayıram. Öncə qapını bağlamağım və sonra pilləkənlərlə düşməyim, arada çiynimdən düşən çantanı düzəltməyim, maşına əyləşib məzarlığa doğru getməyim, anama və atama çiçək qoyub buralardan getməyim. Çox aydın və net yadımdadır hamısı. Mən hal-hazırda sanki keçmişdə baş vermiş bir filmə baxıram beynimdə. Xəyallar gözümün qabağında canlanır. Hava limanına çatmağım, bircə çanta ilə yoxlanışdan keçməyim və son da arxaya dönüb baxmağım. Hamısı yadımdadır. Amma niyə arxaya döndüm?! Axı bilirəm o, gəlməyəcəkdi. Bilirəm ki, onu necə sevdiyimi ona deməmişdim. Cəsarətsiz oldum yoxsa xəyallarımın puça çıxmasından narahat oldum?! Mən gedəndə də o, sualı düşünürdüm. Cavabı asant deyil. Bu sual sadə görsənə bilər. Amma dərinliyə getdikcə o, sual mənim üçün mürəkkəbləşirdi. Bəlkə də özüm mürəkkəbləşdirirdim. Cavabı gec tapdım. Amma çox gec. Otuz il sonra cavabı tapmaq çox qəribədir. Kənardan demək sadə görsənir. Ancaq çox əzablar çəkdim. Unutmaq istədikcə daha da xəyalımda qabarlaşırdı. Gecələr yuxumun bəzəyi olurdu. Səhərlər isə günəşimi bəzəyirdi. Otuz il ayrı bir həyat sürmək. Bir qıza sevgini bildirə bilməmək. Yadıma düşür ki, 18 yaşım var idi. Təbii ki, onunla eyni yaşda idik. Gözəl fəlsəfi söhbətlərimiz var idi. Ancaq niyə

onun gözlərinə baxanda ruhum titrəyirdi?! O, bir mələk idi. Qanadsız, saf və təmiz, parıldayan gözləri və küləklə rəqs edən gözəl saçları var idi. Əllərinə deyəsən tez-tez soyuq olurdu. Çünki əllərini bir-birinə daima sürtdüyünü görürdüm. Üflüyürdü əllərinə, isitməyə çalışırdı. Bəlkə də sevdiyimi bildirsəydim ona, onda əllərini daima isti saxlıya bilərdim. Özümə demişdim ki, bəlkə qayıtmadım. Ancaq bacarmadım oralarda. Və mən 30 il sonra yenidən bu parkdayam. O, da burdadır. Gözləri necə var elə də qalıb. Əvvəlki kimi gözləri nə isə izah edir. Üzü biraz qırışıb, saçları çox az, amma çox az ağarıb. Gülüşü dəyişməyib, əvvəlki kimi yay fəslini xatırladır. Ona hər zaman gülmək yaraşırdı. Güləndə yanaqları batırdı. Çox şirin olurdu. Bir anlıq düşündüm ki, görəsən yanına getsəm məni tanıyar?! Xırda addımlarla yanına yaxınlaşırdım. Beynimdə özümü danlayırdım. Axı niyə mən 18 yaşımda ona sevgimi etiraf etmədim?! Bəli, mən çəkindim. Əzab çəkə bilərəm və bir də onunla ünsiyyətdə ola bilmərəm deyə qorxdum. Ən azından onunla etdiyim şirin söhbətləri itirməkdən narahat oldum. Amma fərqi nə oldu?! Yenə də əzab çəkdim, indi də əzab çəkirəm. Çünki mən ona qarşılıqsız bağlanmışdım. Qopmaq isə çox çətin idi. Bəlkə də özüm istəmədim qopmağı. Ancaq nə isə etiraf edə bilmədim. Ona doğru addımlamağa doğru davam edirdim. Otuz il sonra yenidən ona Salam deyəcəkdim ki...

-Ana... Ay ana... Gör mən nə tapmışam-Gözəl, amma çox gözəl, ona bənzəyən balaca bir qızcığaz onun tərəfinə qaçırdı.

-Mənim balam nə tapıb, baxım görüm-Otuz il sonra yenidən o səsi eşitmək, sağalmayan yaranın daha da qanamasına bərabər oldu. Göz yaşlarına boğulmaq, ağlamaq, amma nə dəyişəcək deyə düşünəndə özünü saxlamaq. İkimizin də 48

yaşı var idi artıq. Onun kiçik bir qızı, mənim isə heç həyat yoldaşım belə yox idi.

-Ana... Ordakı kişi niyə bizə baxır?

-Gözlə burda gəlirəm.

Ola bilməz. O mənə doğru addımlayır. Bəlkə qaçım?! Yox bu axmaqlıqdır. Məncə artıq bəsdir qaçdım. Qoy nə olur olsun.

-Salam, sizə nə isə lazımdır?

-Salam, xeyr xanım.

-Sanki sizi bir yerdən tanıyıram. Elə bil birlikdə eyni universiteddə oxumuşuq.

-Mən artıq getməliyəm. Sağolun.

-Sağolun.

-O, məni tanımağa çalışdı. Amma niyə mən istəmədim?! Bəlkə qayıdım deyim ona bu mənəm. Ancaq bu mənəm nə demək olacaq?! Əşi... Nə dəyişəcək ki?! İçimdə hələ də danışmağa davam edirdim ki, bu zaman o, sənsən deyə bir səs eşitdim. Göz yaşlarına boğuldum və arxaya çöndüm. Onun əlində mənim şəxsiyyət vəsiqəm var idi. Deyəsən onu cibimdən düşürmüşdüm. O, mənə doğru gəlməyə başladı.

-Sənin bu şəxsiyyət vəsiqən bayaqları cibindən düşdü. Mən adına baxdım, soyadına və tarixi gözdən keçirdim. O, sənsən 18 yaşımdakı sevdiyim insan-Qulaqlarıma sevdiyim insan deyə bir səs gəldi.

-Nə? Sən məni sevirdin?-Gözlərimdən yaş axmağa başladı.

-Sən getdiyin gün hava limanına gəldim. Amma sən artıq təyyarədə idin. Mən gecikmişdim. Səni otuz ilə qurban verdim- Onun danışdığı sözlər məni göz yaşlarına boğurdu. Ya da mən öz-özümü göz yaşlarına boğurdum.

-Məni bağışla mən səhv etdim. Sənə sevgimi bildirə bilmədim- Onu qucaqlayaraq və saçlarını qoxlayaraq etiraf etdim.

-Sən məni bağışla. Mən bacarmadım- O, da ağlayaraq cümləsini bitirdi.

Hər bir sözü şirin olsa da, ancaq keçmişim mənə əzab verirdi. Çıxıb getməyim, sevgimi gizlədərək, içimə ataraq getməyim mənə böyük bir dərs oldu. Ancaq indi də getməliyəm. Çünki onun bir həyat yoldaşı və gözəl bir qızı var. Ondan uzaqlaşmağa başlayırdım ki, o yenidən ortaya bir cümlə atdı.

-Getmə. Mən qızımla yalnızam. Həyat yoldaşımı dörd il bundan qabaq itirmişəm-Onun dediyi sözlərin hamısı beynimə yazılırdı. Mən ona baxdım və sonra qızına. Bəlkə həqiqətən də taleh var deyə düşündüm. Əgər getsəm o, onsuzda tək qalacaq. Məncə getməməlisən içimdən bir səs deyirdi mənə. Çantamı atdım yerə və onu yenidən qucaqladım. Bəlkə keçmişi beynimdə sıfırlamalıyam deyə düşündüm. Axı, uzağa getdikcə hər şey nöqtəyə çevirilir. Məncə keçmişim çoxdan nöqtəyə çevirilmişdir.

# KARİKATURAÇI

Mənim adım Turqut, sadəcə Turqut. Adımı qısaldan olmayıb, çünki mənim heç dostum yoxdur. İnsanlardan qaçmağı sevirəm, tək-tənha, cəmiyyətdən uzaq da qalmaq mənə daha xoş təəssürat bəxş edir. Ancaq hələ cəmiyyətdən tam uzaq deyiləm. Ona görə ki, tələbəyəm. Amma heç bəyənmədim mən tələbəlik illərini. Müəllimlər çoxlu sözlər deyirlər. Onlardan bəziləri mənasız sözlər işlədirlər. Zamanımı o, bəzi müəllimlərə xərcləmək məni çox üzür. Qrup yoldaşlarımla ünsiyyətdə olmuram. Çünki məni anlayan yoxdur. Mənə dəli deyirlər. Əslində heç məni sevmirlər. Əlimdə telefon əvəzi kitab olur. Bilirsiniz, əslində mənim heç telefonum olmayıb. Heç vaxt da olmayacaq, çünki əlaqə saxlamaq istədiyim birisi yoxdur. Nə ailəm var, nə dostum, nə də sevgilim. Ailəmi heç vaxt görməmişəm. Yetimlər evində böyüdüm. Ancaq bir gün ordan qaçmağı bacardım. Orda mənə yaxşı baxmırdılar. Qışqırırdılar, təhqir edirdilər. Bütün psixologiyamı pozublar. Qaçdığım günün axşamı məni bir baba tapdı. Üşüyürdüm, noyabr ayının 30-u olardı ki, mən ayaqyalın palçığın içində idim. O, baba məni evinə apardı. Tək yaşayırdı. Mənə paltarlar aldı, məktəbə getmək üçün mənə yardım etdi. On bir il məktəb də oxudum. Ali məktəbə sonuncu il hazırlaşmağa başladım. Hazırlığa getmədim, özüm-özümə müəllim oldum. Əmin idim ali məktəbə qəbul olacam. Bəlkə də mənə baba yardım etdi. O, mən də inam hissi oyatdı. Qəbul imtahanına bir gün qalmış, babam dünyasını dəyişdi. Son nəfəsin də mənə dedi ki, mənə görə o ali məktəbi qazan. Babama söz verdim və sözümü növbəti gün tutdum. Testin suallarını cavabladıqca, göz yaşlarına boğulurdum. Şüurum mənə babamı xatırladırdı.

İmtahanı yaxşı yazdım. İki gündən sonra cavablar çıxdı. Balım yüksək idi. İxtisas seçimini də etdim və avqust ayın da qəbul olduğum ali məktəb ilə tanış oldum. İxtisas seçimini gözləyən zaman, babanın evində qalırdım. Daş-daşımaq, bağbanlıq, zibil təmizləyən bu kimi işlərdə çalışdım. Çünki yaşamaq üçün o, lənətə gəlmiş pula ehtiyacım var idi. Ən azından bir-iki tikə çörək yeməli idim. Dərsə getməyə başladığım günlərdə də işləyirdim. Amma işlədiyim yer, bar idi. Məcbur idim, bunu yaşamağa görə edirdim. Birinci kurs da hər şey əla keçdi. Təqaüdümü artırmışdım. İndi işləməsəydim də olardı. Əlaçılıq dərəcəsindəki təqaüdü alırdım. İkinci kurs bir neçə ay işləmədim. Daha çox vaxtımı elm öyrənməyə həsr etmişdim. Həyata artıq başqa bir yöndən baxırdım. Düşünməyə çalışırdım. Bu qədər təhsil, işləmək və sonda ölmək. Niyə axı?! Bunu niyə etməli idim. Heç nə sonsuz deyildi. Və hər bir şeyin sonu varsa, onda mən niyə bu qədər özümü yoruram?! Təhsil aldığım müddət də mən yalnız əzbərçiliyi öyrəndim. Elm öyrənmədim. Çünki elm öyrətmədilər. Yalnız imtahanı keçmək üçün müddətlik bir mövzular öyrətdilər. Semestr boyunca imtahan verməkdən bezmişdim. İyrənirdim testlərdən, əzbərçilikdən. Mənim ağlıma belə ideya gəlmişdi. Deməli tələbə dörd il oxuyur və dörd il ərzində semestr imtahanları olmur. Ali məktəb ancaq tələbəyə elm və ixtisas öyrədir. Yalnız sonuncu dördüncü ildə buraxılış kursunda imtahanlar verir. Və imtahanlardan keçdiyi zaman tələbəyə diplom verilir və həmçinin də işlə təmin olunur. Yəni imtahan sırf işə qəbul üçün olur. Yoxsa semestr boyunca imtahan verməyin bir mənası yoxdur. Bir tərəfdə rüşvət, bu sistem ilə universitedi bitirdikdə də o biri tərəfdə də işsizlik. Dörd illik təhsili bitirdikdən sonra, iş tapmaq sadəcə bir ehtimaldır. Əgər bu ehtimal onları qane edirsə, onda mən universiteddəki hesabımı dondurmalıyam.

Bəlkə də həyatım yenidən başlayacaq. Heç bir sistem yox. Yalnız mən və daxmam olacaq.

İkinci kursu tam bitirməmiş, hesabımı dondurdum. Səbəbini soruşduqda isə cavabım bu oldu. Siz mənimlə razı olmadınız. İdeyamı, onlara demişdim. Fakültə dekanlığı rektor ilə danışmışdı. Rektor və mən təhsil nazirliyi ilə görüşə getmişdik. İdeyamı təhsil nazirliyinə danışdım. Əlbəttə ki, razı olmadılar. Hətta qəzet də adım çıxdı. "Dəli bir tələbə təhsil nazirliyinə dəli bir ideya ilə müraciət etdi" mövzunun başlığı bu idi. Hesabımı dondurmaq biraz mürəkkəb oldu. Əlaçı bir tələbəni itirmək istəmirdilər. Ancaq dedikləri cümlələrə fikir vermədim və hesabımı dondurdum. Universiteddən ayrılacağım gün, bir qız mənə yaxınlaşdı. Qəzet də ideyamı oxuyub və mənimlə tam razı olduğunu deyib. Təşəkkürümü bildirdim və ordan ayrıldım.

-Gözlə, indi hara gedəcəksən?-Dalımca qışqıran bir qız tələbə mənim gözlərimə baxırdı.

-İdeologiyasız,idarəçisiz və sistemi olmayan həyata gedirəm-Arxama bir də çönmədən, universitedin binasından və o qızdan uzaqlaşmağa başladım.

Babanın evində oturub müəyyən planlar qurmağa başladım. Həyatımı sıfırlamalı idim. Əslində həqiqi olaraq sıfırlanmayacaqdı, amma beynimi aldatmağı bacaracaqdım. Ağlıma bir fikir gəldi. Bu evi satıb, kəndə getməyə qərara gəldim. Amma insanların olduğu yerdən ev almayacaqdım. Halbuki mən ev almağı fikirləşmədim. Ev yaratmağı düşündüm. İki həftəyə evi satdım. Növbəti gün çantamı topladım və kəndə doğru yol aldım. Üç saatlıq bir yoldan sonra axır ki, havası təmiz olan bir kəndə çatdım. Burda insanlar az idi. Evlər də çox deyildi. Ancaq mənə heç ev olmayan bir sahə lazım idi. İki gün kəndi gəzdikdən sonra dəniz dalğalarının

sahilə çıxdığı bir yer tapdım. Bura çox gözəl idi. Quşların səsi ecazkar bir aura yaradırdı. Özüm ilə balta gətirmişdim. Hətta mişar belə almışdım. Çünki demişdim axı ev yaradacam. Və bu evi yaratmağa başladım. Öncə ağacları kəsdim, onları səliqə ilə yondum. Altı gün taxta hazırladım. Yetərincə taxtanın olduğuna əmin olduqdan sonra çəkmiş olduğum evin planını qurmağa başladım. Mənə lazım olan ləvazimatları əhalinin yaşadığı yerə gedərək alırdım. Bir həftəyə rəngsiz bir daxmanı hazırlamış oldum. Kiçik bir otaqlı daxmam var idi artıq. Növbəti günlərdə daxmanın yanında da ayaq yolu və çimməyim üçün hamam tikdim. Sonra kiçicik bir evimi rəngləməyə başladım. Evim üçün bir kreslo və bir də masa aldım. Və əlbəttə ki, işığın yansıması üçün də çoxlu şamlar almış oldum. Özüm ilə kitablarda gətimişdim. Otağımda kiçicik bir kitabxana düzəltdim. Yatağı unutmuşdum və növbəti gün də yataq aldım. Hamam üçün də lazım olan ləvazimatları almışdım. Hər şey hazır idi. Ancaq yemək problemim var idi. Amma ona da çarə tapdım. Tərəvəz və meyvə ağacları əkməyə qərara gəldim. Bir həftə əkmək işi ilə məşğul oldum. Halbuki bir problemim yenə də yaranmışdı. Bu problem ac qalmaq idi. Çünki bir-iki ay gözləməli idim ki, tərəvəz və meyvə ortaya çıxsın. Amma  o vaxta kimi gözləsəm çoxdan acından öləcəkdim...

Gecə idi. Bir daşın üzərində oturub dənizə baxırdım. Uzaqlarda bir yerdə binaların işıqları görsənirdi. Dənizin o, biri tərəfində digər insanlar yaşayırdı. Əslində mən də onlardan biri idim. Sadəcə mən artıq sistemdən kənar idim. Düşünürdüm ki, heç pul işlətməyəcəm. Amma deyəsən pul işlətməli olacam. Amma sistemə daxil olmadan pul qazanacam. Nifrət etdiyim pulu qazanmaq qərarına gəldim. Beləliklə karikatura çəkməyə başladım. Rəsm qabiliyyətim var idi. Daxmamda oturub gecə və gündüz karikatura çəkdim. Və sonra kəntdə yaşayan poçtalyana çəkdiyim şəkilləri satmağa başladım. Çoxlu

karikaturalar çəkdim. İçlərində tənqid, sevgi, azadlıq deyə bildirişlərim var idi. Bir karikaturanı beş manata satırdım. Şəkilləri məndən alan poçtalyon onları qəzetdə çap edirdi. Bunu mən bilirdim qəzetdə çap olunacaq. Bir tərəfdən də bu mənim üçün çox sevindirici bir hal idi. Şəkillər ilə insanlara nə isə çatdırmağa çalışırdım. Həyatımda artıq hər şey yerinə oturmuşdu. Aylar keçdi və mən karikaturalarıma görə məşhur oldum. Qəzetlər məndən danışırdı. Poçtalyonun yanına gedəndə hər dəfə mənə qəzətdəki anonim ad ilə yazıldığımı və məndən jurnalistlərin müsahibə almaq istədiklərini bildirirdi. Mövzuların başlanğıcında dəli sözü yox idi. Onun əvəzinə dahi sözü işlədilirdi. Əslində belə maraqlı idi. Mənim kim olduğumu bilmirdilər. Poçtalyona hər dəfə tapşırırdım ki, heç bir jurnalistə mənim yerimi demə. Evim, sakinlərin yaşadığı yerdən bir saatlıq yolla uzaq idi. Yaxşı ki, avtobus işləyirdi. Nəqliyyat vasitəsindən istifadə edərək poçtalyonun yanına gedib-gələ bilirdim. Hətta müəyyən ərzaqlar alırdım sakinlərin yaşadığı dükandan. Sakinlərin yanında yaşayan biri nənədən hətta pulsuz təndir alırdım. O, mənim üçün hər gün təndir pişirirdi. Hazır tərəvəz və iki dənə meyvə ağaclarımda var idi. Həyatım çox gözəl gedirdi.

İki il sonra...

Hər gün bir kitab oxuyub bitirirdim. Poçtalyona hər dəfə kitab sifariş verirdim. Artıq daxmanın içi kitab ilə dolu idi. Çəkdiyim bəzi karikaturaları isə daxmama yapışdırmışdım. Elə karikaturalarım var idi ki, onları poçtalyona satmamışdım. Bu gün də artıq növbəti karikaturanı bitirirdim. Poçtalyonun yanına getməyə hazırlaşırdım ki, bu zaman daxmamın qapısı döyüldü. İlk dəfə idi kim isə qapımı döyürdü. Həyəcanlı şəkildə qapını açdım. Gözlərim heyranlıqdan bərəldi.

-Salam anonim-İncə bir varlıq mənə baxırdı. O, qızı iki ildən sonra yenidən gördüm. Universiteddən ayrıldığım gün yanıma gələn anonim qız. Heç adını da bilmirdim.

-Salam. Burda nə işin var?-Hər şeyi izah etməyə başladı. İki ildir çəkdiyim karikaturaları izləyirdi. Bütün universitedlər məndən danışdığını dedi. Adımı bilməsələr də məni anonim kimi yad edirdilər. Buranı necə tapdın? Və o karikaturaları mənim çəkdiyimi hardan bildin?-Növbəti sualı ona ünvanladım.

-Öncə poçtalyondan karikuturaları kim çəkir deyə adını öyrəndim. Ondan sonrası rahat oldu. Axı o vaxtı sənin adın qəzetdə çıxmışdı. Ordan sənin adın mənim yadıma düşdü. Bu sən olmaya da bilərdin. Ancaq içimdən gələn bir səs bunun sən olduğunu dedi. Sonrada ki, poçtalyondan sənin ünvanını öyrəndim.

-Axmaq poçtalyon. Heç kimə demə demişdim hələ. Sən onu necə razı saldın adımı desin? Bir dəqiqə axı o mənim ünvanımı bilmir.

-Səni gizlicə bir dəfə izləyib və ünvanını bilib. O, ki qaldı adını öyrənməyim. Artıq o, pul qarşılığında oldu.

-Lənət olsun. Bu heç yaxşı olmadı. O, dövlətə məni sata bilər.

-Niyə elə düşünürsən ki?-Qız birdən sual verdi.

-Çünki bilirəm ki, karikaturalarımda doğruları bildirmişəm və bu da dövlətə sərf etmir. Onlar bəlkə də çoxdan məni axtarırlar.

-Ups. Bax bu pis oldu. Məncə güvənməməli idin poçtalyona.

-Düz deyirsən-Sözümü bitirdikdən sonra adını soruşdum.

-Nigar-Kiçik bir gülümsəmə ilə dedi.

Nigar mənimlə qalmaq qərarına gəlmişdi. Bir yerdə kitab oxuyuruq, sahildə gəzirdik. Onun rəsmini çəkirdim. Üç gün ərzində mən artıq ona bağlanmışdım. Hər gecə saçlarını qoxlayaraq yatırdım. Deyəsən o da mənə aşiq idi. İlk dəfə idi mən bir qızı sevirdim. Bu inanılmaz idi. Çox xoşbəxt idim.

Nigar artıq altıncı gecə idi ki, mənimlə qalırdı. Bir yataqda yatırdıq. Amma bu gecə məni yuxu tutmadı. O, yatmışdı mən isə daşın üzərində oturub düşüncələrimin dərinliyinə gedirdim. Doğruları bildirməyim düz idi görəsən deyə düşünürdüm. Hər dəfə bunu düşünəndə cavabım bu olurdu: Axı mən gözəl bir dünya istəyirəm. Müharibəsiz, idarəçisiz, sülh şəraitində bir dünya istəyirəm. Düşündükcə dəli olacağam deyə qorxurdum. Bu karikaturalar əslində nəyi isə dəyişəcək deyə düşünürdüm. Görəsən, cüzi də olsa dəyişiklik olub şəhərdə?! Nigar deyir ki, universiteddə dəyişiklik olub. Sənin ideyanı reallaşdırmağa çalışırlar. Hətta bir fakültənin tələbələri bütün fənlərdən bilə-bilə özlərini kəsiblər. Dekanlığa da bildiriblər ki, semestr imtahanlarını yığışdırın və Turqutun ideyasını reallaşdırın. Nigar bunları danışdıqca karikaturalarıma həvəsim daha da artırdı. Artıq yuxum gəlməyə başlamışdı. Daxmama doğru irəlliləməyə başladım. Daxmama bir neçə addım qalmış boom... və mən özümü yerə uzanmış vəziyyətdə hiss etdim. Başımı gücnən qaldırdım və qarşımdakı mənzərə məni göz yaşlarına boğdu. Əziyyət ilə qurduğum daxmam yanırdı. Havaya qarışmış tüstü və içərdə yanan bir insan var idi. Bu daha çox dəhşətə gətirdi məni. Nigarrrrr... deyə qışqırmağa və ağlamağa başladım. Nigar orda alışıb yanmışdı artıq. Geriyə nə qaldı?! Mənim seyr etməyim. Əlimdən heçnə gəlmirdi. Yalnız, yanan daxmanı seyr edirdim və içərdə yanan ilk dəfə aşiq olduğum qadını xəyal edə bilirdim. İnsanlar mənə doğru

qaçmağa başladılar. Amma bunlar xüsusi geyimli və başlarında maskaları olan adamlar idi. Onlar məni tapmışdılar. Heç bir qanunu belə pozmasamda məni tutmuş oldular. Yanan bir daxma və içərdə ölmüş sevgilim. Mənim həyatımı əlimdən aldılar. Bilirəm məhkəmə zalına aparacaqlar məni. Və o, hakimə ilk sualımı verəcəm. Sualım isə bundan ibarət olacaq: Doğruları bildirməyi qanun pozuntusu hesab edirsinizsə, bəs onda sizin elədiyinizə nə demək olar? Diri-diri bir insanı yandırdınız.

# ZAMANDA GECİKMƏMƏK

-Emin Quliyev zəhmət olmasa ayağa qalx. Dekanlığa universitedi tərk etməklə bağlı ərizə yazmısan. Bunun səbəbini öyrənə bilərik?

-Universitedə qəbul olanda, sənədləri gətirəndə mənə sual verməmişdilər niyə bu ali məktəbə qəbul olmusan?! Ona görə də mənim fikrimcə  universitedi niyə tərk edirsən deyə sual verilməməlidir. Həm də universiteddən çıxmağım fərdi məsəli daşıyır. Onu açıqlamaya bilərəm. Həmçinin sizin üçün bir önəmi yoxdur.

-Mən zamdekanam. Dekanın özü də bu barədə səninlə danışacaq. Bizim üçün tələbənin seçimi önəmlidir. Ona görə də səndən cavab almaq istəyirdim. Dərsdə əlavə kitab oxuyub dekanlığa çağrılmağına görə çıxırsan?

-Qətiyyən ona görə yox. Mən onsuzda dərsdən kənar kitab indi də oxuyuram. Yəni sizlər mənə mane ola bilmərsiniz bu barədə. Dekanın dediyi sözlər də isə bir məna tapmadığıma görə bədii kitab oxumağa davam edirəm.

-Bu barədə müzakirə etməyəcəm səninlə. Tənəffüsdə dekanın otağına gəl...

  Qəbul olarkən bu qədər əziyyət çəkməmişdim. Amma deyəsən sənədlərimi geri götürməyə görə əziyyət çəkəcəm. Ancaq daha önəmi yoxdur. Mən bu universiteddəki tələbə hissini artıq söndürmüşəm. Bu universiteddən çıxan kimi əsgərliyi iki il saxlatdırmalıyam. Çünki vacib bir məsələni yerinə yetirməliyəm. Beynimdəki xəyalı reallaşdıracam.

Mütləq, amma mütləq bunu edəcəm. Bunları tez-tez beynimdə düşünürdüm. Zamdekan otağı tərk etdikdən 10 dəqiqə sonra zəng vuruldu. İri-iri addımlarla dekanın otağına doğru irəlliləməyə başladım. Artıq söz götürməyim deyə qapısını döydüm. Ondan sonra gələ bilərsən deyə bir səs eşitdim.

-Salam.

-Salam Emin. Xoş gəlmisən.

-Çox uzatmayacam. Sənədlərimi götürmək istəyirəm artıq-Rahat şəkildə danışmağa başladım.

-Emin, niyə tərk eləyirsən universitedi?-İlk sual beynimə göndərildi.

-Zamdekana cavab vermişəm. O, sizə demədi?

-Bayaqları burda idi. Dedi mənə hər şeyi. Ona heç nəyi izah etməmisən. İki il oxumusan bəs indi neyliyəcəksən?

-Bu fərdi fikri demək istəmirəm sizə-İddiallı şəkildə cavab verdim.

-Diplomsuz keçinə biləcəksən?

-Artıq o kağız parçasına ehtiyacım yoxdur. Mənim üçün onun önəmi itib-Gülümsəyərək cavab verdim.

-Bəs dövlət işinə necə düzələcəksən?

-Hmmm... Təbii ki, şirinlik verməyəcəm. Ofisə görüşlərə getməyəcəm. İnternetdə elanlara baxmayacam. CV-ni düzəldib göndərməyəcəm iş yerlərinə.

-Anlamadım. Bəs neyləcəksən?-Dekan sözümü yarımçıq saxlayıb sual verdi.

-Dövlət işinin də dəyəri itib gözümdə. Ona görə də mənə dövlət işi lazım deyil.

-Qəribəsən. Yaxşı, özün bilərsən. Sabah sənədləri verə bilərəm. Amma hələ vaxtın var, yaxşı düşün bu barədə.

-Zamanda daha geri düşmək istəmirəm. Sağolun...

Artıq özümü tələbə kimi hiss etmirəm. Buna əminəm. İndi isə evə gedib isti kofe içərək sonuncu cümlələri kompyuterdə yekunlaşdırmalıyam. Yeni tapmış olduğum işə isə növbəti gündən gedəcəm. Onsuzda dövlət işi deyil, ona görə də hansısa bir sənəd hazırlamayacam. Deməli orda 3 aylıq fəhlə işləsəm. 15azn-dən hesablayanda 30 günə 450 azn edir, 90 günə isə 1350 azn. Əla, planlarımdan birini reallaşdıra biləcəm. Lənətə gəlmiş 90 dəqiqələr axır ki, bitti mənim üçün. Bəzi müəllimlərin boş-boş danışması isə boğaza yığmışdı məni. Hələ bir müəllim var idi. Açıq aydın bildirir ki, gücnən bu otaqda dayanmışam. Məcburən vicdanını rahatlatmak üçün dərs deyir. Lənət olsun təhsilə. Onsuzda bir qəpiyə dəymir. Təhsil var burda?! Yoxdur, olacağını da gözləmirəm. Savadımı lazımınca özüm artırıram. Onsuzda müəllim əslində yol göstərən kimidir. Amma ehtiyacım yoxdur o, yol göstərənlərə. Onsuzda bəziləri çuxura aparır insanı. Bir-iki işimi kompyuterlə gördükdən sonra yatmağa hazırlaşırdım ki, telefonuma zəng gəldi.

-Salam dostum. Mən onlarla danışdım. Mənə dedilər 1000 manata başa gələcək.

-Əla razıyam. Üç aydan sonra sənə zəng edəcəm.

-Yaxşı, bəs üç aya qədər elə-belə görüşməyəcəyik?

-Yox, çünki hər gün işləyəcəm.

-Tamam. Uğurlar sənə.

-Çox sağol-Söhbəti yekunlaşdırıb, telefonu səssizliyə qoyub, özümü yatağa atdım. Və məncə xoruldamağa başlamışdım...

Səhər gec durdum. Elə durdum ki, artıq universitedə getmək vaxtı idi. Amma bir dəqiqə dayanıb güzgü də özümə baxdım və gülməyə başladım. Axı mən daha tələbə deyildim. Çünki, bu gün sənədləri götürməyə gedəcəkdim. Dərslərə girməyəcəyimə görə universitedə getməyə görə də tələsməməliyəm. Heç tələsmədən çörəyimi yedim. Biraz uzandım. İnternətdə biraz gəzdim. Sonra əynimi dəyişməyə başladım və bu zaman nifrət etdiyim saata baxdım. Artıq keşmiş tələbə yoldaşlarım birinci dərsin ikinci 45 dəqiqəsində olduqlarını düşündüm...

Universitedə çatar-çatmaz düz dekanlığa getdim. Sənədlərimi artıq hazırlayın deyə fikir bildirdim. Amma biraz gözləməli idim. Onu bilirəm ki, artıq rektor ərizəmi imzalamışdı. Ərizəni imzalayanda nə qədər sual vermişdi mənə. Hələ də suallar bircə-bircə qulağımda vızıldayır. Dekanlığın otağından çıxıb sinifə daxil oldum. Müəllimdən icazə aldım ki, beş dəqiqəlik bir danışıq edə bilərəm?! Sağolsun bu qoca müəllim icazə verdi ki, yoldaşlarımla sağollaşım. Yoldaşlar, sizə bir iki məsləhət vermək istəyirəm. Həyat əks təsirə bərabərdir. Sən onunla necə davransan o da səninlə o, cür davranacaq. Universiteddə elə qaydaya tabedir. Amma mən sıxıldım. Universitedin bir dəyəri qalmadı gözümdə. Onunla oynamaqdan bezdim. Mənə ağır zərbələr vurmamış bu universitedi tərk etmək qərarına gəldim. Çünki zamanda artıq geri düşürəm. Universiteddə

itirdiyim vaxtları geri qaytarmaq üçün ağlımda ideyalar var. Onları gerçəkləşdirə bilsəm zamanda qalib gələcəm. Bilirsiniz, yoldaşlar zaman dəyərlidir. Amma mən ona nifrət edirəm. Çünki o, insanı tələsdirir. Zamanı unuda bilməcəyini bildiyin üçün ona çatmağa çalışırsan. Mən onu silə bilmirəm həyatımdan. Ona görə də onunla birgə qaçmağa qərar verdim. Məncə çata biləcəm ona. Nə isə... Çox vaxtınızı almayacam. Əgər zamana qalib gəlmək istəyirsinizsə onda reallaşdırmaq istədiklərinizi təxirə salmayın. Çünki mən təxirə salmadım. Bu universiteddən gedirəm. Özünüzə yaxşı baxın. Sağolun...

Sənədlərimi götürdükdən sonra universitedin qapısından elə çıxdım ki, sanki çürümüş bir zamandan yeni zamana addım atırdım. Avtobusa əyləşib evə doğru getməyə başladım. Evə çatan kimi ağlımda olan ilk şeyləri etməyi düşündüm. Öncə kompyuterdə olan işimi tamamladım. Və sonra iş paltarlarımı hazırlayıb sabahkı iş üçün müdürə zəng etdim. Hər şey əla idi. Məncə üç ay necə keçəcək heç bilməyəcəm. Bircə dənə istədiyim pulu yığım. Lənət olsun o rəngli kağız parçalarına. Pula necə də nifrət edirəm. Axı mən müddətlik xoşbəxtliyə layiq deyiləm. Mənə müddətsiz xoşbəxtlik lazımdır...

3 ay sonra...

İsti yay günləri başlamışdı artıq. Bu gün tikintidə görəcəyim son iş günü idi. Daha doğrusu mən belə təyin etmişəm. Hələ daha çox fəhləlik edə bilərdim burda amma istəmirəm. Bu gün sonuncu pulumu alacam. Və evdəki 1345 azn-nin üzərinə qoyacam. Sabah artıq istəyimin ilk addımını atacam. Bunları düşünərək paltarlarımı dəyişirdim. Sonra isə ustaya yaxınlaşdım və günün sonuncu pulunu götürdüm. Usta ilə sağollaşdım və bir də gəlməyəcəyimi bildirdim.

Evə çatar-çatmaz 15 azni-də digər pulların yanına qoydum.

-Hazırdır?-Anam birdən soruşdu.

-Hə anacan. Sabah gedirəm nəşriyyata.

-Kitabıda yazıb bitirmisən?-Anam təəccüblə soruşdu.

-Üç ay bundan qabaq bitirmişəm-İçdən bir sevincin gəldiyini hiss etdim...

Hər şey hazır idi. Üç ay işlədim və pulumu yığdım. Bir aya nəşriyyat kitabımı hazır etdi. Satışa çıxardarkən çox həyacanlandım. Təəccüblü anlar oldu. Sən demə kitabımı universiteddə mənə dərs demiş müəllimlərdən də alan olmuşdu. Hətta zamdekan, dekan belə kitablarımdan almış oldu. Kitabım yaxşı satılırdı. Çox razı idim. Artıq bu kitabla bağlı ikinci nəşri belə düşünürdüm. Keçmiş tələbə yoldaşlarımdan da kitabı alanlar oldu. Hətta universitedin təşkilatçıları mənim üçün tələbələrlə görüş təşkil etdilər. Mənim heç xəbərim yox idi. Görüşə bir gün qalmış mənə universitedə gəlməyi təklif etmişdilər. Səbəbini dedilər, hər şeyin hazır olduğunu bildirdilər məndə razılaşdım. 19 yaşımda ilk kitabım çoxlu sayda satılmış oldu. Əlbəttə ki, piratlar da bundan istifadə etdilər. Amma bu çox vecimə deyildi. Əsas odur kitabımdan çoxları mənəvi qida almağa başlamışdılar. Deyəsən məşhur olmuşdum. Çünki kim görürdü şəkil çəkdirmək istəyirdi. Həmişə metrodan istifadə edirdim. Hər dəfə bir neçə gənc əli ilə məni göstərib öz aralarında danışırdılar. Qızlar uzaqdan əl edirdilər. 20 yaşım olan kimi eyni kitab ikinci dəfə nəşr olundu. Bu dəfə də çox satıldı. “Zamanda gecikməmək” adlı kitabım çox sevilmişdi. Artıq düşünürdüm ki, birinci istəyimi reallaşdırmışam. Əsgərliyi isə iki il saxlatdırmışdım. Bunun bir ilini xərclədim. İndi geriyə qaldı bir il. Məncə ikinci istəyimi reallaşdırıb sonra getməliyəm əsgərliyə. İkinci istəyimə görə hazırlıqlara başlamışdım. Hər

gecə kompyuter arxasında oturub çəkəcəyim ilk kinonun senaryosunu yazırdım. Növbəti ay da artıq ilk kinomu çəkəcəkdim. Və mən kinonu yayımladıqdan sonra əsgərliyə gedəcəkdim. Bu belə mənim beynimdə qalmışdı. Mən gündən-günə istəyimə çatırdım. Bəlkə də taleyim belə idi. Bəlkə də indi nə qururamsa o, var idi. Ancaq hər nə isə onu bilirəm ki, insan istədiklərini reallaşdırmaq gücünə malikdir. Öncə səbr, sonra xəyal etmək və sonra istəyə doğru addımlamaq lazım idi. Məncə insan öncə xəyal etməlidir, sonra o, xəyalı reallaşdırmalıdır. Çünki arzuların həyata keçirilməsi xəyaldan başlayır...

# OBSESSİV KOMPULSİV

Bir otaq, tək pəncərə. Bu otaqda mənim bədənim, amma bədənim bir dənədisə o demək deyil təkəm. Qarşımda güzgü, ya mən ona baxıram ya da o, mənə baxmış olur. Qapı, 15 gündən çoxdur ki, heç açılmır. Pəncərə, çoxdandır ki, içəri günəş şüaları daxil olmur. Səbəbi çox sadədir. Qara pərdələr qaranlığımın tək səbəbkarlarıdır. Yenə başladım özümü aldatmağa. Əlbəttə ki, pərdələrin heç bir günahı yoxdur. Onları özüm asmışam pəncərədən. Niyə asmısan?... Ax yenə o səs. 15 gün keçib hələ mən tək pəncərəli otaqda ilişib qalmışam...

Pul qabımdan tələbə biletimi çıxartdım. İstədim qırım amma fikirləşdim ki, birdən qayıtmalı olaram. Axı mən çıxmamışam universiteddən. Sadəcə bir neçə müddətlik getməyəcəm. Düzdür, bu müddət uzanır artıq. Amma bunun səbəbkarı mən deyiləm. Bu prosesi yerinə yetirməyi mən istədim. Amma o, uzadır. Off... Bəlkə heç mən istəməmişəm. Əgər neyronların əlaqəsi ilə fikir yaranırsa və beynim 7 saniyə məndən qabaq bir şeyi təyin edirsə görəsən onda mən nəyi isə istəmiş oluram?! Hələ determinizm var. Əgər o, doğrudursa mənim burda seçim etməyə onda haqqım yoxdur. Cəhənnəmə, heç seçim etmə... Lənət olsun yenə onun səsi gəlir. Özün cəhənnəm ol. Off... Baş qoşmuram sənə. Mən səni dinləmirəm... Mən səni dinləmirəm...

Otağıma yenidən nəzər saldım. Bir dənə stol, stul, bankalar, vedrələr və soyuducu var idi. Bir aylıq ərzaqla soyuducunun içini doldurmuşam. Amma burda 15 gündən çox olmağım heç sərf etmədi. Çünki get-gedə vaxt uzanır və yeməyim tükənir. Ancaq istədiyimi əldə etməmiş çıxmayacam burdan. Nə isə

çalışım gözəl xəyallarımdan birinə baxım. Məsələn: İlk və son dəfə aşiq olduğum qızı izləyim. Yadıma düşür... Yadıma düşür... Bir yaz axşamı idi. Ağacın altında oturub ona şeir oxuyurdum. Başını dizimin üzərinə qoymuşdu. Mən də şeiri oxuya-oxuya saçları ilə oynayırdım. O, isə əlini havaya qaldırıb ulduzları sayırdı. 25, 26, 27, 28, 29... və çaşıb qaldı. Göy üzü onu çaşdırdı. Necə də gözəl günlər idi. Gecə yarısı olurdu amma biz fəlsəfi söhbətlər edirdik. Və sən onu öldürdün... Sən onu öldürdün... Cəhənnəm ol burdan sənin səsini eşitmək istəmirəm. Mən onu öldürmədim. Biz sadəcə maşın qəzasına düşdük. Mənim burda heç bir günahım yoxdur. Mənim günahım yoxdur. Mən günahsızam. Hə... Hə... Mən günahsızam... 15 gündür ağlamaq və heç bir dəyişikliyi görməmək. Axı mən belə düşünməmişdim...

Göz yaşlarıma boğulmuşdum. Anamı, atamı və sevdiyim qızı 17 yaşında itirmək, böyük əzabdır. Gözlərimi yumsam və yatmadan onların xəyalını etsəm görəsən qarşımda canlanarlarmı. Xəyalların reallığa çevrilməsi hər şeyə aid deyilmiş sən demə. Kaş "Blue Brain" projesi həyata keçirilərdi o vaxt. Anamın, atamın və qızın fikirlərini kompyuterə köçürərdim. Eyni cism ilə olmasalarda başqa bir cism onlar üçün təşkil edərdim. Məsələn: Robot alardım və onların fikirlərini köçürərdim onun üzərinə. Düzdür, eyni qayğını verməyəcəkdi ancaq özümə təsəlli verə biləcəkdim. Eh... Hələ "Blue Brain" projesi üzərində işləyirlər. Amma mən istifadə edə bilməyəcəm. Çünki anam, atam və qız artıq yoxdur...

Nə edim?! Hələ dəyişikliyi görə bilmirəm. Tək pəncərəli otaqda yuxu dərmanlarına baxıram. Onları saxlayacam hələ ki. Nə vaxt ki, soyuducu boş qalacaq onda o, yuxu dərmanlarından istifadə edəcəm. Üff... Əynimdəki paltarlardan da artıq iy gəlir. Lənətə qalmış çıxıb getmir ki, mən də normal

həyatıma qayıdım. Ayda... Gərək saçlarımı bura gəlməmişdən qabaq qırxardım. Saqqaldaki bir tərəfdən uzanır. Off... Off... Sənə mən nə deyim. Gör nə günə saldın məni...

31 gün sonra...

Həyatımdan 31 gün getdi. Artıq bu gündən etibarən ac və susuz qalacam. Qərara gəldim ya mən onu öldürəcəm ya da o, məni. Mənə bir şey maraqlı gəldi. Görəsən bir yaşımdakı vəziyyəti niyə xatırlaya bilmirəm. Şüurumun o, dərinliyinə varmaq yəni mümkün deyil?! Amma çox istəyərəm bir yaşımı xatırlayım. Hətta həyatımın ikinci gününü belə xatırlamaq istəyirəm. Görəsən onda nə edirdim?! Nə düşünürdüm?! Maraqlıdır, həqiqətənmi bir kodlaşdırma kimi yığılmışam. Yoxsa kodları yaşadıqca yığıram?! Əgər talehim qabaqcadan qurulubsa onda mən niyə əziyyət çəkməliyəm?! Amma ki, bilsəm talehi dəyişmək olur onda əziyyət çəkərəm. Eh... Mən heç hələ determinizmə inanmıram. Hələ şüphələr var içimdə. Yəni taleh qabaqcadan qurulub yoxsa yox?! Tutaq ki, qurulub. Bəs nəyə görə yaradıcı qüvvə belə bir əmələ əl atıb?! Əminəm ki, tanrı zər atmayıb. Hər şeyin bir səbəbi olmalıdır. Düşünürəm və belə bir nəticəyə gəlirəm ki, içimizdə əgər duyğu və duyğusal hərəkətləri tənzimləyən və yaradan limbik bir sistem varsa onda bəs insanın seçim prosesi nədən ibarət olacaq?! Bir düşünün beynimizdə hipotalamus, hipokampus, talamus və amigdala var. Bunların özünə məxsus xüsusiyyətləri mövcuddur. İçimizdə bizi idarə edən sistem var. Bunu düşündükcə tüklərim biz-biz durur. Yaxşı, bunlara inanıramsa nəyə görə determinizmə inanmamalıyam?! Hmmm... Əslində çox çətin sualdır. Hələ bizi insan edən prefrontal korteks var. Beynimizin ön hissəsində yerləşib. Əgər

o, zədələnsə onda biz heyvanlardan fərqlənməyəcəyik. Düzdür, bəziləri var fərqlənmir. Ona görə də şüphələnirəm. Ola bilər ki, onlarda prefrontal korteks zədələnsin. Deməli çox şey bizdən asılı deyil. Çox şeymi yoxsa heç nə?! Yenə orta da qaldım. Bu ac vaxtımda gör nələri düşünürəm. Neyronlar necə də gözəl işləyir. Sən axmaqsan... Universiteddən atılacaqsan... İşin olmayacaq... Səndən bir adam olmayacaq... Rədd ol burdan, sənin səsini eşitmək istəmirəm. Yenə gic-gic sözlər deyirsən. Bezdirmə məni. Mən səni dinləmirəm... Mən səni dinləmirəm... Yox dinləyirsən... Mən səni dinləmirəm... Cəhənnəm ol, dinləmirəm səni...

Hiss edirəm ki, başım ağrayır. İkinci gündür ki, ac qalmışam. Off... Məncə daha vaxtdır. Yuxuya səyahət etməliyəm. Amma öncə buddanın rejimini həyata keçirməliyəm. Əgər buddanın rejimini həyata keçirməsəm onda yuxu da bir şəhər yarada bilməyəcəm. Həyacanlıdır, görəsən yuxunun olduğunu hiss edə biləcəm?! Yuxu dərmanını atmamışdan qabaq, buddanın rejimini həyata keçirməyə hazırlaşırdım. İki ay bundan qabaq öyrənmiş olduğum bu proses insana yardım edir ki, yuxu da bir şəhər yaratmaq alınsın. Yəni necə ki, bu həyatda beyninin görüntüsünü izləyirsən eləcə də yuxu da şəhəri, insanları və digər istədiyini yaradıb görüntüləri izləyə bilirsən. Yenidən bu dünyaya qayıtmaq mümkün olur. Amma istəyirsən də orda yaşa. Görəsən bu lənətə gəlmiş məni orda narahat edəcək?! Lap bezdirib məni. Köynəyimi və şalvarımı əynimdən çıxartdım. Bir növ meditasiya kimi prosesi həyata keçirtdikdən sonra yuxu dərmanını qəbul etdim. Əslində dərmanı qəbul etməsəmdə olardı. Ancaq yatmağım biraz çətin olacaqdı. Çünki çox acmışam. Sonra döşəmənin üzərinə uzandım və gözlərimi yumdum. Hiss edirdim hələ bu dünyadayam. Amma mən öncə sərhədsizliyi təsəvvür etməyə başladım. Sonra gördüm ki, yox e belə yuxuya gedə bilməyəcəm. Qərara

gəldim ki, heç nə düşünməyim. Və sonra hiss edirdim ki, mən deyəsən yavaş-yavaş bu yuxudan digər yuxuya keçid edirəm...

Oğlum, get bir dənə çörək al. İnanılmaz, mən bir yuxudayam. Anam, o mənimlə danışdı. Mən onu görürəm. İgid, dərslərini etmisən? Atam mənə baxır. İnana bilmirəm gözlərimə. Yuxudayam sanki. Elə yuxudayam da nə gic-gic danışıram. Ancaq kaş gerçək olardı. Nə isə oyanmamış bu yuxunun dadını çıxartmalıyam. Çıxım indi küçəyə baxım görüm şəhəri necə yaratmışam. Aman tanrım. Bu inanılmazdır. Tam istədiyim bir şəhəri əldə etmişəm. Xəyallarımda olan bir görüntü. Uçan maşınlar, pulsuz alış-veriş mərkəzi, hətta kitablar da pulsuz. Budur tam istədiyim. Əla... Nəsə maraqlı gəldi bu yuxu. Və budur əlbəttə ki, yuxumda sevdiyim qızda olmalı idi. Gözlərimə inana bilmirəm, iri-iri addımlarla mənə doğru yaxınlaşır. Saçları dalğalanır, üzündə təbəssüm, mənə doğru gəlir. Budur o, artıq mənim qarşımdadır. Mənə baxır, mən də ona baxıram. Mən onu sonra qucaqlayıram.

-Ey... Nə olub sənə? Elə bil yeni görürsən məni. Ya da sanki ölmüşəm illərcə görməmisən.

-Gözlərim bərəldi. Təbii ki, bu sadəcə yuxudur. Başqa nə gözləməli idim ki. Əlindən tutub evə doğru apardım onu. Ana, ata biz gəldik.

-Yenə çörəyi yaddan çıxartdın.

-Bu dəqiqə qaça-qaça alıb gəlirəm. Keç sən otur gəlirəm.

Çörəyi alıb gətirdim. Hərdən unudurdum ki, bu bir yuxu deyil. Amma müəyyən fikirlər xatırlatma edirdi mənə. Onda ayılırdım

ki, bu bir yuxudur. Nə isə bu yuxunun dadını çıxartmalıyam. Anama, atama və qıza baxırdım. Onlar necə də mehriban insanlardılar. Birdən ayağa durdum və anamı, atamı öpüb qucaqladım. Qıza baxdım və onun alnından öpdüm. Birdən nəsə oldu. Səslər bir-birinə qarışmağa başladı. Ətraf bulanıq oldu. Səslər get-gedə çoxalırdı. Və bu an boom sanki bir maşın içəri daxil olub evi dağıtdı...

Yuxudan tərin içində oyandım. Oyanmağımında səbəbini bildim. Qapını iki dostum döyürdü və qışqırırdılar. Əlbəttə ki, qapını açmayacaqdım. Çünki hələ istədiyimi əldə etməmişəm. Səsimi də heç çıxartmadan dizlərimi qucaqlayıb küncdə əyləşdim və onların getməsini gözlədim. Onlar getdikdən sonra yenidən ətraf sakitliyə büründü. Mədəmin ağrısını artıq hiss edirdim. Çox pis ağrayırdı. Aclığımın ikinci günü artıq bitirdi. Deyəsən bircə çarəm qalmışdı. Çantamdan dəftəri çıxardıb, vərəqləri bircə-bircə cırmağa başladım. Sonra onlara baxırdım və düşünürdüm. Görəsən onları yesəm doyacam?! Bunu düşünərək vərəqləri yeməyə başladım. Dəhşət susamışdım. İçməyə amma heç nə yox idi. Ancaq bir ideya gəldi ağlıma. Halbuki bu iyrənc bir ideya idi. Axı mən ayaq yolunu bankalara edirdim. Banklarıda ki, toplayıb küncdə saxlamışdım. Görəsən onları götürüb içsəm susuzluğumu yatıra bilərəm?! Burnumu tutdum və bankanın içindəki sidiyi içdim...

Əllərimi başımın üzərinə qoyub yellənməyə başladım. Düşünürdüm ki, o, zəhrimara qalmış səsi necə batıra bilərəm. Saçlarımı yolmağa başladım. Özümü qəribə hiss edirdim. Sanki ölmək və yaşamaq arasında incə bir ipin üzərində yellənirdim. Arada başımı divara çırpırdım. Sən dəli olmusan... Yox, mən dəli deyiləm. Sən dəlisən... Mən dəli deyiləm. Aramızdakı dialoq böyüyürdü...

Sonuncu dəftəri əlimdə tutmuşdum. Yeyib, yeməmək arasında ilişib qalmışdım. Elə hey düşünürdüm ki, birdən ağlıma bir fikir gəldi. Yazacam, onun haqqında yazacam. Təhlil edəcəm onu. Bəlkə onda çıxış yolu tapa bildim. Axı bu şəraiti ona görə yaratmışam. Mən onu öldürməliyəm. Lənətə gəlmiş. Əlimə bir qələm alıb başladım yazmağa. Keçən 33 günün hesablarını yazdım. Və sonra başladım təkrar-təkrar oxumağa. Oxudum, oxudum və sonra bu günün təhlilini çıxartdım. Deyəsən bitirmişdim yazmağı. Aralıqsız 7 saat yazdım. Sonra dizlərimi qucaqladım və yellənərək yazdıqlarımı yenidən oxumağa başladım. Arada mədəmi qucaqlayırdım. Üçüncü gün idi ki, ac idim. İçim də daraldı və mən dəftəri kənara tulladım. Yerə uzandım və heç nə düşünməməyə çalışdım. Ancaq deyəsən alınmırdı. Neyronlar öz əlaqələrini kəsmirdilər. Əlimi qulaqlarıma doğru apardım və səssizliyi hiss etməyə çalışdım. Ancaq bu səssizlik yenidən pozuldu. Qapını yenə dostlarım döyməyə başladı. Onlar qapını sındıracayıq deyə qışqırırdılar. Yuxunu xatırlamağa çalışdım. Qırıq-qırıq kadrlar gözümün önünə gəldi. Görəsən niyə yuxunun hamısını xatırlaya bilmirdik. Niyə insan öz-özünə əzab verir?! Niyə içimizdə bir şeytanın olduğunu düşünürük? Bəlkə düşündüyümüz üçün əzab çəkirik. Nəyə görə içimdə əlavə bir səsin olduğunu düşünürüəm?! Sondur bu... Amma mən bir şeyi başa düşdüm. Özümə yardım edə bilməsəmdə insanlara yardım edə biləcəm. Sürünə-sürünə dəftərdən bir vərəq tapıb məktub yazmağa başladım. Uzanan yerdə, ölümü hiss edərək həyatımın sonuncu cümlələrini yazdım...

-Dostum... Dostum... Gəl bura o, yerdə uzanıb. Yox... Sən ölə bilmərsən... Ayıl...

-Mənə ölmədiyini de.

-Çox təəssüfki biz onu itirdik.

-Əlinin altından dəftəri götür. O, nə dəftərdir?

-Obsessiv kompulsiv… Obsessiv kompulsiv… Obsessiv kompulsiv… Yazının başlanğıcı belədir.

-Ax lənət olsun. O, sarışan hallardan əziyyət çəkirdi.

-Hə cümlələrin birində qeyd edib. Dayan sonuncu vərəqdə məktub formasında fikirlərini yazıb. Məktubun başlanğıcı "Nəticə" sözü ilə başlayır.

-Oxu...

-Bu gün sarışan hallar(obsessiv kompulsiv) nevrozu ilə mübarizəmin 34-cü günüdür. Mən belə qərara gəldim ki, qələbəni ona verim. Çox düşündüm və qərara gəldim ki, bu həyata keçirtmiş olduğum prosesə ehtiyac yox idi. Sən demə onunla mübarizə aparmaq məntiqsizlikdir. Çünki nə qədər onunla mübarizə aparsaq o, quduzlaşır. Bir növ buna bənzəyir. Anlamsız insanın boş-boş danışığına fikir verəndə o, özünü ağıllı hesab edir və boş-boş danışmağa davam etmiş olur. Sarışan hallar ümumiyyətcə uşaqlıqdan gəlir. Valideynlərin qadağaları, uşağa qarşı olan təzyiqləri, uşaqların stress, qorxu içində yaşamaları sarışan halların yaranmasına səbəb olur. Obsessiv kompulsiv(sarışan hallar) nevrozluğu dərman ilə müalicə oluna bilməz. Onu yalnız insanın öz düşüncələri məhv edə bilər. Mən nəticəni tapdım. 34 gün əziyyətdən sonra belə nəticəyə gəldim ki, ona fikir verməyin. Nə deyirsə qəbul edin və ona cavab verməməyə çalışın. İt hürər karvan keçər misalı buna aiddir. Mən qurtula bilmədim. Çünki aclıq məni öldürdü,

nevrozluq yox. Ancaq sağ qalsaydım onu içimdən çıxarda biləcəkdim. Nəticəni tapdım. İndi siz özünüzü qurtarın. Mübarizə aparmayın nevrozluqla. Onu sadəcə qəbul edin. Sonra özü çıxıb gedəcək içinizdən. Sağolun...

# ÜÇÜNCÜ ŞƏXS

-Alo, Sofi?! Nə olub sənə? Niyə ağlayırsan?

-Artur, mən özümü piss hiss edirəm. Sən hardasan? Görüşə bilərik?

-Əlbəttə, harda görüşək?

-Həmişəki yerdə.

-Oldu.

Sərin bir külək əsirdi. Səmada ağlayan buludlar artıq görünməyə başlayırdı. Addımlarımı sürətləndirirdim. Arabir daşa ilişib büdrəyirdim. Tez-tez çiynimdəki çantamı düzəldərək, yoluma davam edirdim. Günəş hardasa batmaq üzərə idi. Havada bir kədər qoxusu gəzirdi. Sahilə çatmağa artıq az qalmışdı. Yoxuşdan, aşağı enən zaman az qala yıxılacaqdım. Gözlərimi dənizə doğru zillədim. Aman Tanrım, bu necə havadır belə?! Duman, dənizi büs-bütün örtməyə çalışırdı. Dalğalar, yenə əsəbi idilər. Nostalji hisslər yaşamıram desəydim yalan olacaqdı. Sofi, sahil kənarında əyləşmiş vəziyyətdə yenə özünü tüstüyə boğurdu. Başında papaq, yanında isə içki şişəsi var idi. Və o, yenə kədərə bürünmüşdü. Yavaş addımlarla gəlib yanında əyləşdim. Mənə baxmadan, bu gün buludlar ağlayacaq deyə danışmağa başladı.

-Sofi, sənə nə olub?-ilk sualımı ona ünvanladım.

-Gəl, keçmişdən başlayaq. Sonra mənə nə olub, onu sənə izah edəcəm-Başını havaya qaldıraraq mənim danışmağımı istədi.

-Yaxşı dedim.

-Artur, biz necə tanış olduq?-Sualını verdikdən sonra, içki şişəsini dodaqlarına yaxınlaşdırdı.

-Kitabxanada bir-birimizi tanıdıq. Sən tək-tənha bir masa arxasında əyləşmişdin. Həmin zaman yazıçı olduğunu bilmirdim. Ancaq sənin tipin mən də maraq oyatmışdı. Tez-tez saçlarını dağıdıb, ağ vərəqə nəsə yazırdın. Sonra əlini çənənə qoyub, dərin xəyallara dalırmış kimi olurdun. Dəqiqələrcə elə dayanıb, sonra ağ vərəqə yenə nəsə yazırdın. Bu mən də maraq oyatdı. Sənə yaxınlaşmağa qərar verdim. Gəlib, səninlə üzbəüz əyləşdim. Dairəvi bir masa idi. Sən, sanki bu dünya da deyildin. Çünki elə bil səninlə üzbəüz bir şəxs əyləşməmiş kimi davranırdın. Yenə saçlarını dağıdıb, bir donmuş vəziyyətə düşürdün. Bu zaman bir hekayə yazdığını başa düşdüm. Ağ vərəqinə baxdım və orda bir hekayə yazıldığını gördüm. Beş cümlə oxudum göz ucu. Və elə o, beş cümlə ilə ovsunlandım. Hekayə yazırsınız? Deyə soruşmuşdum səndən, yadına gəlir? Sənin cavab verməyini gözləmədən, mən yazıçıyam, sizə kömək edə bilərəm deyə ağ vərəqini götürüb oxumaq istəyirdim ki, qələmin ucunu əlimə batırdın. Olmaz, bir yazıçının vərəqini icazəsiz götürmək olmaz deyə qışqırmışdın. Mən də öz əlimi sığallayaraq, bağışlayın demişdim. Çox utanmışdım, həqiqətən səhvə yol vermişdim. Yadına gəlirsə, üzr istəmişdim. Sən də, yəqin ki, üzrün qəbul olunub-olunmamasını gözləmirsiniz deyə mənə baxaraq pıçaldamışdın. Məndə başa düşməmişdim nə dediyini. Nə deyirsiniz? Deyə təkidlə soruşmuşdum. Sən də, üzr istəyən

ancaq daxilini sakitləşdirməyə görə üzr istəyir və qarşı tərəfin üzrü qəbul edib, etməməsi deyə bir şey olmadığını demişdin. Sənin ağıllı bir yazıçı olduğunu o, an başa düşmüşdüm. Nə isə, sonra sən hekayəni bitirdin və mənə uzatdın. Və belə bir fikir bildirdin: “Həddindən daha çox xəyal öldürmür. Sadəcə o, xəyalın içərisindəki şəxs öldürür. Amma onu sən yaratmısan, deməli sən özünü öldürməyə əmr edirsən. Və bu “sən” elə beyin olacaq” demişdin. Cümləni bitirdikdən sonra çıxıb getmişdin və hekayəni məndə qoymuşdun. Yadına gəlirdə bunlar?

-Hə, Artur yadıma gəlir.

-Arxanca qışqırmışdım mən də. Bu cümlə ilə nəyi demək istədiniz? Deyə qışqırırdım. Sən isə arxana dönmədən gedirdin. Bundan sonra hər gün səni görməyə başladım. Sən isə yanımdan sürətli bir şəkildə ötüb keçirdin. Ancaq gücümü bir gün topladım və mənim yanımdan ötüb keçmək istəyəndə sənin qolundan yapışdım. Yadına gəlirdə?! Amma necə tutmuşdum qolundan. Mənim özümə lap ləzzət eləmişdi. Sən onda mənim gözlərimə baxdın. Mən sənə bir söz demək istəyirdim ki, bu zaman sən qarnıma bir yumruq vurdun.

-Artur... Yadımdadır... Amma vicdan əzabı çəkmişdim həmin zaman-Gülümsəyərək sözünü bitirdi.

-Yerə yıxılmamaq üçün özümü güclə saxladım. Amma yaxşı ki, növbəti gün gəlib yanımda əyləşdin. Çünki mən özüm daha sənin yanına yaxınlaşmağa çəkinirdim. Bilirsən də səni psixopat hesab edirdim.

-Hə... Bilirəm.

-Yəni, belə… Vicdan əzabı çəkdiyinə görə üzr istədin məndən və sonra da söhbət etməyə başladıq. Sən bunları mənə niyə danışdırdın?

-Çünki artıq vaxtdır.

-Nəyin vaxtıdır Sofi?-Gözlərimi bərəldərək sualımı verdim.

-Yadına gəlir?! O, cümlənin mənasını dəfələrcə soruşurdun məndən. Və bir də məni niyə sevə bilmirsən? deyə də sual verirdin.

-Hə... O, sualları vermişəm sənə. İkinci sualı dünən də demişəm. Tək şəkildə səni sevməkdən yorulmadım. Amma məni niyə sevə bilmirsən deyə səbəbini bilmək istəyirəm. Axı əllərimi tutursan, başını çiynimə qoyursan, lazım gələndə qucaqlayırsan, vaxtını mənimlə keçirməkdən həzz aldığını deyirsən amma səni sevə bilmirəm deyə danışırsan.

-Artur, indi sənə hər şeyi izah edəcəm-Sofi, butulkanın içindəki mayeni mədəsinə boşaldıb, şişəni kənara tullayaraq danışmağa başladı. Səni sevə bilmirdim. Səbəbi isə başqa bir insanı sevdiyim idi-Sofi danışmağını yarımçıq kəsərək, göz yaşlarını sildi.

Duman artıq bütün dənizi əhatə etmişdi. Ağlayan buludlar da üzərimizə öz göz yaşlarını axıdırdı. Necə yəni başqa insanı sevirdim?!-Hirsimdən boğulduğumu hiss edirdim.

-Artur, mən var olmayan bir insanı sevirdim. Yəni, həyatda yaşamayan, ancaq beyində mövcud olan şəxsə aşiq olmuşdum.

-Mən heç nə başa düşmədim.-Ofuldayaraq, cümləni güclə tamamladım.

-Səni sevməməyimin səbəbi xəstəliyimdir. Mən də "Maladaptive Daydreaming"(həddindən çox xəyal etmək) xəstəliyi var. Həddin çox xəyal edirəm. Yəni, normal insandan fərqli olaraq xəyal qurmaqda həddimi aşıram. Və mən bu xəstəliyin ucbatından özüm də bilmədən beynimdə bir insan yaratdım. Onu sevməyə başladım. O, da məni sevirdi. Çox xoşbəxt idik.

-Bu bir növ şizofreniya ilə əlaqəlidir?-Onun sözünü yarımçıq kəsdim.

-Yox… Bu xəstəlikdə qurduğun dünyanın, insanın real olmadığını bilirsən. Ancaq şizofrenlər qurduqları obrazları real bilirlər. Mən şizofrenlərdən fərqliyəm.

-Aydındır-Gözlərimi dənizin ortasına dikərək, Sofinin danışmasını gözlədim.

-Onunla əsl sevgili idim. Vaxtımın çox hissəsini ona ayırırdım. Bəzən ona vaxt ayırdığıma görə, işlərimi yarımçıq qoymağa məcbur olurdum.

-Başa düşdüm səni. İki var olan şəxs və bir dənə var olmayan insan. Sən var olanı görə-görə, var olmayanı seçdin-Gözlərim dolmağa başlamışdı.

-Artur, bu bir xəstəlikdir. Beynimin bir oynuna aldandım. Nə edə bilərəm?! Bu xəstəlikdən qurtulmağın yolu var idi. O, da hipnoz, dərman, psixologun yanına gedərək terapi üçün seanslar ayırmalı idim. Dərman atmasamda olardı. Yəni qurtulmaq mümkün idi. Sadəcə mən ona bağlanmışdım. Ona görə də müalicə almaq istəmirdim.

-Bir dəqiqə, indi mümkün deyil?-Təəccüblü şəkildə soruşdum.

-Gecdir artıq. Çünki mən bu yaxınlarda başqa bir qərara gəlmişəm. Həmdə o, var olmayan şəxs məni tərk edib.

-Tərk etdi?! Dəhşət. Doğurdanda beyin səninlə əməlli başlı oynayıb.

-Hə elədir. Yadına gəlir cümləm?! "Həddindən daha çox xəyal öldürmür. Sadəcə o, xəyalın içərisindəki şəxs öldürür. Amma onu sən yaratmısan, deməli sən özüvü öldürməyə əmr edirsən. Və bu "sən" elə beyin olacaq". Bu cümlə də onu demək istəyirəm ki, beyin "sən" rolunda çıxış edir. Yəni səni idarə edən beyinə o, qədər güvənirsən ki, sonda o, səni tələyə salır. Beyin tez-tez bizimlə bir oyun oynayır.

-Deməli, "sən" deyəndə əslində beyin nəzərdə tutulub. Oyun daxilində yəni-Sofinin gözlərinə baxaraq cümləmi tamamladım.

-Bəli, Artur. Beynim mənə əmr verdi. Onsuzda bu belə olur. Yəni biz qəbul etsəkdə, etməsəkdə. Sadəcə bir-birimizdən xəstəliyimizə görə fərqlənirik. Beyin də bu xəstəlikdən çox gözəl şəkildə istifadə edir. Və bu gün bir şeyə əmin oldum. Beynimizə güvənməməliyik. Çünki o, hər cür qiyafə də bizimlə bir oyun oynayır.

Razıyam səninlə-Udqunaraq, dedim.

Səssizliyə bürünmüşdüm. Onun "Maladaptive Daydreaming" xəstəliyindən əziyyət çəkdiyinini bilməyim mənə əzab verirdi. Var olmayan bir üçüncü şəxs aramızda olmuşdu. Sən buna görə məni çağırdın yanına?-Növbəti sualı ona ünvanladım.

-Həm ona görə, həm də ki, bir qərar vermişəm-İkinci dəfə eyni cümləni təkrarladı.

-Nə qərarı?-Həyacanlanmağa başladım.

-Artur, mən intihar etmək istəyirəm.

-Qəh-qəhə ilə gülməyə başladım. Sən intihar etmək istəyirsən?

-Hə... Bunda gülməli nə var?-Təəccüblü baxışları ilə mənə baxırdı.

-Ay Sofi… Təsadüff bilmirəm var, yoxsa yox. Ancaq mən də intihar etmək qərarı vermişəm.

-Nə...?! Səndə…?!-İkimizdə qəh-qəhə ilə gülməyə başladıq. Elə həyatın acığına ürəkdən gülürdük.

-Sofi, sən niyə inthar etmək istəyirsən?-Gülməyimi birdən dayandırıb sual verdim.

-Elə bil ki, həyatdakı mövqeyimi bitirmişəm. Ölümdən sonrakı həyat mənə maraqlı gəlir. Ona görə də deyirəm bəlkə o, biri tərəfi də ziyaret edim. Daha bu həyatdan gözləntim yoxdur. Sanki istədiyimi edib, bitirmişəm. Bəs sən niyə intihar etmək istəyirsən?

-Bu boyda dünyanın bir əmması olduğumu zənn edirəm. Düşünürəm ki, hər şey təkdir. Yəni mən öləndən sonra, əslində heç nə var olmamış olacaq. Mən deyəndə əslində hər kəsə aid edirəm. Axı mən, sən, biz deyiləsi bir şey yoxdur. Hər şey bütövdür. Ölüm, baxım görüm şüurum hara aparır məni.

-Maraqlıdır. Bəs sən məni sevdiyin halda bu qərara necə gəldin?-Sofi, təəccüblü baxışlarla mənə baxırdı.

-Axı mənim şüurumda mövcudsan. Düşündüm ki, öldükdən sonra səni axtarıb tapa biləcəm. O, biri həyatda tapacam və yenə sevəcəm.

-Çox riskli bir hərəkət edəcəksən-Sofi gülümsəyərək cavab verdi.

-Hə, nə deyirsən? Özümüzü necə öldürək?-Başımı qaşıyaraq sual verdim.

-Özümüzü asaraq. Amma, öncə sən özünü asacaqsan, mən izləyəcəm. Ondan sonra sənin yanında da mən intihar edəcəm.

-Paho... Niyə məhz birinci mən?! Olmaz, qadınlara yol verirəm. Öncə, sən özünü öldür.

Əşi... Gör nəyin davasını edirik. Yaxşı, birinci mən özümü öldürəcəm-Sofi çantasından ipi çıxardaraq, dənizdən biraz aralı olan tək-tənha böyümüş ağaca doğru addımlamağa başladı. Hə... Gəlirsən arxamca?-Gözlərini mənə zilləyərək soruşdu.

-Hə, əlbəttə gəlirəm. Mən də çantamdan qalın ipi çıxardaraq, Sofinin yanı ilə ağaca doğru addımladım. Ağaca on addım qalmış, burda dayan və izlə deyə Sofi mənə demiş oldu. Onun son sözləri idi deyəsən bu. Ağacın təpəsinə çıxaraq, ipi ordan asdı. Sonra ipin halqalanmış ucunu başına keçirtdi. Halqanın içindən saçlarını çıxartdı. Üzünü çevirərək mənə baxdı və gülümsədi. Əlini havaya qaldıraraq özünü budağın başından yerə buraxdı. Budaq çox möhkəm idi, o heç tərpənmədi. Əvəzində, Sofi fırlanmağa başladı yerində. Ayaqları əsirdi, boynunun qırıldığını bilirdim. Çünki kiçik bir səs eşitmişdim. Son saniyələri qalmışdı. Onu hiss edə bilirdim. Və budur ayaqlar daha tərpənmir. Külək onu biraz sağa və biraz da sola yellədirdi. Saçları da sanki rəqs edirdi havada. Mənim gözlərim bir nöqtəyə zillənmişdi. Onun cəsədinə baxırdım. Ağlamaq tutdu məni, göz yaşlarına boğuldum. Dizlərimi yerə atdım,

hönkür-hönkür ağlamağa başladım. İçimdə bir hiss yarandı. Bu hiss qorxu idi. İntihar etməyə cəsarətimi itirmişdim. Çünki gördüyüm hadisə məni sarsıtmışdı. Əllərimi üzümə apararaq qışqırmağa başladım. Gərək, intihar səhnəsini izləməzdim, deyə düşündüm. İndi isə böyük bir bəlaya qapandım. Ölmək istədiyim təqdirdə, ölə bilməmək bəlası idi. Göz yaşları içində onun cansız bədəninə baxırdım. Yağış damlası altında sağa və sola dönən bir bədən var idi. Sofi, kitabımın son cümləsi oldu. Onun ölümünü izlədikdən sonra, mən intihar edə bilməmişdim. Evə gəlib, yarımçıq qalmış kitabımı tamamladım...

Saatdan xəbərim yox idi. Yatmağı belə düşünmürdüm. Çünki bu hadisədən heç vaxt ayılmayacağam deyə düşünürdüm ki, birdən evimə biriləri soxuldu. Mənim əlimi və qolumu ağ xələtlə bağlayaraq maşına doğru apardılar. Ünvan bəlli idi. Maşın dəlixana divarlarına doğru irəlliləməyə başladı. Bilirəm, anam və atam peşmandılar. Ancaq dəli bir övladı dəlixanaya göndərməli idilər. Çünki, valideynlərim cəmiyyətə düşkün idilər. Qonşuların əlindən biabır olmamaq üçün gecə-gecə dəlixanaya xəbər vermişdilər. Bütün dəlilər kimi, mən də dəli deyiləm desəm də mənə hay verən olmayacaqdı.

Üçüncü şəxs var olmayan insan, Sofini tərk etdi və öldü. Birinci şəxs Sofi özü idi. O, isə üçüncü şəxsdən sonra intihar etdi. Başa düşürsünüz o, intihar etdi. Mən ikinci şəxsəm, sona qalan və hər dəfəsində həyatda gecikən. Həkim, mən intihar edə bilmədim. Başa düşürsən məni... Lənətə gəlməyəsən... Mən intihar edə bilmədim. Və ən böyük əzab da ölmək istədiyin təqdirdə ölə bilməməyindir.

-Həkim, sizə bir sual vermək olar?

-Buyurun.

-Siz də qalın bir ip olmaz? Yəni Sofinin boynundan çıxarılan ipdən. Mən yoxlamaq istəyirəm intihar etməyi. Bəlkə də, Sofi məni gözləyir.

# GÜZGÜ

Həyat, rəngli və rəngsiz tərəflərə malikdir. İçindəki insanlar isə güvənli deyil. Və onları güvənli etməyən beyinləridir. Əslində hər kəsin beyini var. Hətta məni zorlayıb küçəyə atan o, dörd nəfərin belə beyini mövcuddur. Sadəcə onlar beyinləri qarşısında çox aşağı səviyyəyə eniblər. Yəni məni zorladıqları kimi, beyin də hər saniyə onlara təcavüz edir. Nə isə adım Zəhradır. İyirmi yaşım var. Artıq cəmiyyət içində fahişə kimi tanınıram. Çünki məni zorlayıblar, bayaqları da dediyim kimi. Cəmiyyətim bədbəxtdir. Ona görə ki, bilmədikləri mövzunu çox gözəl və iyrənc rəngləməyi bacarırlar. Bir yay gecəsi zorlanmağım, bilmirəm təsadüfdür yoxsa alın yazısı?! Ancaq təcavüzə uğrayan bir qadına fahişə demək məncə axmaqlıqdır. Görəsən, Tanrı da məni fahişə hesab edir? Bunu bu səhər düşünməyə başladım. Mən bu məktubu cəmiyyətə həsr edirəm. Və bir də barmaqlıqlar arasında döyülən o, dörd dənə məhbusa ithaf etmiş oluram. Yanımda bir kəndir var. Ucu dairəvi halqaya malik, insanı həyatdan təmizləyən, ölüm üçün bir vasitə var. Bəlkə də ayılmaq üçün bir vasitədir. Deməli, intihar etməyə hazırlaşıram. İntiharıma səbəbkarları qeyd edirəm: Məni küçəyə atan anam, atam, bacım, qardaşım, məni fahişə hesab edən tələbə yoldaşlarım və düzəlməz cəmiyyətim. Dörd dənə məhbusun adını isə qeyd etmirəm. Çünki, onlar mənim intiharıma səbəbkar deyillər. Onlar sadəcə bakirəliyimi pozdular. İntihara sürəkləyənlər isə mənim inanc haqqımı, güvənimi oğurladılar. Və bir də həyat üçün kirli olduğumu beynimə saldılar. Əgər üzərimə bu qədər gəlməsəydilər, mən intihar etməzdim. Çünki mən, mənəviyyatı öldürən cəmiyyətlə yaşaya bilmərəm...

Zəhra, son cümlələrini məktuba yazıb bitirdi. Və masanın üzərindən kəndiri, qapının yanından isə iri şüşəli güzgünü götürərək meşəyə doğru yol aldı. Meşəyə çatan kimi paltarını öncə cırmağa başladı. Sonra güzgünü, özünü asmaq istədiyi ağacla, paralel olan ağacın yanına ehmalca qoydu. Və digər ağacın başına çıxaraq ipi budaqdan asdı. İpin halqalı hissəsini boynuna saldı. Paralel duran ağacın yanındakı güzgüyə baxaraq saçlarını halqanın içərisindən çıxartdı və onları oxşamağa başladı. Səliqə ilə saçlarını düz etdi. Son dəfə özünə güzgü də baxdı və gülümsəyərək bu sözləri pıçıldadı. "Tanrı, məni fahişə hesab etmə" qızın bu dünya da son cümləsi oldu. Özünü çox sürətlə budaqdan atdı. Budaq, azacıq tərpənməli oldu. Ancaq Zəhra çox sirkələndi. Bir neçə saniyə ayaqları dayanmadan silkələnməyə davam etdi. Güzgü onun halını göstərirdi. Saçları üzünə dağılmış, küləyin əsməsi ilə sola və sağa yellənməsi həyatın acılı görüntülərindən birinə çevrilmişdi. Ancaq güzgü bununla görüntünü sonlandırmadı. Beş dəqiqə sonra ağacın budağı qırıldı və Zəhra budaqla birgə yerə çırpıldı. Arxadan isə ananın qışqıraraq gəlməsi, atanın göz yaşları, qardaşının dizlərini qucaqlayaraq ağaca doğru söykənməsi və bacısının donmuş baxışları bunların hamısını güzgü əks etdirmiş oldu.

# PƏNCƏRƏ

Mən insanların təbəssümünü görürəm. Onların əllərini, gözlərini izləyə bilirəm. Bütün görüntü gözümün qabağındadır. Pəncərə, mən hamınızı burdan izləyirəm. Amma izləməklə tamamlanmırsan. Mənim həyatımda tək bir şey çatışmırdı. Ancaq o, mənə mane ola bilmədi. Kiçik bir hekayəm var. Pəncərəmdən baxaraq bunu sizin üçün yazmaq istəyirəm...

Adım Emilia, 18 yaşım var. Mən kimsəsizlər yurdun da böyümüşəm. İndi tək-tənha bir evdə yaşayıram. Kiçik bir dünyam da böyük bir kitabxanam var. Mən dünyamı kitablarla qurdum. Hə, unutmamış onu da deyim. Dünyamın qurulmasında rəqs etməyimində rolu böyük oldu. Sanki yerimdə dövr edərək dünyamın kənarlarını qurdum. Və kitablarla isə dünyamın içini rənglədim. Dağıldımı heç o, dünya?! Əlbəttə dağıldı. Dəfələrcə zərbə altında oldu dünyam. Amma mən yenidən onu inşa etdim. Bir çox hadisələrlə qarşılaşdım. İnsanları təəccübləndirdim. Bilmirəm necə bacardım bunu. Amma mən də çatışmayan bir xüsusiyyətimlə hər kəsi təəccübləndirdim...

Bir yay günü idi. Dağılmış, sökülmüş vəziyyətdə olan bir küçədən keçirdim. Əllərimi havaya qaldırırdım və endirirdim. Bir quşun qanadlarını çırptığı kimi. Daxilimdə bir musiqi ilə mırıldanırdım. Əslində musiqi bərbad idi. Amma mən yerimdə durub birdən dönməyə başladım. Bu mənim çox xoşuma gəldi. Sonra gözlərimi bağladım. Adı olmayan bir musiqinin altında rəqs etməyə qərara gəldim. Əllərimi bir quş kimi açırdım. Ayaqlarım bir sağa və bir sola gedirdi. Özümü buludların yanında, bir Tanrı ilə rəqs etdiyimi düşünməyə başladım.

Ancaq bu rəqs bilirdim dayanacaq. Gözlərim birdən qaralmağa başladı. Və mən özümü tozlu küçənin üzərinə yıxmağa məcbur oldum...

Siz çox danışan varlıqlarsınız?! Çünki səhərdən burda həkim dodaqlarını necə sürətlə tərpətdiyini görə bilirəm. Udqunmağa başladım. Hiss edirdim ki, həkim artıq qışqırır. Daha doğrusu görürdüm. Əllərimi havaya qaldırıb, həkimə hərəkətlərimlə lal olduğumu və bu dünyada bir səs belə eşitmədiyimi izah etdim. Gördüyüm qədəri ilə daha danışmırdı. Çünki dişləri ilə dodaqlarını dişləyirdi. Və bir də əlləri ilə alnına vururdu. Ona görə ki, səhərdən qışqırırdı. Yəqin ki, bezmişdi. Eh… Bu şəhərdə deyəsən həkimlər də əsəbidir. Məni müayinə etdilər. Və sonra əlimə bir kağız qoydular. Üzərində bir dənə yazı mənim həyatıma güllə kimi təsir etdi. “Siz qan xərçəngindən əziyyət çəkirsiniz”. Bingo… Jeton düşmüşdü artıq. Lal dilini bilən bir həkim otağa daxil oldu. Və mənə həyatımın qalan müddətini izah etdi. Mən bu müddəti sizə ilnən deməyəcəm. Çünki ilnən deyəndə çox qısa görsənir. Özüm narahat oluram. Mən uzadaraq deyəcəm həyatımın müddətini. 122 gün qalıb ömrümə. Geri sayım o vaxtdan başlamışdı. Evə çox bikef halda qayıtdım. Beynimdə tək bir sual var idi. 122 gün ərzində nə edə bilərəm? Qərara gəldim ki, bir siyahı tutum. Sizcə siyahıda nə yazmışdım?! Gəlin deyim sizə. Öncə rəqs etməyi öyrənmək, sonra çoxlu kitablar almaq, velosipedlə gecə yarısında gəzmək, dilini başa düşmədiyim insanlarla doyunca gülmək və sonuncu istəyim bir insana aşiq olmaq.

Biz insanlar nə isə itirən zaman daha çox qədrini bilmiş oluruq. Biz elə varlıqlarıq ki, bir çox şeyləri növbəti səhərlərə qoyuruq. Bu gün qalsın sabah edərəm fikri ilə yaşayan insanlarıq. Və bir də təsəllimiz var. Məndə də var idi. Alın yazım səhv çıxsın deyə buludlara dua edirdim. Amma Tanrı bir

şeyi yazırsa, niyə onu sonradan dəyişmək qərarına sahib olsun ki?! Nə isə... Siyahımda ilk yer alan rəqs etməyi öyrənmək qərarına gəlmişdim. Öncə bir səs yaratdım. Amma bu dünya üçün yox. Öz dünyam üçün. Fərdi bir dünyamın gözəl olduğunu təyin etdim. İçinə biraz musiqi qatdım. Sonra öz dünyamda rəqs etdim. Çıxırdım günortalar küçəyə. Bizim aşağı məhlə də musiqiçilər var idi. Onlar öz dünyalarında ifa edirdilər və mən də öz dünyamda rəqs edirdim. Ancaq bir şey məni təəccübləndirirdi. Ətrafıma toplaşan insanlar mənə baxıb əl çalırdılar. Musiqiçilər sanki, mənim hərəkətlərimə baxaraq musiqini ifa edirdilər. Maraqlıdır, görəsən fərdi dünyamdakı musiqi ilə eyni idi, onların ifa etdikləri?!

Siz bir yaşınızı xatırlayırsınız?! Və yaxudda biraz geriyə gedək. Məsələn: dünyaya göz açdığınız ilk saniyələrə. Xatırlaya bilmirsiniz hə?! Mən də xatırlaya bilmirəm. Ancaq çox istəyərdim xatırlayım. Çünki anamdan bir xatirə görüntü qalmalı idi. Mən anamı və atamı dünyaya gəldiyim ilk saniyələrdə itirdim. Anam, doğum sırasında dünyasını dəyişdi. Atam isə, xəstəxanaya gələn zaman yol qəzasına uğradı və yerindəcə öldü. Mən o, gündən etibarən tək qaldım. Çoxlu insanların olmasına baxmayaraq. Beş yaşında idim. Hər kəs oynayıb qaçırdı. Mənə tək bir şey maraqlı idi. Dünyanın səsi mənim üçün hardadır?!

Velosipedi, çox sevirəm. Bu dünya da etmək istədiklərimi mütləq edəcəm deyə öz-özümə söz vermişdim. Çünki ürəyim dayandıqdan sonra, beynimin bir neçə saniyə daha işləməsi peçmançılığımın nümunəsi olacaqdır. Ən azından etmək istədiklərimi edim ki, peşmançılığın dərəcəsini azaltmış olum. Və mən gecələr ard-arda bir neçə gün velosipedlə şəhərdə gəzdim. Bilisiniz?! Necə maraqlı idi. Çoxlu və tələsən insanlar yox idi...

Əslində, insanların üzünə baxmağı sevirəm. Ən əsasda mənim dilimi bilməyənləri çox sevirəm. Heç bilmirəm bu sevgi hardandır. Mən gündüzlər şəhərə çıxaraq tanımadığım insanlarla gülməyə başladım. Əsas odur ki, ürəyimcə gülmüş oldum. Yadıma gəlir bir cütlüyə yaxınlaşmışdım. Mən öz dilimlə danışırdım, onlar isə öz dilləri ilə, yəni dodaqlarını tərpədirdilər. Sonra birdən dayanırdım və gülməyə başlayırdım. Onlarda gülürdülər. Sanki məni başa düşürmüşlər kimi. Sonra  bütün insanlarla qucaqlaşırdım. Bu dünyada əbədi qalmayacaq insanları sevmək lazımdır məncə...

Həyatımdan 31 gün getmişdi. Geriyə sadəcə 91 gün qalmışdı. Və mən kitabxanamı artıq yaratmışdım. Bilirsiniz, nə qədər kitablarım var?! Amma çoxusunu paylaşmışam. İnsanlar hələ də qaytarmayıblar kitablarımı. Ancaq buna üzülmürəm. Onsuzda qəbrimə aparan deyildim kitablarımı. Məncə kitabları özümüzdə saxlayaraq onları dustaq edirik. Paylaşdıqda isə başqalarının maarriflənməsinə səbəb oluruq. Mən qərara gəldim ki, öldükdən sonra kitablarımı pulu olmayan insanlara versinlər. Necə ki, orqanlarımı ehtiyacı olanlara köçürəcəklər, eləcə də kitablarımı da paylaşsınlar deyə qərar almışdım. Bu iki əməli bir kağıza yazıb masanın üzərinə qoyacam. Orqanlarım ilə kitablarımı kasıb insanlarla paylaşsınlar deyə.

35-ci günün üzərində idim. Yenə də kitab dükanından çıxırdım ki, bir oğlana dəydim və aldığım kitablar yerə töküldü. Dodaqlarının tərpəndiyini gördüm. Yəqin ki, bağışlayın xanım deyib. Mən sadəcə gülümsədim ona. Və arxamı dönüb getməyə başladım. Küçənin arasına çatanda gördüm kimsə qolumdan tutdu və mənə bir kitab uzatmış oldu. Kitabın üzərində bir not var idi. Sizin səssizliyinizə bir neçə saatlıq qonaq ola bilərəm? Gözlərimi ona tərəf çevirdim və başımla təsdiqlədim. Mənim eşitmək problemimin olduğunu dükançı

demişdi. Bunu elə ondan öyrənmiş oldum. Biz o, gündən sonra tez-tez görüşməyə başladıq. Bir-birimizə kitablar hədiyyə edirdik. Söhbətimiz isə bir vərəq üzərində olurdu. Kiçik vərəqlərin içində ünsiyyət qururduq. Yadıma gəlir ilk dəfə yanağımdan öpmüşdü. Çox qızarmışdım onda. Eh... Günlər... Günlər... Çox xoşbəxt idim.  Bir anlıq öləcəyimi unutmuşdum. O, mənə rəqs yarışmasında iştirak etməyi təklif etmişdi, bunu çox gözəl xatırlayıram. Mən də ki, ona sürpriz etmişdim. Rəqs etməyi bacardığımı ona məşq etdiyimiz zaman göstərmişdim. Çox təəccüblənmişdi. Biz bir cütlük kimi yarışmada iştirak etdik və hətta 2-ci yerə belə sahib olduq. Həyatım parlayırdı, sevdiyim insan da bu dünya da olmuşdu deyə çox sevinirdim. İki fərqli dil, amma eyni zamanda döyünə bilən ürəklər idik biz. Həyatımın sayılı günlərini unutmuşdum xoşbəxtlikdən. Ancaq onun ölümü hər şeyi yenidən xatırlatdı mənə. Və növbəti sevdiyim insanı itirmiş oldum. Sən demə o, da xərçəng xəstəliyindən əziyyət çəkirdi. 79 gün bitib tükənmişdi həyatımda. Geriyə qalan günlərdə nə isə edəcəyimi düşünmürdüm. Amma gözləmədiyim halda yenidən həyata qarşı parlamağa başladım. Onun ölümündən iki həftə sonra evimə balaca bir qız uşağı gəldi. Bu onun bacısı idi. Gözləri onun kimi parlayırdı. Və sanki onu mənə xatırladırdı. Balaca bacısından mənə danışmışdı. Amma heç görmək qismət olmamışdı. Və elə o gün anası ilə birgə yanıma gəlmişdilər. Həyatımı yenidən canlandırdım. O, balaca qıza rəqs etməyi öyrətmişdim.

122-ci gün...

Sizə hekayəmin son cümləsini 122-ci gündən yazacam. Yəni bu gündən. Mən hal-hazırda sizə hekayəmi danışdım. Sağ qalacağımı düşünməyin, çünki pəncərə qarşısında durub çox pis öskürürəm. İndi birazdan həkimlər gəlib aparacaqlar məni.

Zəng etmişdim o, ağ xələtli varlıqlara. Son dəfə bu pəncərəmdən baxıram. Əslində bu pəncərəni həyatla əlaqələndirirəm. Necə ki, burdan məhləmizə baxıram, eləcə də beynim də bir dünyanın görüntüsünü izləmiş haldayam. Və bu görüntü bu gün bitəcək, hiss edirəm.

Əlimə bir çəkic götürdüm. Pəncərənin kənarında dayanıb son dəfə mənzərəni izlədim. Qaçışan buruq saçlı qızcığaz, topunu balaca bir oğlandan ala bilmirdi. Ağlayırdı... Amma çox pis ağlayırdı. Sonra gördüyüm mənzərə dəyişdi. Oğlan qızın topunu geri qaytardı. Və onlar birgə oynamağa başladılar. Həyat bəlkə bizimlə bu cür oynayır. Əvvəlcə ağladır, sonra əzizləyir. Bir şeyi öyrəndim həyatdan. Heç vaxt dəyişməyəcək bir şey var idi. Həyat, elə insanın özü üçün qurduğu bir fikirlərdən ibarət idi. Çəkici havaya qaldırıb, həyatın mənə illərcə vurduğu zərbəni, mən də pəncərəyə vurdum. Qırıq olmuş şüşələr ətrafa saçıldı. Otağımın pəncərəsinin sonu kimi, mən də bu dünyanın sonu oldum.

# SƏHƏRLƏRƏ DÜŞMƏN

Saatlarca bir nöqtəyə baxmaq gücünə malikəm. 50 dəfə xəyallarda ölüb, dirilmişəm. Həyatda belə bir şeyin mümkün olacağını bilsəydim, çox şeylərdə risklər edərdim. Və bir də dirildikdən sonra öncəki həyatımdan fərqli yaşayardım. Xəyallarda fərqli yaşayıram. Gah bir gün biznesmen oluram, gah da yazıçı, jurnalist, mühəndis bu sahələrə də sahib olmuş oluram. Xəyallar sərhədsizdir. Həyatım boyunca orda yaşaya bilərəm. Heç qayıtmaram bu dünyaya.

Mən Tanrıyam. Ancaq öz dünyamda. Burda insanları yaratmışam. Müxtəlif cür parkları, mağazaları, binaları və.s yerləri mən inşa etmişəm. Orası dağıla bilərmi?! Dağıla bilər. Mən istədiyim təqdirdə. İstədiyimi edirəm burda. Adam öldürməkdən tutmuş, insanları çoxaltmağa qədər. İstədiyim an yağış yağdırıram. Və mən istədikcə qar da yağa bilər. Burası çox təmizdir. Çünki şəhərin mərkəzində göyərçinlər çoxdur. Dünyamın özü sülh dünyasıdır. Burda dövlətlər yoxdur, müharibələr heç zaman keçirilməyib və keçirilməyəcək də. Ac körpə deyilən bir anlayış mənim dünyamda yoxdur. Hər kəsin əlində bir kitab var. Hamı kitab oxuyur. Ancaq universited yaratmamışam bu dünyada. Çünki insanların zamanları boş-boşuna itsin deyə istəmirəm. Bu dünyada bir tək qayda var. O, da bu qaydadır: Hər kəs istədiyini edə bilər. Hamı idarəçidir.

Şəhərimin sonu yoxdur, hələki. Kainatın genişlənməsi kimi, dünyam da o, cür genişlənmə prosesindədir. Bu şəhərdə insanlar bir-birini sevirlər. Qadın və kişi münasibətləri çiçəklərlə əvəz olunur. Bir-birlərinə kitablar hədiyyə edirlər. Sevən şəxslər çəkinmədən öz sevgisini qarşı tərəfə ithaf

edirlər. Şəhərimdə yalnız pak və təmiz qadınlar var. Fahişələrin siyahısı yoxdur. Çünki şəhərim sevgi ilə dolu olduğu təqdirdə, pozğunların buranı kirlətməsinə icazə verə bilməzdim. Bu dünyamda heyvanlar çoxdur. Ancaq nə insanlar nə də ki, heyvanlar bir-birlərinə zərər vermirlər. Heyvanları zooparkda saxlamıram. Çünki zoorparka qarşı olduğum üçün, elə bil sahəni tikməməyə qərar vermişəm. İnsanlar və heyvanlar hamısı birlikdə bir-birlərinə mane olmadan gəzirlər.

Dünyamı çox sevirəm. Oranı hər gecə ziyarət edirəm. Səhərlər isə dünyamı tərk etmiş oluram. Ona görə də səhərlərə düşmən olmuşam. Çünki ancaq yuxudan yuxuya dünyamı ziyarət edirəm. Səhər gələn kimi isə yuxudan ayılmağım, səhəri lənətləməyə çevrilir. Mən tənhayam ümumi dünya üçün. Nə dostum, nə sevgilim, nə də ki, valideynlərim var. Qohumlarımdaki hərəsi bir tərəfdə. Heç onlardan səs-soraq yoxdur. Nə isə tənha olmağıma baxmayaraq mən xoşbəxtəm. Öz dünyam var. Dünən axşam bir qadınla tanış oldum. Bu gün gecə də görüşəcəyik. Deyəsən məndən xoşu gəlir. Nə isə... Günüm standart keçir. Səhər dururam, yeməyimi yeyirəm, keçirəm masa arxasına kitabımı yazıram. Arada çıxıram çölə gəzirəm tək-tənha. Axşam saat 23:00-da yatıram. Və hər şey bundan sonra başlayır...

Saat 23:00 Tomi yatmağa hazırlaşır. Yatağa uzanan kimi bir qadın siması gözlərinin qabağına gəlir. Gülümsəyir... Ona doğru yaxınlaşır. Yavaş-yavaş... Tomi deyə pıçıldayır. Mən səni çox sevirəm... Mən səni çox sevirəm... Tomi qızın bədənini görür. Onu qucaqlayır və sonra saçlarını qoxlamağa başlayır. Əllərinə toxunur. Biz xoşbəxt ola bilərik?-Tomi qızdan soruşur.

-Ola bilərik. Özüdə dünyanın ən xoşbəxt şəxsi ola bilərik. Mən səni heç vaxt buraxmaram.

-Sənin adın nə idi?

-Eva… Sadəcə Eva. İndi biz belə klassik söhbətlər edəcəyik?

-Bilməm. Sənin gözlərin niyə bu qədər gözəldir?

-Çünki sən baxırsan. Ona görə belə gözəl görsənir.

İki dodağın bir-birinə toxunuşu nə qədər xoşbəxtlik hissi verə bilərdi?! Qadın xoşbəxtlik hissəsi idi. Mən onu hiss edərək dodaqlarından öpürdüm. Sanki mənim bədənimə bitişik idi. Hal-hazırda xoşbəxtlikdən ölə bilərdim. Ancaq ölə bilmərəm, çünki mənim hissəm də öləcəkdir. Yataqda bir-birimizə qucaqlaşmış şəkildə uzanmışdıq. Çılpaq bədənimizi, dizlərimizə qədər yorğan örtmüşdü. Qollarımda yatan bir qadın. Onun nəfəsini hiss edə bilirdim. Gözləri bağlı olduğu təqdirdə də gözəl görsənirdi. Onu heç oyada bilməzdim. Çünki əbədi olaraq qollarımda yatmasını istəyirdim. Saçları, çox gözəl qoxur. Sanki tellərinin arasında itirəm. Deyəsən mən onun sevgisindən ona qarşı sərxoş olmuşam...

08:30... Bir zəngli saatın səsi bu qədər adama lənət oxuda bilərdi. Oyanmağım ilə yataqdan yerə düşməyim bir oldu. Ayağa qalxan kimi öncə yatağa baxdım. Ancaq o, yox idi. Otaqdan tez-tələsik çıxaraq, mətbəxə doğru qaçdım. Amma orda heç kim yox idi. Zala baxdım, hamamın qapısını açıb boylandım. Evin qapısından çölə çıxdım və Eva deyə qışqırdım. Hər şey aydın idi. Axı mən Eva adlı qadına öz dünyamda aşiq olmuşdum. Öz yaratdığım bir qadını sevmək bu qədərmi əzab verə bilərdi?! Yatağıma geri qayıtdım. Amma nə qədər əziyyət çəksəm də yata bilmədim. Öz dünyama

qayıtmaq mümkün olmadı. Lənət olsun yuxum yox idi. İndi ancaq gecəni gözləməli idim.

Bir insan nə qədər xoşbəxt ola bilər?! Balaca uşağın əllərini açaraq bax “bu boyda” deməsi qədər heç xoşbəxt deyiləm. Öz yaratdığın sənə nə qədər əzab verə bilərdi?! Həmişəki kimi gecəni səbrsizliklə gözlədim. Saat 23:45-də yuxuya getmişəm bu gün. Bir dünyam var idi. Artıq şəhərim ona bənzəyirdi. Yolun kənarlarındakı reklam bloklarında onun şəkli var idi. Dünyamdan onun qoxusu gəlirdi. Bir parkda skamya da əyləşmiş şəkildə onu gözləyirdim. O, əlində bir kitabla gəldi. Saatlarca o, kitabı oxuduq. Sonra mən onu yelləncəkdə yellətdim. Əl-ələ bütün şəhəri gəzdik. Aylar keçdi... İllər ötdü... Biz evləndik. Bir övladımız oldu...

Səhər 09:00-da oyandım. Doqquz saatlıq bir yatmağım, 20 ilə bərabər oldu. Ancaq bu yalnız öz dünyama aiddir. Bu dünyada sadəcə 9 saat keçib. Amma öz şəhərimdə 20 il ötdü. Yenidən ölüb, dirilmək nə qədər mümkün ola bilərdi?! Ümumi dünyam üçün ölmək, bir ayılmağa bərabərdi. Bəs yuxuda ölməyim nəyə bərabər olacaqdı?

Mən bəzən nə istədiyimi bilmirəm. Hərdən sinəmin ortasına bir ağırlıq çökür. Sanki görünməz bir əl sinəmə basqınlıq edir. Elə bil heç vaxt bu ağrı keçməyəcəkmiş kimi olur. Hava almaq belə kömək etmir daha. İnsanların siması nə zamana kimi maraqlı ola bilərdi mənə?! Bu gün də həmişəki kimi yatmaq qərarına gəlmişdim. Ancaq fərqli bir vaxt da bunu etmək istəyirdim. Bu dəfə saat 15:00-da yatacaqdım. İki həp yuxu dərmanı qəbul etdim. Və sonra ağ köynəyimi, qalstukumu taxıb, pencəyimi geyinərək yatağıma uzandım. Niyə bunu etmişdim? İnanın ki, mən də bilmirəm. Bəlkə onun reallığını istəyirdim. Bəlkə də sadəcə özümü aldadırdım...

Yuxuya getməyim çox çəkmədi. Bu dəfə onunla fəqli yerdə qarşılaşdım. Öz evimdə. Mənim yanımda uzanmışdı. Gecə idi. Pəncərədən baxaraq ulduzları sayırdıq. Birdən fəlsəfi danışıqlara başladıq. Tanrıdan tutmuş, şeytana qədər hər şeydən danışmağa çalışdıq. O, qədər tez-tez danışırdıq ki, günəş və ay bir-birlərini əvəz edirdilər. Bu danışıqlar nə zamana kimi davam edəcəkdi?! Bilmirdim. Başını sinəmə yastadı. Barmaqlarını mənim barmaqlarımın arasına keçirtdi. Əllərini hissetməyə çalışdım. Dərisi mənə bir təhər gəldi. Sanki qırışmışdı artıq. Və birdən üzünü mənə doğru çevirdi. Yox... Bu ola bilməz. Eva qocalmamalı idi. Qışqırmağa başladım. Göz yaşlarına boğuldum. Sevdiyim qadın qocalırdı. Bu isə sonda ölümü ilə nəticələnəcəkdi. Hardadır o, şəhvətli gözlər deyə bağırmağa başladım. Siması get-gedə dəyişirdi. Hər şey bəlli idi. Eva qocaldı və sıra da ölməyi var idi...

Gözlərimi tez bir şəkildə açdım. Yataqdan duraraq güzgüdə özümə baxdım. Gördüyüm mənzərə məni qorxudurdu. Evanın siması güzgüdə yansımağa başladı. O, gah gülümsəyirdi, gah da ağlayırdı. Sonda iyrənc bir simaya dönüşürdü. Mənə niyə göz vururdu? Əlləri görsənməyə başladı. Mənə gəl-gəl deyə işarə edirdi. Otağımın küncündə bir ovçu tüfəngi var idi. Onu mənə işarə edirdi. Əlimə ovçu tüfəngini götürdüm. Eva birdən gözəlləşdi güzgüdə. Mənə gülümsəyirdi. Siması ancaq birdən dəyişdi. O, yenidən qocaldı. Bu dəfə buna dözə bilmədim və ov tüfəngini Evaya doğru tuşladım. Güllənin səsi divardakı foto şəkli yerə saldı. Güzgü bu zaman paramparça olmuşdu. Mən gözlərimə inana bilmədim. Eva artıq orda yox idi. Gözlərim doldu. Şüşə qırıntılarından birinə baxaraq onu axtardım. Ancaq özümdən başqa heç kimi görmədim. Son ümüdüm tüfəngi çənəmə doğru aparmaq oldu. Şüşə qırıntısında öz görüntümə baxdım. Və acıqlı şəkildə gülümsəyərək tətiyi basdım. Tüfəngin növbəti səsi ətrafı qana bulamağa bəs etdi.

# GÖRÜNTÜ

Dünyada nəyə ehtiyacımız var?! Sevgiyə, bədbəxtliyə, pula, ölməyə, bölüşməyə, paxıl olmağa, xoşbəxtliyə, kədərə və s, bunlardan hansına ehtiyacımız var?! Amma bəziləri üçün bu ehtiyac olmur, məcburiyyət olur. Bəziləri isə sadəcə yaşamaq istəyir. Heç nə hiss etmədən, heç nəyə məxsus olmadan bunu istəyirlər. Ancaq bu mümkün deyil. Heç vaxt mümkün olmayacaq. İnsan hər zaman nə isə axtaracaq və tapacaq. Ancaq hər şeyi tapmayacaq. İçində çatışmayan bir şeylərin hər zaman olacağını düşünəcək. Həyatımız puzzle kimidir tamamlanmır. İnsan yarımçıqdır. İçi tamamlanmamış bir varlıqdır. Tam olaraq, nəyəsə məxsus ola bilməyəcəyik. Hər zaman axtarışlar, qaçmalar, həyatla mübarizə olacaq. Daxildə həmişə, amma həmişə tamamlanmamış bir hissə qalacaq. Nədənsə qorxursansa onu itirəcəksən. Kiməsə və nəyəsə məxsus olsan, ya sən ya da o, ayrılmış olacaqsınız. Hər yaşında bir şey qazanacaqsan. Amma hər yaşında da nə isə itirəcəksən. Bu sanki, kainatın bir qanunudur. Ona görə indidən boş ver getsin...

Adım  Əmir, 20 yaşım var. Atamı dünən səhər itirdim. Xərçəng xəstəliyindən əziyyət çəkirdi. Gözlərimin qabağında əriyib getdi. O, çox əziyyət çəkirdi. Mən bəzən düşünürdüm ki, onun yerində olsaydım, bir zəhər içib özümü öldürərdim. Əzablı yaşamaqdansa, ölmək daha yaxşıdır. Amma ölmək elə də asant bir iş deyil. Ölməyi düşünmək sadədir, ancaq onu yerinə yetirmək çox mürəkkəbdir. İntihar üçün böyük bir iradə lazımdır. Yaşamımı, atamın ölümündən sonra necə davam edəcəm onu hələ də bilmirəm. Çünki artıq tək başına idim. Anamı, beş yaşımda itirmişdim. Bircə dənə atam var idi. O, həm mənə atalıq etdi, həm də analıq...

Əmir atasını dəfn etdikdən sonra evə qayıtdı. Yorğun bir halda divana uzandı. Göz yaşlarına boğulmuş vəziyyətdə,

tavana baxırdı. Atasını necə sevdiyini, ona nə qədər bağlı olduğunu indi başa düşürdü. Offuldayaraq televizorun yanına gedib, şəkilə baxmağa başladı. Atası ilə çəkdiyi şəkil onu hönkür-hönkür ağlamağa vadar etdi. Bizim üçün geriyə qalan sadəcə fotolar olur. Ya gülmək üçün, ya da kədərə bürünməyə görə. Əmir içindən bu cür fikirlər keçirtdi. Sonra birdən gözünə bir disk sataşdı. Televizorun yanındakı qırmızı qab da olan diskə əlini atdı. İçini açdı və bir kağız yerə düşdü. Kağızın içində, “Mən hər zaman səninləyəm. Cismən olmasam da, fikirlərimlə səninlə olacam”. Disk Əmirə maraqlı gəldi. O, heç vaxt itirmədən diski dvd-yə saldı. Və divana əyləşərək, görüntünün televizorda görünməsini səbrlə gözlədi. Hər yer ağappaq idi. Bircə dənə stul ağappaq olan yerdə dayanmışdı. Bu zaman kameranın qarşısına atası gəldi. Ehmalca stula əyləşdi. Uzun-uzadı kameraya baxmağa başladı. Sanki nə isə gözləyirdi. Əmir, əlini cibinə ataraq bir dəsmal çıxarıb göz yaşlarını sildi...

-Salam, oğlum. Hazırsansa başlayıram-Atası sanki onu görürmüş kimi, danışdıqdan sonra biraz fasilə etdi.

-Oğlum, bu videonu sənin üçün hazırlamışam. Xərçəng xəstəliyimin olduğunu bu gün öyrəndikdən sonra, belə bir videonu sənin üçün hazırlamaq qərarına gəldim. Sən bu video da bəzi həqiqətləri biləcəksən. Həm mənim həyatımdan, həm də Kainatın müəyyən həqiqətlərindən. Heç uzatmadan onu demək istəyirəm ki, əslində mən NASA-nın işçisi idim. İllərcə Tanrı axtarışında olmuşam. Bunu bilməyini istəmirdim. Çünki sən dindar bir insan idin. Dəfələrcə ateist insanlara nifrət etdiyini, onları sevmədiyini deyirdin. Mən də qorxdum bunu sənə deməyə. Qorxu, bəzən insanı yalan danışmağa vadar edir. Çünki, düşündüm ki, məni kafir hesab edərsən və məni tərk etmiş olarsan. Mən görürdüm ki, məxsus olduğun ideologiya sənin gözünü kor edib. Tanrı qarşısında bir insanı öldürmək gücünə malik idin. Bunu səndə hiss edirdim. Sən məntiqlə düşünməyi buraxmışdın. Ancaq mollaların dedikləri fikirlərə qapanmışdın. İki şey insanı əsir alır. Görüntü və səs.

Öləcəyimi bilirəm. Və elə ona görə də mən öldükdən sonra bu görüntüləri izləməyini istədim. Çünki mən istəyirəm ki, sən artıq məntiqlə düşünüb hər şeyə qərar verəsən. Tanrının olub, olmamısını indi sənə deməyəcəm. Daha doğrusu bu videodan sən bilməyəcəksən. Mən heç nə deməyəcəm. Sən hər şeyi NASA-dan öyrənəcəksən. Tanrıya inandığımı və ya inanmadığımı onlar sənə deyəcəklər. Heç nə gec olmadan yarımçıq qalmış işimi tamamla. Mən tamamlaya bilmədim. Ona görə mən istəyirəm ki, sən NASA-ya gedəsən və ordakı yarımçıq qalmış layihəmi tamamlayasan. Bu elə belə bir layihə deyil. Bu sənin həyatını dəyişdirəcək bir layihədir. Əvvəlcə etdiyim işləri dərk etməyə çalış. Sonra o, işi tamamla. Əgər hələ də bu videonu izləyirsənsə, deməli NASA-ya getmək istəyirsən. Bilirəm, sənin üçün bu çox çətindir. Ancaq inan ki, sən bu addımı inandığın Tanrı üçün atacaqsan. Qorxma, səhv bir attım atmış olmayacaqsan. Get ora və həqiqəti öyrən-Atası cümlələrini bitirdikdən sonra, televizordakı görüntü itmiş oldu...

Həyatda nəyə isə inanıb, inanmamağımız önəmlidir. Çünki hər şey inanmaqdan keçir. Amma səbəbləri bilmək lazımdır. Bu çox önəmlidir. Səbəbsiz addım atmaq, gözü bağlı yol getmək deməkdir. Mən Tanrıya inanıram. Gündə beş dəfə namaz qılmaqla ona öz təşəkkürümü bildirirəm. Atama əsəbi idim. Çünki mənə yalan danışıb. Tanrıya inandığını deyirdi mənə. Amma sən demə inanmırdı. İndi isə daha dəqiq NASA-dan öyrənə bilərdim. Bilmirdim, ora gedim yoxsa yox. Qərarımı Tanrı ilə birgə verəcəkdim. O, nə desə mənə onu edəcəm. Əmir, namaz qıldıqdan sonra dua etməyə başladı. Tanrıdan, düzgün bir yol ona göstərmisini istədi. Dəfələrcə Amin dedi... Amin...Amin...Amin...

Antuan fikirli-fikirli televizorun görüntüsüz halına baxırdı. Nə edəcəyini bilmirdi. Atasının yarımçıq qalmış işini tamamlasın, yoxsa heç nəyə fikir vermədən öz ibadətin də qalsın?! Amma bir şey ağlına bu zaman gəldi. Bəlkə, sonda Tanrıya inanıb atası. Bəlkə o, da ibadətin vacib olduğunu anlayıb. Bəlkə, cənnətin dərinliyini hiss etdirəcək o layihə. Off… Bitməz bu

bəlkələr. Onlara necə də nifrət edirəm. Əmir içində öz-özü ilə danışmağa davam edirdi. Və sonda daxili mübarizədən belə bir nəticə çıxartdı. Layihənin nədən ibarət olduğuna baxacam. Bəyənməsəm, layihə üzərində işləmiyəcəm. Tanrım... Bunu sənin üçün edirəm. Məni qoru və şeytanın məni yoldan çıxartmasına izin vermə. Amin... Əmir, cümləsini bitirdikdən sonra ayağa qalxaraq, möhürünü və cənamazını çantaya qoydu. Bir də çantanın əvvəlinə Qurani-Kərim kitabını qoymağı yaddan çıxartmadı. Əynini qalın geyinib, qapıdan çölə çıxdı.

Amerika da çox az insan namaz qılırdı. Atası ilə irandan bura köçdüyü andan etibarən ateistlərlə hər zaman döyüş halında idi. Hətta bir dəfə cihad edəcəyini atasına demişdi. Amma həmin oğlan bir də Əmir qabağında görünməmişdi. Elə ona görə də cihad edə bilməmişdi. 3 saatdan sonra NASA-nın binası qabağında oldu. Ürəyindən ilk bu fikri keçirtdi. Burda görəsən hamısı Tanrını inkar edir?! Mühafizəçiyə yaxınlaşıb atasının bura da əvvəllər işlədiyini izah etdi. Mühafizəçi isə əlindəki aparatdan kimlə isə danışmağa başladı. Danışığını bitirdikdən sonra Əmiri içəriyə dəvət etdi. Əmir, mühafizəçinin yanı ilə gedərək ətrafa heyran edici baxışlarla baxırdı. Mühafizəçi, arada bir gözləri ilə onu süzürdü. Sonda gəlib qara bir qapıya çatdılar. Qapını açıb içəri keçdilər. İçərisi sənədlərlə dolu idi. Masa arxasında isə ağ xələtdə bir şəxs oturmuşdu. Divarın üzərində, NASA-nın logosu və kosmonavt şəkilləri var idi. Birdən ağ-xələtli şəxs Əmirə doğru dönərək ona gülümsədi.

-Salam, Əmir. Buyur, əyləş-Sözünü bitirdikdən sonra, mühafizəçiyə əli ilə çıxa bilərsən deyə bildirdi.

-Salam-Əmir həmin şəxsin gözlərinə baxaraq cavab verdi.

-Deməli sən... Atanın layihəsini tamamlamağa gəlmisən.

-Xeyr... Sadəcə ona baxacam. Niyə elə düşündüz ki, tamamlamağa gəlmişəm?-Əmir hirsləndiyini artıq hiss edirdi.

-Atan demişdi ki, oğlum əgər sizin yanınıza gəlsə, layihənin tamamlandığını bilin.

-Siz səhv etmisiniz. Əgər Tanrının yoxluğunu isbat etməkdirsə layihəniz, onda mən sizin üzünüzə tüpürüb buranı tərk edəcəm. Yox əgər, əksi olsa onda Tanrı qarşısında borcumu yerinə yetirəcəm.

-Əsəbləşmə Əmir. Sənə indi layihəni verəcəm. Onları oxuyacaqsan. Amma burda. Evə gedə bilmərsən. Layihəni oxuyub bitirməmiş evə getməyin mümkün deyil. O, vərəqləri burdan kənara apara bilmərsən-Ağ-xələtli adam, cümləsini bitirdikdən sonra gülümsəməyə başladı.

-Çox çəkəcək?-Əmir, səbrsizcəsinə sual verdi.

-Oxumağından asılıdır. Ola bilər bir həftə çəksin. Ya da 2 həftə. Hətta 3 həftə ola bilər. Biray da olsa darıxma.

-Siz nə danışırsınız. Bu necə layihədir belə?!

-5 il ərzində atanızın hazırladığı layihədir. Siz indi onu bir ay içərisində oxuyub bitirə bilməssiniz?

-Off...Oxumağa başlasam yarıda qoya bilərəm ancaq-Əmir, özündən razı halda cavab verdi.

-Əlbəttə seçim sizin-Ağ-xələtdə olan insan ayağa qalxaraq siyirtmənin kodunu yığdı. Əlini içəriyə atıb, qalın bir vərəq çıxartdı. Çox qalın idi. Təxminən 1000-dən çox vərəq var idi içində.

-Siz Tanrının yoxluğunu və yaxudda varlığını 1000-dən çox vərəqlə sübut etməyə çalışırsınız?-Gözlərini həmin ağ-xələtli şəxsə dikərək sual verdi.

-Özün hər şeyi başa düşəcəksən. Mənim bir söz deməyimə ehtiyac yoxdur. Bu arada mənim adım Johndur. Gəl, sənə yaşayacağın otağı göstərim-john vərəqləri əlində saxlayaraq,

Əmirdən qapını açmağı rica etdi. Və sonra onlar üzbəüz qapıya doğru irəlliləməyə başladılar. Bu dəfə də qapını Əmir açdı. İçəri ilk girən isə John oldu. Əmir, içəri daxil olarkən ağızı açıq qaldı. Aman Tanrım... Bu necə yerdir belə, deyə pıçıldadı. Ətraf ağappaq idi. Bir dənə masa, stul və bir dənə də yataq var idi. Başqa heç nə otaqda yox idi.

-Bu otaq niyə belədir?-Antuan Johna sual verdi

-Heç nə sənin fikrini yayındırmamalıdır. Sadəcə layihəni oxuyacaqsan və düşünməyə başlayacaqsan. Gün də 3 dəfə yemək gətirəcəklər sənə.

-Bir dəqiqə dayanın mən hələ qərarımı verməmişəm.

-Mən demədim ki, siz qərarınızı vermisiniz. Sadəcə olanları deyirəm. Əgər razı olsanız, belə bir şəraitdə qalacaqsınız-John vərəqləri masanın üzərinə qoydu.

-Yaxşı... Mən indi başlayacam oxumağa. Hə... Bu arada, niyə otağa kompyuter qoymamısınız?

-Çünki ona ehtiyac yoxdur. Kompyuterin beynindəki neyronlar olacaq. Sən layihəni oxuduqca beynivn işə salıb düşünəcəksən.

-Aydındır. Bu arada namazın vaxtı gəlir artıq. Mən necə dəstəmaz ala bilərəm?

-Bu qapının yanında hamam var. Ora daxil olub, dəstəmaz ala bilərsiniz-John suala cavab verib, arxasını dönərək qapıya doğru addımladı.

-Bağışlayın, siz alimsiniz?-Əmir birdən sual verdi.

-Bəli.

-Tanrıya inanırsınız?

-Bunu bilməyiniz elə də vacib deyil. İşinizdə olun.

-Bununla nə demək istəyirsiniz?-Əmir sualını verən zaman, John qapıdan çölə çıxmış oldu...

Dəstəmazını aldıqdan sonra, otağa qayıdaraq namazını qılmağa başladı. Ağappaq otaqda, namaz qılan bir gəncin görüntüsü, Johnun otağında görüntülənmişdi. Kamera bütün otağı əhatə edirdi. John, bu mənzərəni illərcə izləmədiyini düşündü. Otaqda səcdə edən bir şəxsin olması ona qəribə gəlmirdi.Çünki o, 7 il bundan qabaq özü namaz qılmışdı. Əmir, namazını bitirdikdən sonra masa arxasına keçdi. Bismillahi rəhmanir rahim deyib ilk vərəqi əlinə götürdü. Kameradan onu izləyən John, başa düşürdü ki, o necə həyəcanlanır. İlk cümləni oxuyan Əmir qəribə hisslər keçirməyə başladı. Davamını çox sürətlə oxumağa başladı. Zamanın sürətinə görə Antuan 30 dəqiqə ərzində 40 vərəq oxumağı bacarmışdı. 40 dənə vərəq oxuduqdan sonra Əmir masa arxasında qalxaraq, yatağa uzandı. Kamera onun yatdığını göstərirdi. John biranlıq düşündü ki, yanına getsin. Amma sonra qərarından döndü. Biraz dincəlməsinə ehtiyac var deyə fikirləşdi...

Axşam namazında sonra John, Əmirin yanına getməyi qərar aldı. İçəriyə daxil olarkən, Əmirin yerdə oturduğunu gördü. Ancaq beş dəqiqə bundan qabaq kamera, onun masa arxasında düşüncəli şəkildə əyləşdiyini göstərirdi. Deməli, John otaqdan çıxıb bura gələnə qədər o, artıq yerə özünü atmışdı. Bu normal idi. Çünki fikirlər ona əzab verməyə başlayacaq. Əvvəlcə əzab, sonra sığal çəkəcəkdir fikirlər.

-Əmir, acdığını düşündüyüm üçün sənə yemək gətirdim.

-Heç nə yemək istəmirəm. Mən hələ 40 dənə vərəq oxumuşam və artıq bitkin haldayam-Gənc oğlan güclə danışırdı.

-Başa düşürəm səni. Atan bu layihəni hazırlayarkən, çox əzablar çəkirdi. O, iki gün ac qalmışdı. Sən də deyəsən ona oxşamısan-John gülümsəyərək dedi.

-Çox təsir edici fikirlər yazıb. Mən bu layihəni davam etdirəcəm-O, öz qərarını alimə demiş oldu...

Saatlar sürətlə irəlliləyirdi. Günlər bir-bir arxada qalırdı. İnsan nə qədər düşüncə dalğasına düçar olsa, onun üçün zaman bir o, qədər də sürətlə axıb gedəcəkdir. Fikirlər, zamanı sürətləndirirdi sanki. Əmir, 27-ci günündə layihəni oxuyub bitirmişdi. O, ilk iki gün atası kimi ac qalmışdı. Sonra ayaqda qala bilməsi üçün yemək yeməyə başladı. Gün də 17 saat layihəni oxuyaraq və təhlil edərək günü başa vururdu. Bəzi vərəqləri təkrarən oxumalı olurdu. Namaz qıldığı zaman Tanrıdan güc istəyirdi. Çünki, artıq əmin olmuşdu ki, doğru yolla irəlliləyir. Bu layihəni tamamlaması düşünürdü ki, Tanrı qarşısında xeyirli olacaq. Atası Tanrıya inanmağa başlamışdı. Əvvəllərdə Tanrıyla bağlı şüphələrini yazmışdı. Amma bu şüphələr çox inandırıcı idi. Düzdür, Tanrı adından yalanlar uydurulur. Ancaq bu uydurulmuş fikirlərin Tanrıya məxsus olduğu demək deyil. Atam, çox dərin yerlərə varmışdı. Sonlara yaxın Tanrının bir uydurma olmadığını əminliklə deyirdi. Lakin ideologiyaları pisləyirdi. Düşünürdü ki, Tanrının heç bir dini və ideologiyası yox idi. O, sərhədsiz olduğu təqdirdə, necə bir sərhəddə məxsus ola bilərdi?! Bu məntiqli idi. Dünyada baş verən müəyyən faciələrin səbəbi dinlərə məxsus idi. İdeologiyalar insanı ayırırdı bir-birindən. Atam əmin idi ki, Tanrı belə bir şeyi heç zaman istəməzdi. Hər şeyin bütöv olduğunu başa düşmüşdüm artıq. Əslində mən və sən deyilən bir şey yoxdur. Hər şey təkdir. Biz insanlar bütöv bir hissədən parçalanıb yerə səpələnmişik. Bizi bir yerə toplasalar əslində Tanrı oluruq. Göydə heç nə yoxdur. Tanrı orda gizlənməyib. Yerin altı da cəhənnəm deyil. Cənnət elə Tanrıdır. Başqa yalanlara və uydurmalara inanmamağı atam bu layihə də bildirib...

28-ci günün gecə yarısında Əmir, atasının layihəsini bir-neçə cümlə ilə tamamladı. Layihəni tamamlayan kimi Johnun otağına gəlib, vərəqləri onun qarşısına qoydu.

-Hazırdır-Əlində çantasını saxlayaraq cavab verdi.

-Beş cümlə ilə tamamladın layihəni?-John vərəqin sonunu açaraq sual verdi.

-Bəli. Çünki atam çox hissəsini həll etmişdi. Sadəcə nöqtəni qoymağa zamanı qalmadı.

-Oxuyaq, baxaq görək necə tamamlamısınız-John beş cümləni böyük həvəslə oxumağa başladı.

İnanmaq istədiyinizə inanın. Yaradıcı qüvvə var, amma onu sübut etmək mümkün deyil. Çünki, insan öz var olmasını heç zaman sübut edə bilməyəcək. Yaradıcı qüvvəyə Tanrı, Allah, Yaradan və s digər adları qoya bilərik. Şüurun harda olduğunu bilmədiyimiz kimi, yaradıcı qüvvənində harada olduğunu bilməyəcəyik-John bu cümlələri oxuyub bitirdikdən sonra üzünü Antuana çevirdi və dedi: Bu layihə sənin üçün idi. Məntiqlə düşünməyini istəmişdi. Və sən də bacardın bunu.

-Düzdür. Amma mən namaz qılmağa davam edəcəm-Əmir cavab verdi.

-Düz edirsiniz, qılın. Onsuzda atan namaz qılmağınızı məntiqsiz hesab etmirdi. O, düşünürdü ki, hər kəsin fərdi bir həqiqəti var. Və bu fərdi həqiqətlər ümumi həqiqətə doğru gedir. Yəni ağac bütöv bir həqiqətdir, budaqları isə fərdi həqiqətlər olur.

-Doğrudur. Bəlkə də heç həqiqət yoxdur.

-Ola bilər.

-Siz Tanrıya inanırsınız?-Əmir birdən sual verdi.

-Niyə insanlar başqalarının inancları ilə maraqlanırlar?-John suala sual ilə cavab verdi.

-Bilməm, sadəcə elə belə ola bilməz?

-Heç nə səbəbsiz deyil-John gülümsəyərək dedi.

-Doğrudur.

-Mən 7 il bundan qabaq namaz qılmışam.

-İndi niyə qılmırsınız? İnanmırsınız?

-Səcdə etməmək, onu inkar edirsən demək deyil. Yaradıcı qüvvəyə inanıram-John açıq aydın cavab verdi.

-Aydındır. Deməli insanlara bu barədə sübut etmək lazım deyil. Onsuzda inanmaq istədiklərinə inanacaqlar.

-Tamamilə düz düşünmüsünüz. Determinizmə inanırsınız?

-O, haqqda atam layihə də yazıb. İnanıram.

-Onda Tanrı özü qərar verir ki, kim mənə inansın və kim isə inanmasın-John vərəqləri yenidən əvvəlki yerinə, siyirtməyə qoydu.

-Bəlkə də elədir.

-Sadəcə beyin insanı idarə edə bilirsə, niyə də Tanrı insan üçün qərarlar verməsin?!

-John, bəlkə də Tanrı neyronlardadır-Əmir, son cümləsini deyib otağı tərk etdi.

# 0101

O, sadəcə tək və tənha idi. Evinin divarlarında müxtəlif kodlar yazılmışdı. Kiçik bir pəncərədən insanları seyr etməyi sevirdi. Bu gün hər şeyə hazırlıqlı idi. Çantasına bir neçə dənə kitab qoyub, evi tərk edəcəkdi. Çünki onu FBI tezliklə buralarda tapa bilərdi. Son dəfə evin divarlarına və pəncərədən tələsən insanlara baxdı. Bəzən hər şey insanın istədiyi kimi getməz. Arada bir nasazlıq yaranmalıdır sanki, deyə içində düşündü. Bir talehin oyunçaları insanlar olar bilərdimi? Qurulmuş səhnələr və onları izləyən münsiflər. Tanrı şeytan və qanadlı mələklər kürsüdə yəqin ki, əyləşiblər. Onların bir münsif olması tam olaraq insan həyatının qurulması demək idi. Bəs insan o, münsiflərə qarşı çıxırsa, dəyişiklikləri onda açıq aydın görməlidir. Mən tərk edirəm münsifləri. Ancaq onlara qarşı çıxmıram. Onları tərk edirəmsə o demək deyil ki, mən onları sevmirəm və inanmıram. Axı, insan bəzən sevdiyi üçün tərk etməlidir. Səbəbi, qarşı tərəfə ziyan verməməsidir. Mən, səssizcə həyat oyunundan gedirəm. İntiharmı?! Xeyr... İntihar etməyə nifrət edirəm. Yolun sonunda nəyi hiss edə bilərəm? Heç nəyi... Çünki yolun sonu yoxdur. Əminsənmi?! Ölüm yolun sonudur?! Bir yaxşı düşün. Axı sən ölümü dadmamış necə buna əmin ola bilərsən. Ölüm sırasında olan bir insanın keçirtdiyi hissləri sağlam bir insan onu təsəvvür edə bilməz. Və məncə təsəvvür edə bilmədiyimiz bir şeyi son adlandıra bilmərik. O, içində yenə də bunları düşünərək, mübarizə aparırdı daxili ilə. Üzünü pəncərədən ayıraraq qapıya doğru addımladı. Paslanmış bir qapının səsi bloka yayıldı. İllərcə, tək və tənha yaşadığı bu evi tərk etmək onun üçün çətin idi. Addımlarını sürətləndirməyə başladı. Blokun qapısından çıxdığı andan etibarən, yağış yağmağa başlamışdı. Neçə insan yağışı sevə bilərdi?! İslanmağı hiss edərək. Onda günəşə nifrət etməliydin. Çünki bir şeyi sevirsənsə, mütləq onun əksini özündən uzaq tutacaqsan. Əgər yox hər ikisini sevirəm deyirənsə, onda bu mümkün deyil. Burda sən

tamamlanmamış hissəyə çevriləcəksən. O, iki xüsusiyyətin arasında elə ilişib qalacaqsan. Düşüncələr, onun daxilini deşirdi. Yolun, bir sağına və soluna baxmaq, talehin oyunundan qaça bilmək demək deyildi. Hər şeydə diqqətli olursan, amma niyə bəzən səhvə yol verirsən? O, səhvin səbəbkarı Tanrıdımı? Sənə səhv etməyə vadarmı edir? Bu suallar necə də insana qəribə gəlir. Çünki, şüurun Tanrı haqqında olan məlumatı təmiz və pakdır. Ona görə də Tanrı haqqında deyilən bəzi suallar insana qəribə gələ bilər. Beynindən keçən düşüncələr, onun ruhu ilə tarazlıqda idi. Addımları beyni tərəfindən idarə olunurdu. Və bu zaman birdən sürətlə peyda olan bir maşın hər şeyi dəyişməyə bərabər oldu. O, arxaya və ya irəliyə gedəcəyini düşünənə qədər artıq bir maşın ona böyük zərbə ilə dəymişdi. Zərbənin təsirindən yolun ortası ilə sürünən bir bədən, talehin bir qurbanı idi. Qəza baş verən andan 10 saniyə sonra ətrafına çoxlu insanlar yığışmışdı. Hansı ki, bu insanlar ona yardım etməyə çalışırdılar. Qızı vuran maşın isə, həmin ərəfə də yox olmuşdu artıq. O, da talehin oyunçusu idi. Amma o, qəddar oyunçu seçilmişdi. Tanrı nədən belə bir səhnəcik hazırlasınki? Maraqlıdır, hər kəs fərqli olaraq ağ-qara rəngli filmdən ayrılır. Kimlərsə özləri tərk edir. Kimlər isə Tanrı tərəfindən atılır. Bəlkə də Tanrı başqa bir film üçün onları bu filmdən çıxardır. Ürəyimin döyüntüsünü hiss edirdi, həkim. Təcili yardım maşını 15 dəqiqədən sonra gəlmişdi. Yolun ortasında böyük bir izdiham yaşanmışdı. Qızı təcili yardım maşınına qoyaraq, xəstəxanaya çatdırmaq üçün böyük bir sürət tələb olunurdu.

0101010101... Bütün kodları hiss edə bilirdim. Gəlin indi tanış olaq. Mənim adım Jamelia. Kodlar dünyasında mən professianal bir xakerəm. Dünyanı kodlar içinə salsam və hər şeyin kodlardan olduğunu görə biləcəm. Dünyanın təməlini qoyan Tanrının isə gizli bir kodu olacaq. Hansı ki, o kodun daxilində həqiqət gizlənib. Amma əmin olun ki, o kodu bilmək elə də sadə bir iş deyil. Bu bank yarmağa bənzəmir. Qəzaya düşməmişdən qabaq, bir bankın sistemini qırdım. Küllü miqdarda öz hesabıma pul keçirtdim. Mən bu oyunu sevirdim.

Dövlətlə oynamaq, polisləri bir sistem içində çaşdırmaq mənə zövq verirdi. Sadəcə mən bu işi zövq üçün görürdüm. Bankdan əldə etdiyim pulları özüm üçün saxlamadım. Onları kimsəsizlər evinə verdim. Mən onsuzda o, bank sistemini kimsəsizlər evi üçün sındırmışdım. Bunu etməyimin səbəbi dövlətin insanlarla mülayim olmaması idi. Onlar əti yeyib, sümüyü xalq üçün saxlayırlar. Mən də sümük qırmağı sevirdim deyə, bu işi seçdim. Pulları öz hesabıma köçürən zaman, arada bir səhv etdim. Səhvən öz İP koduma keçməyim, səhərisi gün FBI-ı evimdə görməyə bərabər olacaqdı. Ona görə də bu gün səhər evi tərk etməli idim. Əslində bəxtim gətirdi ki, səhərə yaxın İP kodumu öyrənib, ev ünvanımı tapacaqdılar. Sadəcə hesabıma pulu köçürtdükdən sonra öz İP koduma daxil olmamalı idim. Və belə yenə də öz evim də yaşaya bilərdim. Ancaq nə edək, istəmədən bir səhv etmişdik. Evi tərk edən zaman da bir qəza keçirtdik. Tanrı kodlarımı dəyişdirdi, yoxsa əvvəlcədən qurulan bir kod idi?

Çantamı çiynimə salıb, arxamca pas tutmuş qapını bağladım. Mərdivənlərdən tələm-tələsik düşdüm. Blokdan çölə çıxan kimi, günəş öz şüalarını üzərimə saldı. Heç bir dənə də qara bulud yox idi. Səkinin kənarı irəlliləyirdim. Yolun digər tərəfinə keçmək üçün, diqqətlə maşınların hərəkətinə baxırdım. Ətraf sakitçiliyə büründükdən sonra yolu keçmək qərarına gəlmişdim. Yolu keçdikdən sonra, insanların arasına qarışdım. Dükanın qabağına çatmağıma çox az qalmışdı ki, birdən saqqalı uzun, qara olan bir şəxs dükanın qabağında dayanaraq, pencəyinin qabağını açdı. Və sonra yüksək səslə ALLAHU ƏKBƏR deyərək ətrafı qana bulandırdı. Paramparça olan bədənlər yerə səpələndi. Və mən də nə hiss edirdim onu bilmirdim. Kamikadze özünü partlatdığı anda bir səs qulaqlarımı kar etdi və partlayışdan kənara tullanmağım həyata keçdi. Amma mən öz xoşumla tullanmadım. Bəlkə də öz xoşumla tullansaydım, başım sfetoforun dirəyinə dəyməyəcəkdi. Partlayış məni o, dirəyə tullamışdı...

Dəyişən nə oldu?! Heç nə, yenidən mən zərər çəkdim. Talehin oyunu ilə oynasaqda belə, yenə də onun istədiyi olur. Əgər kod yazılıbsa, onu silmək ancaq onu yaradanın əlindədir. Bir kodu öyrənmək mümkündür. Amma bəzən onu dəyişmək qeyri-mümkün olur. Mənim talehim istəyirdi ki, mən komaya düşüm. Fərq etmir hansı yolla olursa olsun, yenə də o, reallaşmalı idi. Determinizmə görə Big Bang partlayışını reallaşdıran yaradıcı qüvvənin istəyinə görə olur hər şey. Olmalı olacaq xüsusiyyət, onsuzda reallaşmalıdır. Baş verən bütün hadisələr Big Bang-ə bağlıdır. Komada olarkən gördüyüm yuxu da belə, məni xilas edə bilmədi. Maşın qəzası nəticəsində komaya düşdüm. Uzun müddətdir ki, komadayam. Bura da müxtəlif yuxular görürəm. Və gördüyüm yuxulardan biri də geriyə qayıdaraq, həmin hərəkətin fərqli formada yaşanmasını izlədim. Baş verən 2-ci hadisə sadəcə mənim şüurumdan gələn bir görüntü idi. Yuxu da maşın qəzasına düşməsəm də belə, kamikadze tərəfindən komaya salındım. Unutmayacağım tək bir şey oldu, taleh hər zaman öz istədiyini reallaşdıracaq. İndi komadayam mən. Bura da bir həyatdır. Yuxu da yaşamağım, dünyada yaşamağımdan heç fərqlənmir. Bəlkə də taleh bizim xeyrimizə olacaq rollar verir. Dəyişəcək bir şey yoxdur. Tanrının kodlarını deyəsən öyrənmək mümkün deyil. Amma yeni bir kod yaratmaq mümkündür. Sadəcə talehin qurduğu tamaşadan qaçmalısan. Bunun da necə mümkün olacağını hələ bilmirəm...

Komada yatan Jamelianın geriyə qayıtması qeyri-mümkün görünürdü. Həkimlər gözləməkdən başqa bir şey edə bilmirdilər. Ağ-xələtli şəxs son dəfə Jameliaya baxmağa gəlmişdi. Çünki o, bu gün işdən ayrılırdı. Səbəbi isə bir cinayət idi. Bir şəxsi əməliyyat edəcəkdi. Pasienti bilə-bilə öldürməlisən deyə onun cibinə küllü miqdarda pul qoymuşdular. İnsan isə pulu gördükdə, bəzən aciz vəziyyətə düşə bilir. Nə edəcəyini tam seçə bilər. Həkimində külli miqdarda borcu var idi. Onun bu pula ehtiyacı, artıq hər şeyi həll etmişdi. Xəstəni böyük rahatlıqla əməliyyat masasında öldürdü. Amma bundan heç kimin xəbəri olmadı. Çünki

xəstənin yaxınları bilirdilər ki, çox çətin əməliyyat olacaq. Həkim də yaxınlarına onu xilas edə bilmədik deyə, yalanlar uydurdu. Əvvəlcədən pulu götürən ağ-xələtli şəxs, bunu niyə etməliyəm deyə qarşı tərəfdən heç soruşmamışdı. Çünki artıq o, pulun əsarəti altına düşmüşdü. Jameliayanı son dəfə yoxlayan həkim, pəncərə qarşısına keçərək bir siqaret damağına qoyub onu yandırmış oldu. Bu zaman Jamelianın otağına qara kostyumlu bir şəxs daxil oldu. Sonra həkimi kobud bir şəkil də səslədi. Həkimin arxaya çönməsi ilə, tapançadan açılan güllənin nazik səsi bir-birini tamamlamışdı. Alnından dəyən güllə, həkimin yerə sərilməsinə və son nəfəsini buraxmasına bəs etdi. Ancaq bununla işini bitirmədi qara kostyumlu adam. Sonra o, otağa benzin tökməyə başladı. İzini itirtmək üçün başqa bir şəxsə də ziyan verməyi gözə almışdı. Benzini tələm-tələsik hər yerə yaydı. Ətrafta heç kim görünmürdü. Səbəbi isə tapançaya taxdığı rezin vasitə idi. O, rezin vasitə güllənin səsini yumşaltmışdı. Elə ona görə də səsi özündən və həkimdən başqa heç kim eşitməmişdi. Qara kostyumlu şəxs benzinin hamısını otağa boşaltdıqdan sonra, bir kibrit çöpü ilə ətrafı alovlandırdı. Hələ tam ölməmiş, komada olan bir bədən və yerdə ölü vəziyyətdə olan həkim kül olub yanırdı...

Jamelia... Jamelia... Jamelia... Bu öz səsi idi. Mən ölümü hiss etdim. Sanki nəsə məni özünə çəkirdi. Özümü indi fərqli və daha maraqlı bir yer də hiss edirdim. Ayılmağım çayın kənarında oldu. Quşların səsi ətrafdakı səssizliyi pozurdu. Yenə talehin bir oyununa düşmüşəm deyə fikirləşdim. Öldüyümdən əmin idim. Çünki komada olarkən görüntülər arada bulanıqlaşırdı. Yəni hiss edə bilirdim ki, hələ ölməmişəm. İndi isə öldüyümdən əmin idim. Ona görə ki, ətrafımdakı görüntülərin dəyişdiyini bilirdim. Yolun sonu yoxdur. Amma heç nə də sonsuz deyil. Mən öldüm, amma talehin birinci filmi üçün. İndi isə fərqli bir filmdəyəm. Yaxşı düşün, səncə ölüm yolun sonudurmu? Yenə öz səsi onu mühakimə etməyə başladı.

# LORİYA

Deyəsən qapının səsi idi. Edgar qapıya baxa bilərsən? Hə... Əlbəttə baxaram deyə Edgar cavab verərək qapıya doğru addımladı. Ətraf sakitçiliyə bürünmüşdü. Hər kəs bir-birinin üzünə baxırdı. Loriya, ayağa qalxaraq dostunu qarşıladı.

-Sənə çox ehtiyacım var idi. Yaxşı ki, gəldin-Dostunu qucaqlayaraq bağrına basdı.

-Loriya, belə bir zamanda əlbəttə ki, sənin yanında olacam-Emma sözünü bitirərək, göz yaşlarına boğuldu. Loriyanın atasını və anasını salamlayan Emma sonradan üzünü Edgara döndərdi. Sən necəsən Edgar? Dostumu tapmayana qədər deyəsən yaxşı olmayacam, deyə cavab verdi Edgar. Siz mənimlə mətbəxə gəlində Emma onları səslədi. Loriya və Edgar, Emmanın arxasıyca mətbəxə getdilər. Mətbəxin saatı 12:00-ı göstərirdi. Emma üzünü Loriyaya tutaraq soruşdu: Nə zazman itib o?

-Bu gün səhər öyrəndim hər şeyi. Pencəyi mən də qalmışdı, onu qaytarmaq üçün səhər tezdən evinə getdim, ancaq Sebastian yox idi evdə-Loriya, göz yaşlarına boğularaq cavab verdi.

-Bəlkə, yoxa çıxmayıb? Nə bilirsən?-Emma soruşdu.

-Masasının üzərinə bir vərəq qoymuşdu. Vərəqin içində “Sağolun” sözü yazılmışdı.

-Axı niyə belə etsin ki?! O, mənim ən yaxın dostum idi. Hara yoxa çıxa bilərdi ki, o?-Emma əlini saçlarının üzərində gəzdirdi.

-Bilmirəm, onu çox sevirdim. O, mənə demədən heç yerə getməzdi. Dünən axşam hətta bir yerdə idik. Elə pencəyi də

dünən axşamdan qalıb mən də. Unutdum həmin zaman ona qaytarmağa. Off... Bilmirəm nə düşünüm. Həmişəki kimi deyib gülürdük-Loryai sanki nə isə xatırlayırmış kimi əlini ağzı ilə bağlamış oldu.

-Nə oldu?-Edgar birdən sual verdi.

-Yox, ola bilməz. Bunu o, etməz mənə-Dünən bir yerdə olmaları haqqında Loriya danışmağa başladı...

Əlini mənə ver. Bu gün biz bir yerdə ulduzları sayacayıq. Sebastian, hamısını səncə saya biləcəyik? Deyərək Loriya gülməyə başladı. Onlar yaşıl bir çəmənlikdə göy üzünə baxaraq uzanmışdılar. Sebastian, Loriyanın saçları üzərinə başını qoymuşdu. Saçlarını çəmənliyə yaymış olan qadın isə başını Sebastianın çiyininə toxundurmuşdu. Onlar barmaqlarını göy üzündə gəzdirərək ulduzları sayırdılar.

-Loriya, əsas ulduzları sayıb bitirmək deyil. Əsas zövq alaraq saymağı bacarmaqdır. Fərq etmir nə qədər istəyirsən say. Həyatda da neçə yaşına qədər yaşamağın vacib deyil. O, həyatı necə yaşamağın əsasdır. Boşuna nəfəs alaraq yox, nəfəsin dərinliyini hiss edərək yaşamaq lazımdır. Həyatın rənginə toxunaraq, zövq alaraq ondan yaşamaq lazımdır. Mən artıq həyatımın rəngini sənin gözlərində görürəm. Ölsəm də belə, xoşbəxt bir insan kimi ölərəm-Sebastian qadınının saçlarını qoxlayaraq danışığını bitirdi.

Hər kəs bir-birinə baxırdı. Hal-hazırda ancaq mətbəxdə olan saatın səsi və pəncərədən isə çöldəki maşınların siqnal səsləri eşidilirdi.

-Ağlına belə gətirmə. Sebastian intihar edə bilməz. O, axı ölümdən qorxur-Emma göz yaşlarına boğularaq dedi.

-Mənim dostum, yaşamaq sevinci ilə alışıb yanırdı-Edgar, Loriyanı qucaqlayaraq əlavə etdi.

-Bunları mən də bilirəm. Sevdiyim insan bəs hara yox olub?-Lənət olsun deyərək mətbəxi tərk etdi...

Bizim gələcəktə qızımız olsa, adını nə qoyacayıq?-Sebastian Loriyanın gözlərinə baxaraq sual verdi.

-Bilmirəm. Sənə bənzəsin, adı isə nə olursa olsun fərq etmir. Əsas ad deyil, elə deyilmi?-Növbəti sual Loridən gəldi.

-Gözləri sənin kimi olsun, o mənə bəsdir. Əlbəttə adlar elədə xüsusi önəm daşımır. Səni çox sevirəm-Sebastian son cümləni dedikdən sonra, onu dodaqlarından öpməyə başladı...

Qızım, məncə artıq polisə xəbər verək. Lorinin anası da nigaran olmuşdu. Artıq bu iş get-gedə uzanmağa başlayırdı. Mən zəng edirəm indi polisə deyərək atası əlini cibinə salaraq mobil telefonunu çıxartdı. Atasının yaxın dostu olan polis 30 dəqiqədən sonra yanında olacağını dedi.

-Biz axı 10 gün sonra evlənəcəkdik-Loriya kresloda əyləşmiş vəziyyətdə yellənirdi. Onun sakitləşdirməyə çalışan dostları isə bilmirdilər nə etsinlər...

Əl-ələ parkda gəzən cütlük, fəlsəfi söhbətlərindən bezmirdilər. Sevginin həyatda vacibliyindən danışan Sebastian və onunla razılaşan Loriya çox xoşbəxt görünürdülər. Həyat, ayrılığa bənzəyir. O, ehtimallarla doludur. İnsanları ayırmağı sevən həyat, əslində qəddar deyil. Məncə həyatı qəddar kimi göstərən bizlərik. Təsir əks təsirə bərabərdir. Həyata qarşı necə davransan, gözləmədiyin anda da hərəkətinə uyğun cavab alarsan-Sebastian cümləsini bitirdikdən sonra Loriyanın əlindən bərk tutaraq qaçmağa başladı. Və arxasıyca da onuda qaçırtdıran Sebastian dəli kimi qışqırırdı...

Polis 30 dəqiqədən sonra dostunun evində idi. Hər kəsi salamladıqdan sonra, heç uzatmadan hər şeyi bircə-bircə dinləməyə hazır olduğunu bildirdi. Loriya, Sebastianla dünənki dialoqlarını, küçə də qaçmalarını, bu qış günün də dondurma yemələrini danışmağa başladı. Bu zaman da qısa qeydlər

aparan polis, qəribə-qəribə suallar da vermiş olurdu. 40 dəqiqəyə yaxın zaman da danışan Loriya, sözünün bitirdikdən sonra tezliklə sevdiyi insanın tapılmasını xahiş etdi. Əlindən gələnini edəcəyini bildirən polis, hər kəsə narahat olmamasını və xəbər verəcəyini bildirdi. Kor peşman olmuş 2 dost, sevdiyinin harda olduğunu bilməyən qadın, hər ikisi üçün narahat ana və ata. Sebastianın anası və atası o, uşaq olarkən vəfat etmişdilər. Loriya ilə tanışlıqdan sonra, dəfələrcə qızın evinə qonaq gələn Sebastian, sevdiyi insanın valideynlərinə artıq ana və ata deyə müraciət etməyə başlamışdı. Hər kəs durğun vəziyyətdə oturmuşdu. Sanki həyatın günəşini Sebastian özü ilə aparmışdı...

2 il sonra...

Canım mənim, xoş gəldin, buyur əyləş-Emma Loriyanın üz-gözündən öpdü.

-Hə... Emma nə vaxt evlənirsən? Şad xəbəri tez de görüm. Dostumun toyunu nə zaman görəcəm?-Loriya sualları bir-bir Emmaya ötürürdü.

-Artıq, tarix bəllidir. Beş gün sonra evlənirəm-Qışqırıqlar bütün restoranı bürüdü.

-Əla... Bax bu əla xəbərdir. Mənə qismət olmadı, amma sən xoşbəxt olacaqsan-Loriya cümləsini bitirdikdən sonra ofisianta əl edərək bura baxmasını bildirdi. Bu zaman da içəriyə əynində köhnə, cırılmış paltosu olan, saqqalı kir içində bir şəxs restorana daxil oldu. Boş bir masaya əyləşərək, başından qalın bir papağı çıxarıb dizlərinin üzərinə qoydu. Ona tərəf baxan çox insan var idi. Ayağında cırılmış bir ayyaqbı ilə bu cür lüks restorana daxil olan insanlara yuxarıdan aşağı baxırdılar. Ofisiant ilə danışığını bitirdikdən sonra Loriya, birdən üzünü arxaya çevirdi və göz yaşlarına boğuldu. Ayağa qalxaraq, gözlərini paltosu cırıq olan insandan ayırmadan ona

doğru addımlamağa başladı. Onun yanına çatan kimi, dizlərini yerə atdı və əlini onun masasına qoyaraq Sebastian dedi. Sebastian ona tərs-tərs baxmağa başladı. Bu zaman Emma da Sebastian... Sebastian... qışqıraraq Loriyanın yanına gəldi.

-İki ildir, səni gözləyirəm-Loriyanın gözlərindən yaş axmağa başladı.

-Lənətə gəlmiyəsən səni, bu vaxta qədər harda idin?-Emma, Loriyanın qolundan tutaraq onu ayağa qaldırdı.

-Bağışlayın... Siz kimsiniz? Sebastian kimdir?-Sebastian dizinin üzərindəki papağı götürərək başına qoydu. Bir dənə pulsuz şorba içməyə gəlmişdim onu da burnumdan gətirdilər deyə mırıldınaraq oturduğu yerdən qalxdı. Çıxışa doğru addımlayan Sebastian qızlar tərəfindən saxlanıldı.

-Hara gedirsən? Məni tanımadın? Mənəm Loriya, sənin sevdiyin insan-Gənc qız az qala Sebastianın qarşısında dizləri üstə yerə çökəcəkti. Onları dinləməyən Sebastian restoranın çıxışından çölə çıxdı. O, çıxan kimi Emma, Loriyaya təklif etdi ki, gəl onu izləyək, baxaq görək hara gedir. İki ildən sonra tapmışıq onu, belə canını rahat qurtara bilməz bizdən...

Ara məhləyə qədər gələn qızlar, Sebastianın hansı bina da qaldığını öyrənə bildilər. Bu şəhərə yeni köçmüşdü Loriya. Ona görə də buraları yaxşı tanımırdı. Bu zaman susamış olan Loriya, dükana girmək istədiyini bildirdi. Emma ilə birgə dükana daxil olan Loriya dükançıdan su aldı. Bu an Emmanın ağlına bir fikir gəldi. Düşündükü ki, bəlkə dükançı Sebastianı tanıyır. Əgər tanıyırsa onda elə ondan mərtəbənin nömrəsini öyrənərdi.

-Bağışlayın, Sebastianı tanıyırsınız?

-Hə, o kasıb insanı deyirsiniz?-Sualı eşidən Emma təəccübləndi. Onun çox pulu olduğunu bilirdi. Amma həm bayaq cırıq paltosunu gördü, həm də indi kasıb olduğunu eşitdi. Deməli illər onu kasıb vəziyyətə salıb.

-Onun haqqında məlumatınız var?-Emma növbəti sualı verdi. Loriya isə göz yaşları içində, əlləri əsərək suyunu içirdi.

-Yanına tez-tez bir həkim gəlir-gedirdi. Niyə onun haqqında maraqlanırsınız ki?

-Mən onun dostuyam, bu qız isə sevdiyi insandır-Emma cavab verdi.

-Hə, onda sizə hər şeyi danışmalıyam. Həkim yaxın dostumdur. O, mənə onun haqqında danışıb ki, Alzheimer xəstəliyindən əziyyət çəkir.

-Nə? Alzheimer?-Loriya az qala huşunu itirəcəkti.

-Bəli... Hələ o, xəstəliyin irəlliləyən dəqiqələrindən bəri mənim dostum, yəni həkim onun müalicəsi ilə məşğul olurdu. Hələ tanıdığı insanları unutmamışdan qabaq xəstəxanaya onun yanına gedirdi o, Sebastian. Buralara yenicə köçüb. Həkim illərdən bəri onunla ünsiyyətdədir. Amma o, həkimi də artıq tanımır. Beynində bəzi dəyişiklər olmamışdan qabaq, sevdiyi bir insanı, dostlarını tərk etdiyini həkimə demişdi. Hardasa 2 il bundan qabaq bu hadisəni danışıb mənə, həkim dostum. Deməli qorxurdu ki, sevdiyi qadınının, dostlarının adını xatırlamaz. Bunu bilirdi belə olacaq. Ona görə də səssizcə ayrılmışdı tanıdığı bütün insanlardan. O, göz görə-görə əzab verməк istəmirdi sevgilisinə və dostlarına.

-Pişik də, ölməyi gəlincə səssizcə ayrılır doğma evindən. Bu da belə etdi. Heç kəsə əzab vermək istəmədən, özü təkcə əzab çəkərək yolu davam etdirmək istədi-Emma məlumat barəsində dükançıya öz təşəkkürünü bildirdi. Loriya isə eşitdiklərinə inana bilmirdi. Heç kəsin bu xəstəlikdən xəbəri yox idi. Hamı Sebastianın sağlam olduğunu bilirdi. Onlar dükandan ayrılan zaman, Loriya çölün ortasında dizləri üstə yerə çökdü. Əlindəki suyu ehmalca yerə qoyaraq hönkür-hönkür ağlamağa başladı. Deməli məni Alzheimer xəstəliyinə görə tanıya bilmədi. Xəstəlik mənim adımı onun beynindən

silib. Başa düşürsən bunu Emma. Loriya cümlələri qışqıra-qışqıra deyirdi. Təkcə səni yox hər kəsi unudub bu sözləri deyən Emma, göz yaşlarına boğuldu. Sonra dizləri üstə yerə çökmüş olan Loriyanın saçlarından öpməyə başladı. Küçənin sakitliyini Loriyanın hönkür-hönkür ağlaması pozurdu.

# KƏPƏNƏKLƏR

Sərin bir külək əsirdi. Göyün üzü qara buludlarla örtülü idi. Günəşin görünməsi artıq mümkün deyildi bu gün. O, dodaqlarının arasına bir siqaret qoyaraq, bir neçə dəqiqə dənizin dalğalarını seyr etməyə başladı. Sonra əlini cibinə ataraq kibrit qutusu çıxardıb siqaretini yandırdı. Başını səmaya doğru qaldıraraq tüstünü ağzından buraxmış oldu.

-Dənizi çox sevirsən?-Yavaş addımlarla ona doğru bir şəxs yaxınlaşdı.

-Əlbəttə, dənizi çox sevirəm.

-Səbəbini öyrənə bilərəm?-Adam, növbəti sualı ünvanladı.

-Çünki o, danışmır. Sadəcə insanı dinləyir. Dalğalarının gətirdiyi xoşbəxtlik qırıntılarını insanlara bəxş edir.

-Danışməyan şeyləri sevməyin, səssizliyə bərabərdir. Səssizlik isə insana, səssiz iynələrini batırır. O, iynə ki, dərinə, amma çox dərinə təsir edir. Acı, xatirələri bir-bir üzüə vurur. Səssiz qaldığın hər bir dəqiqə, əzab içində olursan. Düzələn bir şeyin olacağını zənn edirsən. Amma bir də yarı yolda ayılıb hiss edirsən ki, əslində bunu danışaraq həll etmək lazım idi. Düşüncələr, insanı öldürüb sağaldan odur-Adam, cümlələrini bitirdikdən sonra bir addım daha Simona yaxınlaşmış oldu.

-Bilirsən niyə, insan öz-özünü daha yaxşı başa düşə bilir?! Çünki daha dərin özünə baxa bilir. Başqası heç vaxt, amma heç vaxt dərinliyi görə bilməyəcək, qarşı tərəfin daxilin də nələr olur hiss etməyəcəklər. Ən azından əzab çəkən insanın hiss edəcəyi kimi hiss etmiş olmayacaqlar. Hər kəs fərqlidir. Heç kim daxilən eyni deyil-Simon cümləsini bitirən kimi, siqareti yerə atmış oldu.

-Ancaq insanlardan qaçmaq da bir çarə deyil-Adam, söz atarmış kimi dedi.

-Daniel, dostum mən insanlardan qaçmıram. Mən sadəcə insanlarla boğuluram. Onları özümlə birgə boğmamaq üçün də tərk etmiş oluram.

-Səncə bu düzgün bir hərəkətdir?-Daniel, Simona sual ünvanlamış oldu.

-Bilirsən, əslində ümumi düzgünlük yoxdur. Sadəcə çoxluğun qəbul etməsi deyilən bir şey var. Və ancaq sürü psixologiyasına uyğun insan, öz fərdi düzgünlüklərini unuda bilər. Sən hal-hazırda sürü psixologiyasından əziyyət çəkirsən. Çünki mənə yalnız belə insanlar bu cür sual vermiş ola bilərlər. Öz fərdi dayanacağında qalan şəxs, heç zaman başqasının fərdiliyinə qarışmaz. Ona görə ki, o bilir insanın fərdi seçimləri hər zaman düzgün olur. Çünki, fərdilik yalnız bir şəxsə məxsusdur. Bir şəxs isə özü üçün hər zaman düzgün hərəkətlər seçməyə can atacaq. Və səhv olsa da, yenə də onun bir səhvi olacaq. Ümumi bir topluma aid olmayacaq dərəcə də-Simon sözünü bitirən kimi, növbəti siqareti yandırmağa başladı.

-Düz deyirsən. Mənim hesab etdiyim bir səhv, başqası üçün doğrudur. Və düzgünlük, səhvlik insana görə sadəcə dəyişir.

-Daniel, mən bezmişəm. İnsanların mənə qarışmasından, yoluma kərpiclər tikilməsindən məntiqsiz ideologiyalarını mənə yeritmələrindən boğaza yığılmışam. Kəpənəkləri indi daha yaxşı başa düşə bilirəm-Siqaretin tüstüsünü havaya buraxan Simon, özü ilə gətirmiş olduğu çimadanın üzərinə oturdu.

-Kəpənəklərin qanadları olan zaman, ölürlər. Onları qısa müddətdə öldürən, həyatla təmasda olmalarıdır. Bütün canlılar həyatın daxilin də olan da ölürlər. Bu həyat öldürür hamını. İnsanda bu dünyaya gəlibsə, deməli ölməyə məhkumdur-Daniel, gözlərini dənizin ortasında olan bir turbaya dikmişdi.

-Bizlər elə varlıqlarıq ki, heç zaman tam olaraq nə istədiyimizi bilməyəcəyik. Hər şey yolunda olsa da belə, həyatımızın müəyyən hissəsində nəinsə çatışmadığını düşünəcəyik.

-Çünki, biz varlıqlar əlimizdəkinin dəyərini tam olaraq bilmirik. Bizi yıxan, gözümüzün doymamasıdır-Daniel də cibindən bir siqaret çıxardaraq dodaqlarının arasına qoymuş oldu.

-Sənin siqaret çəkdiyini bilmirdim-Simon, birdən Danielə baxaraq dedi.

-Hə çəkirəm. Səninlə uşaqlıqda futbol oynamayandan bəri, bu tüstüyə alışmışam. Deməli bir gün qəlbimi qırdın. Səndən top istəmişdim, sən isə topu mənə verməmişdin. Görürsən sadə bir şeydir. Amma nələrə bərabər olub.

-Yadımdadır bunlar. Ancaq ilk dəfədir qarşımda siqaret çəkirsən. Ona görə təəccübləndim. Topumu bilirsən nəyə görə o, vaxtı sənə vermədim?-Simon sual verdikdən sonra, qum dənəciyini əlinə götürdü.

-Ona görə ki, mən hər dəfə topla oynayanda yıxılırdım-Danieli bir gülümsəmə tutdu.

-Bəzən başqasına pislik etmək istəməyəndə, onun qəlbini qırmağa məcbur olursan. Sənin hardan ağlına gəldi ki, qəlb qırılandan sonra siqaret çəkmək lazımdır?

-Elə ağlıma gəlmədi. Səninlə dalaşandan sonra gedib kənarda, darvazanın yanında oturdum. Və gördüm ki, yanımda yanıq vəziyyətdə, yarımçıq şəkildə olan bir siqaret var. Mən də götürdüm elə belə dodağıma qoydum və öskürə-öskürə çəkdim. Hər ikisini gülmək tutdu. Dənizin mənzərəsinə dalaraq, doyunca gülməyə başladılar...

Göy guruldamağa başlamışdı artıq. Birazdan yağışın damcılarını hiss edəcəkti onlar. Dənizin kənarında, gözlərini dalğalara dikən iki dost yanbayan əyləşmişdi. Havada qoxan bir kədər bəlkə də günün nümunəsi idi.

-Simon, hər şeyi artıq hazırlamışam. Üç saatdan sonra sən köhnə şəxsiyyətini unudursan, mən də köhnə dostumu unutmalı olacam-Daniel bu cümlələrini deyərkən gözündən yaş axmağa başladı.

-Bunu yenə də sənin xeyrinə, digər insanların yaxşılığına etmiş olacam. Bəzən tərk etmək, əzaba bürünərək getmək, sonra əzabı unutmaq və hər kəsə unutdurmaq şansı vermək düzgün seçimlərdən biri olur.

-Bəlkə qalsaydın o, xəstəlikdən qurtula bilərdin?!

-Bipolar bozukluk xəstəliyindən qurtulmağım, insanlara əzab verərək keçəcək bir xəstəliyə bənzəmir. Ətrafıma daha çox ziyan vermədən, hər kəsi tərk etməliyəm. Dünən elə səni yumruqla vurmuşam. Görmürsən bu xəstəlik ətrafa ziyan verir?!-Simon birdən gözlərini Danieldən qaçırtdı.

-Eybi yoxdur. Dünənki vəziyyəti unutmuşam. Yenə də seçim sənindir. Bəs ona dedin?

-Liliya, canımın içi. Ona mən bunu deyə bilmərəm. Onun necə ağlayacağını seyr etmək istəmirəm. Çünki, gedərkən ayaqlarım düyünlənəcək və mən ona əzab verməyə davam etmiş olacam. Onsuzda son zamanlar da bir vaza kimi yanında dururdum. Bu xəstəlik məni tamam ayrı bir adama çevirdi-Simon, göz yaşlarını silməyə başladı.

-Yəni deyirsən ki, getməklə bir dəfəlik həll etməliyəm?
-Yalnız getməklə. Və bir də...

-Necə yəni bir də?-Daniel gözlərini bərəltdi.

-Bir dənə planım var. İndi sənə onu izah edəcəm. Və səndən son xahişim olacaq-Simon, Danielə son planını izah etməyə başladı. Sonra isə bir-birlərini qucaqladılar və dənizin kənarından uzaqlaşmağa başladılar. Dalğaların səsindən uzaqlaşan zaman, Simon qolunu Danielin çiyninə atmışdı. Yol

boyunca bir-birləri ilə zarafatlaşan dostlar, yağışın damlalarını da son dəfə bir yerdə hiss etmiş oldular...

2 gün sonra...

İndi isə keçirik ölkə xəbərlərinə. Bu gün saat 06:00 radələrində, evin yanması nəticəsində, gənc bir oğlan həyatını itirmiş oldu. Yanan bədən kül olmuşdu. Ölən gənc oğlanın kim olmasını qonşular məlumat verdilər. O, 20 yaşlı Simon Clerman idi. Simon Clerman... Simon Clerman... Simon Clerman... Qızın beynində bu ad sanki dəfələrcə təkrarlanmağa başladı. Liliya televizora yaxın əyləşdi və əli ilə Simonun şəklinə toxundu. Cansız bir şəkil, televizorda yayımlanan bu foto Simonun yaxın zamanlar da çəkdiyi şəkillərdən biri idi. Liliya birdən bu zaman tez ayağa durdu. Amma bir addım belə ata bilmədi. Gözləri qaralmağa başladı. Və huşunu itirərək yerə yıxılmış oldu...

-Həkim, Liliyanın vəziyyəti yaxşıdır?-Qızın atası və anası təlaş içində idi.

-Narahat olmayın, sadəcə təzyiqi qalxmışdı. Və bir də sizə bir şey demək istəyirəm-Həkim udqunaraq sözünə ara verdi.

-Bəli həkim, buyurun-Daniel də Liliyanın atası ilə anasının ortalarında durmuşdu.

-Qızınız bir həftəlik hamilədir-Həkim bu sözləri dedikdən sonra getmək istədi. Ancaq qızın atası ilə anası həkimə bu ola bilməz? Bir də yaxşı baxın ona deyə xahişlər yağdırmağa başladılar. Bu zaman Daniel, Liliyanın otağına daxil oldu. Liliya, Danieli görən kimi ona suallar ünvanlamağa başladı.

-Simon ölüb? De ki, bu yalandır-Qız ağlamaqdan artıq bir təhər olmuşdu. Aman Allah mən nə edim? Simona da söz vermişəm, bu plan haqqda heç kimə deməyəcək deyə. Ancaq Allahım sənə xəyanət edim mən?! Yalan danışa bilmərəm axı.

Mənə yol göstər ey böyük rəbbim. Simon daxilində Allahdan yardım istəməyə başladı. Göz yaşlarına boğulan Liliya, yazıq bir şəkildə boynunu uzanmış vəziyyətdə yana əymişdi.

-Liliya hər şey bir oyundur-Daniel, Simona verdiyi sözü tuta bilmədi.

-Necə yəni?

-İki gün bundan qabaq Simonla görüşmüşdüm. Və ona yeni sənədlər hazırlamışdım. Kanadaya gedəcəkti. Yeni bir adla, yeni şəxsiyyət vəsiqəsi ilə bizləri tərk edirdi. Səbəbi isə bipolar bozukluk idi. O, bu xəstəlikdən əziyyət çəkirdi. Və ətrafındakı insanlara ziyan verməyə başlamışdı. Hətta görüşməmişdən bir gün qabaq məni yumruqla vurmuşdu.

-O, mənə də şillə vurub. Ancaq onun belə bir xəstəlikdən əziyyət çəkdiyini bilmirdim-Liliya göz yaşlarını silməyə başladı.

-Mənə, sənə əl qaldırdığını deməyib. Hə, deməli daha da çox ətrafındakı insanlara ziyan verməmək üçün bizləri, bu ölkəni tərk etmək qərarına gəlmişdi. Kanada meşələrində bir ev özü üçün düzəldib, insanlardan uzaq yaşayacaqdı. Birinci planı bu idi. İkinci planı isə “yalançı ölüm” olacaqdı. Yəni onun evini yandırmağımı məndən istədi. Və evin içinə də bir meyid qoyacağını məndən xahiş etdi. Morqdan cəsədi tanınmaz bir halda olan bədən oğurladım. Və bu gün meyiti evə qoydum, sonra da oranı yandırdım. Bir də yeni çəkdirmiş olduğu şəkili elə bir yerə qoydum ki, o həm yanmasın, həm də onu rahatlıqla tapmış olsunlar. Ev yanan andan beş dəqiqə sonra özüm yanğın söndürmə mərkəzinə zəng etdim. Ən əsası şəkil yanmayana qədər yanğın söndürən maşının gələcəyini bilirdim. Liliya, Simon ölməyib. Sadəcə bu plan ona görə idi ki, onun həyatda olmadığını bilsinlər-Liliya, yastığı dişləyərək, uzandığı yeri yumruqlayaraq ağlayırdı.

-Mən hamiləyəm-Ağlayaraq cümləsini dedi.

-Bilirəm. Həkim hər şeyi dedi. Mən Kanada meşələrinə gedəcəm. Simonu tapacam və onu sənin yanına gətirəcəm. Söz verirəm sənə Liliya.

5 gün sonra...

Kəpənəklər, onlar qısa müddətli yaşayırlar. Qanadları çırpsalarda belə, ölümə qarşı acizdirlər. Əslində heç kəs ölümlə mübarizə apara bilməz. Çünki həyat da tək dəyişməyəcək bir xüsusiyyətdir. Və bir də dəyişməyən xüsusiyyət yenə də var. Şüurun içi dəyişmir. Düşüncələr, hara gedirsən, get onlar səninlə birlikdə gəlirlər. Şəxsiyyət vəsiqəni dəyiş, istəyirsən lap ölkəni yenə də şüur dəyişmir. Kəpənək olub, insanların gözündən yox olmaq istədim. Qısa bir ömür sürdüyümü düşünmələrini ağlımdan keçirtdim. Ancaq sevgi hər şeyi dəyişdi. Beş hərifdən ibarət olan bu söz, dərin bir mənaya malik olduğunu indi hiss etdim. Liliyanın dünyaya gətirəcəyi övlad mənim də bir parçam idi. Ona görə də Danielin məni dedikləri, geri qayıtmağa bərabər oldu. Sevgi, o insan daxilini parçalayan həm də gözəlləşdirən bir məfhumdur.

# MELODİYA

O, kreslo da əyləşərək, pianinonoya baxırdı. Evin içi yerə səpələnmiş vərəqlərlə dolu idi. Danışan notlar, onlar vərəqlərin içərisində onu gözləyirdilər. İllərcə daxilindən çıxan melodiyaları, notlara çevirdi və sadəcə özü üçün xəyali olaraq ifa etdi. İndi isə qarşısında bir pianino dayanıb. O, öz-özünə heç zaman səs çıxara bilməz. Mütləq, ona toxunan barmaqlar olmalıdır. Əlini kreslonun oturacağına qoyan bu gənc, əslində artıq qocalmışdı. Bədən 25 yaşlarında cavan qala bilər. Ancaq ruh qocalmaq gücünə malikdir. Saçı saqqalına qarışmış vəziyyətdə kreslosunda əyləşmiş vəziyyətdə olan bu şəxs daxilindəki səsi dinləyirdi. Bəzən melodiya səsi gəlirdi, bəzən isə daxilindən adsız bir şəxs ona qarşı pıçıltılar yağdırırdı. Gözlərini pianinodan ayıra bilmirdi. Yalnız və yalnız gözlərini ona dikmişdi. Və bir də dünənki gecənin görüntüsü arada bir onu narahat edirdi. Son bir saat. Bəlkə də 2 saata gələcəklər. Ancaq mütləq bura gələcək onlar. Sən axmaq kimi otur elə yerində. Bax bu pianinoya, əlində tutmuş olduğun qızın şəklini öp. Sevdiyin, sən onu çox sevirdin elə deyilmi? Yenə də sevirsənmi? Axmaq, yalan danışma. Bilirəm ki, sən onu sevirsən. Daxilindəki pıçıltı onu hələ dəli etməmişdi. O, susurdu, danışan daxili idi. Bəlkə dünənki hadisəni o, həyata keçirib deyə düşünməyə başladı. Ey, eşidirsən məni. Evdə illərcə ondan başqa heç kim olmayıb. O, yalnız yaşayırdı. İndi də yanında heç kim yoxdur. Yenə daxili ona əzab verir. O, daxili çəkişmə ilə mübarizə aparırdı. Bəlkə də artıq mübarizə aparmırdı. Çünki nəfəs alıb-verməkdən başqa bir şey etmirdi. Axmaq, eşidirsən məni? Axı məni sən yaratmısan. Sən mənim Tanrımsan. Dünənki hadisəni heç cürə mən həyata keçirə bilməzdim. Pıçıltı, o daha ona cavab vermək istəmirdi. Əlində tutmuş olduğu qızın şəklini öpməyə başladı. Səssizcə ağlamaq, onun ən yaxşı bacara biləcəyi bir iş idi. Sən deyəsən bu gün mənimlə danışmayacaqsan? Daxilindəki səs ona yenidən ilişməyə başladı. Daha bildikdə onu sevirsən. Qadın,

kişini tamamlayan bir varlıqdır. Məni də tamamlayan bu şəkil də ki, qadın oldu. Həyat da həqiqətən, bir qadını sevmək və sevilmək çox gözəl bir hissdir. Məncə bununla həyatının puzzle tamamlanır. Və tamamlanmış puzzle birgə həyat yolunu davam etməlisən. O, bunları düşündükcə, daxilindəki səs isə gedib-gəlirdi sanki. Beynində bir melodiya səslənməyə başladı. Əllərini havaya qaldıraraq, beynində səslənmiş olduğu melodiyanın ritmini hiss etməyə çalışdı. Və bu zaman gözlərini bağlayaraq, havada barmaqlarını tərpətməyə başladı. Melodiya, beynində get-gedə aqressiv olmağa başlayırdı. O, isə barmaqlarını səma da, sanki pianino çalırmış kimi onları tərpədirdi. Melodiyanın səsi uzun çəkmədi. Daxili çəkişmə yenidən başlamışdı. Sən yazıq birisən. Özün üçün musiqi ifa etməkdən dəli olmusan. Az qala sevgilni də dəli edəcəktin. Sən axmaqsan. Heç olmasa ona pianino ifa edərdin. Həqiqətən, mən nəyə görə indiyə qədər heç kimə pianino ifa etməmişəm?! Heç, öz sevgilimə belə melodiyalar ifa etmədim. İllərcə bu taxtalı evdə, özüm üçün ancaq melodiyalar bəstələdim. Bir dəqiqə, bəs Tanrı?! O, məni 100% eşidib. Deməli mən təkcə özüm üçün pianino ifa etməmişəm. Dəli, Tanrının öz melodiyası var. Sənin melodiyanı nə etsin?! Bir qəpiklik də heç ifa edə bilmirsən. Yaxşı ki, elə ancaq özün üçün bəstələmisən musiqiləri. Pianino ruhun qidasıdır. Bir şeir ki, insan mənəviyyatını zənginləşdirir. Eləcə də bir melodiya insanın ruhunu səmalara qaldırır. Ordan xoşbəxtlik qırıntıları toplayıb qayıdır. Masanın üzərində dayanmış olan şam işığı birdən sönməli oldu. Yana bilmədimi?  Deməli son intihar. İndi isə otaq qapqaranlıq idi. Çöldən ay işığı düz gənc oğlanın üzünə düşürdü. Pianino qaranlıqda aydın şəkildə görünmürdü. Ruhu qocalmış şəxs, əlini saqqalına ataraq onu qaşımağa başladı. Gözlərini isə pianinodan ayıra bilmirdi. Hətta pianino qaranlıqda yaxşı görsənməsə də belə, o yenə də gözünü ondan ayıra bilmirdi. Ey dəli, bəlkə durub şamı yandırasan. Yoxsa bir neçə saata gələnlər sənin evdə olduğuna əmin olmayacaqlar. Daxilindəki səs yenidən dirçəlmiş oldu. Mən qaçmaqmı istəyirəm?! Yox, qaçmağı sevmirəm. Unutmaqmı?! Əlbəttə ki, mən unutmağa nifrət edirəm. Ağlından bu

düşüncələri keçirərək, kreslosundan yavaşca qalxmağa başladı. Masaya doğru irəlliləyib, kibrit çöpü ilə şamı yenidən yandırdı. Otaq yenidən aydınlandı. Geriyə qayıdıb özünü kresloya yavaşca buraxdı. Və qaldığı yerdən gözlərini pianinoya doğru dikdi.  Son saatları qalmışdı. Harda olurlarsa olsun, birazdan qapını döyəcəklərdi. Sən niyə ayağa qalxıb bir şey ifa etmirsən? Daxilindən bir sual yenidən gəldi. Əgər mən onun Tanrısı oluramsa, nəyə görə onu susdura bilmirəm? Ağlında bu sualı keçirtdi cavan oğlan. Deməli o, məndən asılı deyil. Nə olsun mən yaratmışam onu. İstədiyim zaman öldürə bilmirəm. O, məni boğaza yığıb. Görəsən mənim Tanrım nə zaman, əlimdən boğaza yığılacaq?! Bəlkə də boğaza yığılıb. Çünki mən ona çox xəyanətlər etmişəm. Ancaq niyə məni dinləyir hələ də?! Nə düşünür görəsən?! Beynindəki düşüncələr artıq ona əzab verməyə başlayırdı. Bunları düşünən zaman, birdən qapı döyüldü.

-Açın qapını, tez olun. İçərdə olduğunuzu bilirik-Qapını çox möhkəm döyürdülər.

De, gəldilər. İndi nə edəcəksən?! Daxilindəki pıçıltıya fikir vermədən, ruhu qocalmış gənc kreslosundan ayağa qalxdı. Yavaş addımlarla pianinosuna doğru irəlliləməyə başladı. Ona çatan vaxt, stula əyləşdi. Ehmalca, pianinonun qapağını açdı. Və əlini saqqalının üzərindən gəzdirərək, barmaqlarını pianinoya toxundurdu. Daxilindən gələn melodiyanı, ətrafa yaymağa başladı. Qapını döyənlər isə, onu hədələməyə başladılar.

-Tez olun qapını açın. Yoxsa onu sındırmalı olacayıq. Musiqini kəsin və bu lənətə gəlmiş qapını açın.

O, heç kimi dinləmirdi. Ruhu artıq səmalarda gəzirdi. Melodiyanın təsirinə o, qədər qapanmışdı ki, qapının səsini artıq eşitmirdi.

-Dünən sevdiyiniz insanı öldürmüsünüz. Buna görə sizi həps etməliyik. Siz gənc bir qızı qətlə yetirmisiniz. Tez olun qapını

açın-Bu son cümlə oldu. Və polislər qapını qıraraq içəri daxil oldular. Onu pianino arxasından qaldıraraq, yerə uzandırdılar. Yarımçıq qalan melodiya, onun həyatı ilə müqayisədə eyniləşdi. Çünki, dünən öldürmüş olduğu sevgilisi, onun inanmaq haqqını oğurlamışdı. Onu başqa bədənlərə sarılan zaman gördü. Və sevgi onu qoruya bilmədi. Əvvəlcə məhəbbət öldü, inanmaq, güvən oğurlandı bunların hamısı eyni zaman da baş verdi. Özünü saxlaya bilməyən gənc oğlan, daxili pıçıltısına aldanaraq sevdiyi qızın həyatını sonlandırdı. Melodiya yarımçıq qaldı. Tam ifa edib bitirə bilmədi. Polislər qandalı əlinə taxaraq onu evindən çıxartmağa nail oldular. Axmaq, yarımçıq qoydun melodiyanı. Daxilin də yenə etirazlar oyanmışdı. İndicə tamamlaya bilmədiyi melodiya kimi, ruhunun da tamamlanmamış olduğunu hiss etdi. Həyat da belədir. İnsana bəzən imkan vermir ki, işini tamamlayıb bu dünyadan ayrılmış olsun. Bu polislərin bayaqları imkan vermədiyi kimi. Evindən ayrıldığı vaxtdan etibarən, bütün yol boyu gənc oğlan yarımçıq qalmış melodiyasını düşünürdü.

# ŞEİRLƏR

Həyat da yaşamağının səbəbi nədir?

## Nədir həyat?!

İllər keçdikcə dərk etmək insanlığını
İllər keçdikcə başa düşmək nədir yalan, nədir doğru.
Bilərək zamanın axıcı məhfum olduğunu
Ölümün kölgəmiz qədər bizə yaxın olduğunu.
Bunları dərk edərək
Hələ də suallardan qaçdığımız bəlli deyilmi?
Suallar bataqlığında boğulmuş beyin
Səndə bir gün batacaqsan.

İlk hərif, ilk dərs, sonda fəlsəfə
Tap dərin də özünü, bax insanlara.
Baxdıqca insanların beyninə
Bəzilərinin dərin də, onların nəyəsə qadir olduğunu görürəm.
Ruhum qidası elm, bir az da siz qidalanın mənim balaca
beynim
Sətiraltı cümlələr sizi tapacam
Sizi insanlara göstərəcəm.
Kainat, big bang ve alimlər danışacaq
Savadsızları çıxarın ortadan
Onda savadlılar rahat danışacaq.
Səs salmayın qoyun bir az düşünək
Suallar beynim də dönəcək.
İndi azadlıq insanlar deyəcək
Hansı azadlıqdan insanlar söyləyəcək.
Axı mən görmürəm
İslam sülhdür eşidirəm
Ancaq görmürəm.
İnsanlar eyni yoldadır
Mən axı bunu görmürəm.

# Ulduz

Gözlərin bənzəyir yer kürəsinə
İki planet qədər yaxınıq bir-birimizə.
Gəl danışaq hisslərdən
Mən başlıyım ilk hərf və ilk səhifədən.
Sənə danışım əl çatmaz ulduzdan
Sənə danışım görünməz qüvvədən.
Sevgi, gülüş, kədər sadəcə təmiz hisslərdən
İnsanlar ibarətdir əl çatmaz əməllərdən.
Bax uca zirvədən
Bəzi insanların vicdanını gör
Bəzilər də tamam itmiş, bəzilərini axtaran gör.

Tut əlimdən qorxma
Səni aparacam insanlığın olduğu yerə.
Qorxma səni aparacam saxta gülüşlərin olmadığı yerə
Orda var ancaq sevgi, vicdan göstərəcəm sənə təmiz hissləri.
Ora nə planetdir, nə də günəş
Ayın kənarındaki ulduza bax.
Bax, ora aparacam səni
Bərk tut əllərimi.
Gəl elə bu gün gedək
Əliboş səmaya gedək.
Gedək gözü yaşlı qoyaq hər kəsi
Sən ağlama ki, ulduzlar da ağlamasın
Sən gül, qoy səmalar da gülsün.

# Soyuq fəslim

Bu səhnə də yalnız ikimizik, iki qəlbə bağlıdır bədənimiz
İcazə ver sığallayım saçını, götürüm sənin əllərini
Soyuq fəslim də isidərəm öz əllərimi.
Qoy sənin ətrin bürüsün bütün kainatı
Saçlarınla rəqs etsin küləklər.
Əlini uzat mənə, qorxma
Soyuq fəslim olsada darıxma.
Yenədə bir təhər isidərəm sənin ürəyini
Fəslimi dəyişə bilmərəm, bağışla məni
Çünki hələ tapmayıb, isti fəsil məni
Gəl səni də aparım öz fəslimə, onda anlayarsan məni.
Bəzi insanlar çox istidir, yandırırlar adamı
Şeytana bənzəyən üzümdə yoxdur ki,
Mən də od tutub yandırım onları.
Bir söz de mənə qadın
Sevirəm deməyə də bilərsən
Amma soyuq fəslimdə de ki, qalacaqsan mənimlə.
Ürəyim balacadır, bir neçə qadına yer verə bilmirəm mən
Ancaq sən gəlsən və desən ki, qurtaracam səni uçurumdan
Onda deyərəm xoş gəlmisən isti fəslim.

# Ayrılıq qoxusu

Biraz ayrılıq qoxusu gəlir üzərindən
Gülməlidir hə?! Amma mən yenicə qaçmışam xəyanət diyarından.
Yollar çox yağışlı idi
Ağlayan qadınların göz yaşları süzülürdü deyəsən.

Sadəyəm, doğrulara sığınıram
Nə olar yalan danışaraq, sığınacağımı dağıtma.
Əslində susaram, dinmərəm
Amma inan ki, ağzımda sözlərim bitmir.

## Xəyallarla görüş

Əllərim sevincin üzərini örtür
Qapını arxadan bağlayıb
Çölə qaçaraq, yağışlı havada
Hər gecə xəyallarla görüşmək bəsdir.
Hisslərim də tanrı nəfəsi gəzir
Ona görə ruhumu vermirəm heç bir qadına.
Bu gecə də ulduzları sayıram yuxusuzluqdan
Axı niyə mən hər dəfə yatağımda sağa və sola dönürəm?!
Hardasan, niyə gözlərini ağlımda qoymusan?!
Deyəsən səni yox, gözlərini sevmişəm.
İyrənirəm intihar qoxusundan
Zəhləm gedir, bir qadın ruhuna görə tavandan asılmış kəndirdən.
Şeirlər ruhumun qidası olub
Görəsən mən nə qədər sevəcəm gecələri
Yəqin ki, sonsuzluğum qədər, sevəcəm ulduzları.

## Solmuş gülüş

Elə gözəl gülürsən ki, kədər libasını soyunmağım gəlir

Bir-iki təbəssüm də mənə ver, çoxdandır sevinc görmürəm.

Gəl otur yanımda, ruhuna şeirlər üfürüm

Mən də kədərdir, sənə ancaq göz yaşı verə bilərəm qadın.

Bax bunlar uşaqlıq şəkillərim, hamısın da fərqli gülüşlərim var

Amma indi, səndən borca gülüş istəyirəm.

Boş ver, əllərini mənə aç cibim də solmuş gülüm var

Götür, solmuş gülü çalış yaşat.

İndi gəl gedək, solmuş bağçam da gülüşünə ehtiyacım var

Tut soyuq əllərimi, görürsən də kədər baxmır soyuğa-istiyə.

Bağışla evim qarışıqdır vərəqlərlə, götür qırıq stulu əyləş

Darıxma gülüşünü götürüm, ondan sonra çıxıb gedərsən.

# Sənə görə

Günəşi oğurladım, yağış damlalarını topladım

Xoşbəxtliyimi qaytarasan deyə, sözlərimi sıraladım sənin üçün.

Heç bir əl sənə toxunmasın deyə

Gecə-gündüz əllərimi səndən uzağa aparmadım.

Sıxıntılarımı gizlətdim, gülüşlərin əksik olmasın deyə

Gözlərimi səndən ayırmadım, başqa gözlər görməsin deyə.

Bir-iki dənə kədərim qalıb,

Getdiyin yollardan geri dön və ovuclarında xoşbəxtliyimi gətir.

Sahilə buraxdım özümü, dalğalar nəfəsimi apardı

Sənə görə sevgini seçdim, xoşbəxtliyimi götürüb apardın.

Qorxuram artıq göz yaşlarımı oğurlayasan deyə

Yanağımda qurumuş damlalar qalıb, gəl onuda sil apar.

# İyrənirəm intihar məktublarından

Səhərə eyni kədərlə qucaqlaşıb oyanmaq
Gecə qaranlığında isə, əllərini buraxdığın qadını axtarmaq.
İyrənirəm intihar məktublarından
Kişilərin qadın gözünə baxaraq
Ağızdan tökdükləri yalandan, zəhləm gedir.
Rənglərim qarışıb bir-birinə
Amma mən o, rənglərdən qara rəngi seçdim.
Ey sən qara saçlı qadın
Kədərli gözlərin ilə, məni ürəyimdən vur.
Bəs isti əllərin hanı?!
Eybi yox, soyuq əllərinlə ruhumu sar.
Darıxmışam buludların ağlaması üçün
Əməl dəftərim qaralamaya çevirilir
Eşit məni tanrı, üzərimə göz yaşı tök.
İnanclarımı al məndən
Ver qara saçlı qadına, mələklərlə dərtləşsin.
Sətirlərim indi dualara çevrildi
Tanrım qoyma çaşdırsın, dinlər bizi...

# Həyat yoldaşı

Baxçam da əkdiyimiz gül
Hər səhər ağacda oxuyan bülbül.
Hər şey səni mənə xatırladar
Sən sevərdin gecələr gəzməyi.
İşıqlı məhləmiz də sən sevərdin rəngli işıqları
Amma heyif, sən gedən gündən bəri sökdülər məhləmizi.
Kənarda bir daxma düzəltdiyimi görürsənmi
İçində yanan tək bir şamı bilirsənmi.
Sən gedəndən sonra
Qələm və vərəqlər sevdi məni.
Hər dəfə qələmi yenisi ilə əvəz etsəmdə
Ancaq səni əvəz edə bilmədim.
Ona görə də çürümüşəm artıq solğunam
Yeni dünyaya gedirəm durğunam.
Son məktubda yazmışdım insanlara
Cismi olmasa da ruhuna vurğunam.

## Gözlərinlə danış

Çox gülürdük, inan ki, kədər qısqanırdı
Səndən danışırdı əllərim, çünki dilim də sözüm bitmişdi.
Mənim bədənimə bitişik deyilsən
Ona görə də məndən uzağa apar bədənini.
Bilirsən əslində çox darıxmışam
Burda olsaydın, gözlərim mənim yerimə danışardı.
Çox dəyişdim, biraz boğulurdum sevincdən
Səndən sonra xoşbəxtliyi çıxartdım əynimdən.
Bu gün gördüm səni, özgə əllər də
Amma gözlərin məndən danışırdı, lap utandım qaçdım ordan.
Çətin nəfəs alıram, darıxdım, nə olar gözlərini bağla gəl
İstəyirsən əliboş gəlmə suallarını götür
Gedən də isə cavablarımı sənə hədiyyə edərəm.

## Gəl qaçaq

Nə adam kimi sevməyi bacardın, nə də ki, ayrılmağı

Ciblərini də doldurmuşdun sözlərin ilə,

Keçdiyin yerləri daşlıyırdın, bilib-bilmədən.

Sən getmək nədir bilmirsən

İstəyərək getmək ilə istəmədən getmək arasında fərq var.

Sən heç bunu anlamırsan

Ölmək, istəmədən getmək deməkdir,

Başa düşürsən, bircə yox demə

Çünki sinirlərim qıcıqlanır.

Sevgi etirafım yadımdadır, elə ordan keçibdir bu xəstəlik mənə

İnsanlar yox dedikçə, bədənim cızıldayır,

Toxunma, mən bircə kəlmə ilə keçirici ayrılığa malikəm.

Getdin deyəsən tamami ilə

Axı, biz hələ uşaqlarımızın dalıyca qaçmalı idik.

Gəl, nə olar bir-iki günlük gəl

Yalandan da olsa, küçə də olan uşaqların ardıyca qaçaq.

Sən on günlük sevgi idin

Amma sevgi əqrəblərlə işləmir.

Eh… Heçnə anlamıram,

Tutduğumuz əllər, niyə ayrılıq günlərimizi saydı.

# Biri yox, biri var

Biri var, biri yox
Tənhalıq adlı dərya isə hər zaman var.
Nağıllardan öyrəndik, yaxşılar hər zaman qalib olur
Eh, sadəcə nağıldır deyə-deyə qaldıq.
Unut, unut sözləri deyir içimdən bir səs
Səssiz qal, bəzən bir küncdə otur və sadəcə izləyici ol deyir.
İyrənc görsənir, yalançı insanlar
Bu qədər doğru heç cavan qalarmı, heyif.
Saatları qırmağım sadəcə əlimdən gəlir
Kaş zamanı qıra bilərdim ya da yandırardım
Külünü isə heç saxlamazdım, zibil qutularına atardım
Çünki, şəhər zamandan təmizlənərdi.
Zamansız olmaq istədim, gülən də heç tərpənməsin əqrəblər
Tələsmədən, məqsədsiz yaşamaq
Niyə zamanı vecimizə alırıq ki?!
Bax və gör, əqrəblər heç insanı vecinə almır.
Biri yox, biri var
Hər zaman belədir, boş ver.

# Beş hərif

Bir-iki mötərizə əvəz edir gülüşləri
Deyəsən yavaş-yavaş unudulur, gülüş səsləri.
Daha çətindir ağlamaq, sevincli fəsillər də
Üşüsən, bil ki, kədər fəslidir.
Heç sıxılmadın çox sevməkdən?!
Gəl biraz dalaşaq, sözləri ataq bir-birimizə.
Sən əsəbləş, mən çıxım gedim, ya da əksinə edək
Eh fərqi nədir,
Onsuz da ikimizdən də ayrılıq qoxusu gələcək.
Yandırıram vərəqlərimi, bezdim o beş hərfli sözdən
İstəyirsən götür geyin əyninə yazılı kağızlarımı
Amma unutma, yağış damlası altında islanacaqsan.

## Yalandan qaçaq

Hə... Yaxşı deməkdən yoruldun?!
Dur onda ayağa, yalandan qaçaq.
Bilmirəm, bilirsən ya yox
Amma inan ki, bezibdir sifət, eyni baxışlardan.
Görəsən səhərlər nə qədər axtaracam
Bitməyən, buludların üzərində xəyallar.
Soyundum inancları, tək azad bir ruham
Gəl al özümdən məni.
Görəsən neçə qadın, bədənləri yox insanın özünü sevir
Hansı musiqilər məni sərxoş edir
Heç bilmirəm neçə qadın sevir, sonra da ayrılığı öyrədir.

# Unut

Heç kədərlənmə, yenidən sevəcəksən
Buludlara baxıb, yağış damlalarına qarışacaqsan.
Heç dünyadan küsmə, əllərini qoru,
Çünki, başqa qadının saçlarını darayacaqsan.
Baxma belə səssiz gedirəm,
Ölüm özü səssiz ayrılmağa vadar edir, mən nə edim?!
Gözlərimi unut, çünki sən başqa gözlər də qeyb olacaqsan
Yenidən doqquz mərtəbəli binaların arasından keç,
Mən olmayacam,
Amma sən, sözlərini başqasının üzərinə tökərək keç.
Canım, ayrılmaq necə də çətindir
İndi bildim, sevginin üzərindən ayrılıq qoxusu gəlir.
Nə isə gedirəm, bədənimi torpaqların altına salmağa
Unut izlərimi, hətta unut ad günümü.

## Susmaq

Nə çox danışırsınız, biraz susmağı öyrənin

Çoxlu sözlər deyirsiniz, heç nə anlamıram.

Mənə də yalan dedilər, belə gətirdilər

Susmaq istədim alınmadı, sözlərə boğub dodaqlarımı tərpəddilər.

Uşaq idim, elə hey öyrədirdilər

Böyüdüm, amma yenə də susmadılar.

Niyə axı susmuş insanları anlamırsınız

Amma tanrı susur, yerinə danışanları anlayırsınız.

Çox danışdılar, bir-birlərinə baxıb göylərə ad qoydular

Heç buludlar da danışmır, görürsünüz susublar siz də susun.

Dinmirəm, ağzıma sözlər qoymayın

İstəmirəm doymuşam, bu gecə mən ancaq susuram.

Yığışdırın lüğətlərinizi he çnə əzbərləmirəm

Bir stəkan su gətirin, amma nə olar içinə sözlər atmayın.

Mənə sözləri olmayan qadın göstərin

Danışmasın, dinməsin yalnız susub sevsin.

# Saçsız qadın

Əyinlərində ağ xələt, ətrafında sən bilmədən gəzir həkimlər
Sənə yaraşmır bu qədər yatmaq, dur ayağa yenidən sev məni.
Hanı toxunduğum saçlar, axı mən onların ətri ilə şeir yazırdım
Tanrı, qaytar geriyə o telləri bu incə varlıq üçün qələm tutmalıyam.

Öldü sevinc, dirildi kədər
Göz yaşlarımdan bataqlıq düzəltdim bir qədər.
İndi boğuluram, oyan qadın gəl məni qurtar
Əllərimi isidəcək əllər yoxdur.
Bilirəm gecdir, həkim də bunu deyir
Ruhu qovuşduqca tanrıya, bədəni də yavaş-yavaş üşüyür.

# Rəqsin sonu

Küçələrin dadı qaçıb, nə qədər olar eyni rənglərdən danışmaq
Rəngsiz şəhərlər də var, yəqin ki, orda tanrı ölüb.
Bu gün saxta təbəssümlər, qadınları aldadır
Deməli sadəlik işə yaramır, biraz çox üzlü ol.

Boş ver, sarışan hallardır sən deyilsən
Keçib gedəcək, necə ki, keçdi ilahi yaraların.
Yadıma düşür səninlə rəqsim, pıçıldamışdın qulağıma
Demişdin ki, hər bir rəqsin var sonu.

# Ölümün acığına

Gəlirik dünyaya yaşayıb, ölmək üçün

Biri mənə çıxıb desin başqa nə üçün?
Gülürük, kədərlənirik, işləyirik lənətə gəlmiş pul üçün
Bir aylıq planlar, istirahət biletləri
Sonra bilinməyən vaxt da gedişsiz, plansız ölmək
Və son da qurduğun planlar uçur, bilinməyən şəhərlərə.

Gəl bir yerdə ölək desən, saçlarını gizlədib qaçacaq qadının
Sonra saç axtaracaqsan, boğazına keçirib özünü asmaq üçün.
Ölümü qeyd edirik, pulun sayına görə fərq var
Ölüm bahadır, bir neçə metrlik torpaq da almalıyıq,
Biləyi torpağa qarışdırıb uzanmaq üçün.

Qəribə bir oynun içindəyik sanki
Sonu olacaq, qırılmağa hazır olan körpünün üstündəyik.
Ölməyin xeyirli olsun,
Ordan bir şərab ver qadın, ölümün sağlığına içək.
Əşi gül, oyna ölümlə, əla sal onu
Yandır bir-iki siqaret, ölümün acığına,
Yaşa, yaşa həyatını elə ölümün acığına.

# Məni sev

Məni sevə bilərsən?

Səssiz, toxunmadan, heç kim bilmədən.

Gözlərinlə, gözlərimə danış bütün acılarını

Öpmə, istəmirəm səndən tez ayrılım.

Bizi heç xəritələr ayırmır

Yuxarıdan baxsaq, iki barmaq qədər bir-birimizə yaxınıq.

Tez öyrəşdik, qorxuram ayrılarıq

Düz eləmədin, gərək öyrəşdirə-öyrəşdirə girərdin həyatıma.

Gəl tez qocalaq, sevgimiz qocalmamış

Bircə saçlarını qoru, heç olmasa rahat nəfəs alım.

Ağla... Niyə ağlamırsan qadın?

Biraz göz yaşı axıt çox sevinmə, sevgimizə göz dəyər.

Dur ayağa, ölməyin tezdir hələ

Bax sənin üçün dərman hazırladım, tez saxalasan deyə.

Qocalmış əllərimlə kədərimi sıxmışam

Gəl qollarıma bürün, soyuqdan üşümə.

İnan ki, yoxsulam

Üstünü örtməyə bircə qollarım var.

# Sən günəşsən

Bu gün çox gözəl gülürsən

Görürsən də təbəssümün buludları ağlatmır.

Ey sən sarı saçlı qadın, niyə bu qədər işıq saçırsan?

Lap istiliyin öldürür məni, sən olmayanda da  üşüyürəm.

Pəncərimi açıq qoyuram, hər səhər görüm səni deyə

Amma naz edirsən, gizlənmə evin otaqların da.

Yenə məcnun olub, çöllərə düşmüşəm

İndi keçmiş məcnunlar gülür mənə.

Səni soruşuram buludlardan

Yağış damlası tək yağırlar ovucuma.

Hardasan? Ey sarı saçlı qadın

Sənsiz üşüyürəm, xəyallarım bədənimi isitmir artıq.

Bənzəyirəm soyuq küləyə, çünki külək də günəşsiz üşüyür.

Fəsillər kimidir bəzi qadınlar

Yayda isidirlər əlləri, qışda isə soyuq qoyurlar.

Deyəsən sən də batdın

Dənizin arxasında batan günəş kimi.

Səssiz sevdin dinmədim, səssiz gizlənmək nə idi bəs?

# Rəngsiz xoşbəxtlik

Bu gün biraz kədərli gördüm səni
Elə bil ki, gülüşlərini oğurlamışdılar.
Bəs saçlarını niyə kəsmisən?
Bircə demə ki, özgə əllər toxunmuşdu saçlarıma.

Gəl otur, mənə biraz rənglərdən danış
Məsələn, xoşbəxtliyin rəngini de, çünki mən unutmuşam.
Bilirsən, bu gün səhər kədər dağılmışdı üzərimə
İndi mən də sənin kimi, kədərin istisini hiss edirəm.

Hara gedirsən saçsız qadın?
Bax görürsən günəş batır, otur indi sənə şeir dəmləyəcəm.
İstəyirsən qal burda, qollarım var üşümərsən
Amma mən üşüyəcəm, çünki sənin saçların yoxdur.

## Qocalmış gənc

Baxma yaşım azdır, qocalmış bir gəncəm

Bədənim sadəcə cavanam deyir, ancaq gözlərim əksini bildirir.

Cəld olmağıma fikir vermə

Onsuz da hisslərimlə danışdıqdan sonra, gec dururam ayağa.

Qaça bilmirəm artıq uşaqlar kimi

Cavablar da uzaqda, əllərim suallarla yüklü gedirəm yavaş addımlarla.

Tələsəcək heç bir yerim yoxdur

Parklardakı oturacaqlar da boşdur mənim üçün

Görürsəndə qocalmış bir gəncəm.

Bədənim qırışsız, gözlərimin altıda çökməyib hələ

Ancaq nə bilirsiniz, ruhum nə vəziyyətdə.

Heç kəs mənə qocalığın əlamətlərini saymasın

Həyatın rənglərini onsuz da saymağım, gəncliyimi qocaltdı.

Gedirəm qocalığımı asmağa

Səhər axtarsaz taparsınız, bir qadının saçlarında.

# Gedirik

Gedirik, dur əynini geyin
Saçlarını tök çiyninə, gülüşlərindən də biraz at çantana
Gedirik, axı uzaq məsafələr bizi gözləyir.
Çalış əynini qalın geyin
Bəlkə külək, çağırılmamış qonaq kimi gəldi yanımıza.
Çətiri də götür, buludlar tərs-tərs baxa bilər bizə
Amma mən öyrəşmişəm buludların ağlamasına,
Bəlkə sən də öyrəşərsən, saçlarının xətrinə.

Gözlərin, mənə kitabdakı qəhrəmanı xatırladır
Gülüşlərin isə, səssiz bir söz kimi xəyallarımda qalır.
Sən hardan gəldin?!
Necə oldu gözlərimdə göründü?!
Eh nə isə boş ver, gedəcəyimiz yolları izləyək.
Çantandan mənə bir-iki gülüş ver
Çünki keçən ay gülüşlərimi yalançılara xərclədim.
Bağışla, paltarım biraz çirklidir kədərdən
Axı mən, bəzi gecələr şeir dağıdıram üstümə.
Nə isə, yoruldun?!
Gedirik, narahatçılığını yığ kənara.
Biz səssiz getməliyik, çünki şəhər yatır hələ
Oyandırmamalıyıq, şirin yuxudadır cəmiyyət hələ.

## Bir nəfərlik gecələr

Gözlərindən süzülür, danışdığın cümlələr

Bədənim üşüyür, yenə bir nəfərlik gecələr.

Deyəsən sevməkdən yoruldun

Əynini geyin gəl, qollarımdan as özünü.

Hardasa bir yol var deyirlər, bilmirəm tanrı yanında

Yoxsa, xəstəxanada gəzən ağ paltarlıların otağında.

Nəsə deyirlər, amma mən eşitmirəm lal olmuşam

Çağırırlar görmürəm, elə bilirlər ki, yalanam.

Sevgilim, aç bir kitab oxu mənə

Dodaqlarından başa düşəcəm, nə olar aldatma məni

Sadə görünməyimə baxma

Bu əllərimlə, bir neçə qadının hisslərini oğurlamışam.

Tez öyrəndin xəyanəti, axı mən sənə hələ sevməyi öyrətməmişdim

Sən də yalançı müəllimlərdənsən

Görürsən başa düşmürəm, kitabları əzbərliyib danışırsan.

Eh, bu gecə də yorğansızam

Bir qadın yenə yalanlarını yığıb getdi.

# Kədər gözlü qadın

Çaxırım da kədərin qalıb, üzərimdə də qoxun var
İndi getdiyin yolları qayıt, otağımda soyunduğun ruhunu apar.
Bir-iki məktubdur uzağa atıram, üzərinə qarışqalar toplaşır
İçində kədər var deyə, bir-bir hamısı məhv olurlar.
Əlləri bağlı sevginin, gecə yarı öldürdün adı bilinməyən
şəhərdə
Və həmin şəhərin torpağına, bir-iki damcı göz yaşı tökdün,
Sevginin yanında kədərli ağac böyütdük.
Sən sanki Həvva idin, mən də Adəm
Biz sevgini basdıraraq,
Növbəti nəsil üçün günahlar məzarlığı qoyduq.
İndi mən o məzarlıq da güllər əkdim
Amma görürəm ki, hamısı solur.
O, iyrənc şəhvətin altında, gizlənibdir sevgi yalanı
Sanki hər gecə yataqlarda, danışırlar məhəbbət nağılını.
Bir-birinin gözünə baxaraq rəngbərəng yalanlar uydururlar
Dil ağızda böyüyübdür, sevgi morfinə bənzəmir artıq.
Heç nə, get as özünü hisslərindən
Bu səhər ya bir damcı göz yaşı ilə oyan,
Ya da yuxuda gülümsəyərək heç oyanma.

## Qara

Nə səs var, nə görüntü

Sən çoxlu rənglər bilirsən

Mən isə qara rəngdən başqa heç nə bilmirəm.

Sən gecələr körpə səsinə ayılacaqsan

Amma mənim üçün körpə səssiz.

Mən saçları dağınıq olan, ruhumu haralardasa itirən şəxsəm

Sözlərim yox, ancaq səssiz bədənəm.

Hər bir toxunuş istidir mənim üçün

Danışsan dinmərəm, bağışla səni heç səsli sevə bilmərəm.

Mənə kömək elə toxunum həyata

Bəlkə sevdim onu, o biri rənglərini bilməmiş.

Pıçılda əllərimə

Onlar mənim səsim və sözümdür.

Amma mən heç toxuna bilmədim sənə

Yaxınlaş, mənə sevgini öyrət.

Bilirsən mən yalnız anamın isti əllərini hiss edirəm

Ona toxunuram, amma hər şey mənim üçün görüntüsüz qara rəngdir.

# Adını sən qoy

Məni öp sonra kəfənə bağla
Torpağa tapşır sonra ağla
İstərsən gəl yanımda uzan, ya da həyatdan torpağa baxıb ağla
Mənə ətirli gül gətir, içimə çəkim və sonra deyim elə sənin ətrin
Bağışla ruhumu sənə qoymadım
Amma cismim torpaqda
Təəccüblənmə bənzəyirəm bir çiçəyə
Adını sən qoy, çürüyüb sonra çiçək olan cəsədimə
Say ona kimi, qayıtmasa ruhum geriyə
Yuxuna hansı tərzdə gəlim, sən şüur da düşün hələ
Elə indi gözünü bağla
Mən özüm gələrəm yuxuna darıxma
Görüşərik bəlkə canlı, sənin intiharından sonra.

# Yalan

İnsanlar yalan danışır

Niyə məhz yalanlar mövcud oldu anacan?

Mən böyüdüm anladım ki, harda doğru orda da yalan

Yəqin ki, kitablar bildirməsəydi Adəmi, olmazdı yalan.

Kitablar bəzi insanlardan dürüst çıxdı

İnancımı oğurlayanlar, heç vərəqlər qədər dözümlü olmadı.

Necə də gözəldir, dəniz qoxusunu ciyərlərimə çəkmək

Ən azından bəzi ətirli qadınlardan saxta deyil.

Mən əllərimi görürəm güzgü də, bədənimə baxa bilirəm

Anacan birdən bu dünya və insan yalan oldu?!

Onda kim hesab verəcək bizə?!

## Sən kimsən?

Mən bilinməyən bir yolam, üzərimdə yüz cür həqiqətlər qurulur

Mən torpağam, dövlətlər mövcud olduqca

Üzərimdə müharibələr olur.

Şeytanam, tanrını sevdim amma o, məni qovdu

Mələyəm, daha çox gülümsəyib tanrıma qovuşdum.

Mən bir atayam, amma xəstə olub oğlumu unutmuşam

Qocalar eviyəm, nankör övladlar üçün bir yuvayam.

Yeddi yaşım hələ tamam olmamış bir uşağam

Mənə oyuncaq verin oynayım, dilənməyi heç sevmirəm.

Səhərlərin günəşiyəm, çılpaq bədənlər qızınır mən də

Həm də bir təhlükəyəm, səhralarda insan öldürürəm.

Xoş gördük mən isə bir insanam, öz-özümün bəlasıyam

Yaradıb sonrada sökməyi bilirəm.

Mən isə adımı açıqlamadım, özləri ad qoydular

Bəziləri məni səhv anladı.

Yaxşı, bəs sən kimsən?

# Yalnız getmək

Sən mənə yalnız xəritələrdə yaxınsan
Məsələn, iki ən yaxın barmağım qədər.
Yeddinci fəsildir artıq, yoxluğunu qeyd edirəm
Pəncərəmdən növbəti yarpağın düşməsinə sənsiz baxıram.
Hərdən gözlərim, yağış damlasına çevrilir
Hərdən sözlərim, yalnız xəyallarda ölür.
Gedişini yalnız mən izlədim,
Çünki gedənlər, öz gedişini heç cür izləyə bilmirlər.

Həyətimdə bir ağac var idi, sən sulayardın
Onu sanki mənim üçün böyütdün və getdin,
Axı mən ondan asılmaq istəmirəm.
Onsuzda, sən getdiyin gündən bəri
Mən hər axşam sözlərimdən özümü asıram.
Sən səhərlərimin günəşi idin
Amma indi mənim səhərlərim yoxdur,
Sən heç günəşsiz səhər gördünmü?!

# Boş sistem

Qızların ana olmadan, körpələrə sahib olmaları
Saxta qalstuklu insanların, saxta düşüncələri
Müəllimlərin əzbərliyərək, izahatsız danışdıqları dərsləri
Tələbənin yorulmadan verdiyi rüşvəti
Bəzi həkimlərin, bir-iki manatlıq reseptləri
Bunlar ruhsuz şəhərdə var.
Ərəb hərflərini bilməyən, yalançı saqqallılar
Efirdə soyunmağı unutmayan, parlaqsız ulduzlar
Müharibə şəraitində, ölməyə məcbur olan
Əlləri oyuncaqlarla dolu uşaqlar.
Nəfəslərin ziyanı olmadığı təqdirdə
Ciyərləri sökən vicdansızlar.
Hələ də mentalitedə qurban gedənlər
Əzbərçiliyi savad hesab edən sistemlər
Nə istəsən taparsan bu ruhsuz şəhərdə.

# Ey dünya

Bilirsən dost, heç nə düzələsi deyil
Nə sevgi ayrılıqsız qalacaq, nə də ki, zaman əqrəbsiz
Heç nə, bəzi şeylər bölünə bilmir.
Bölünənlər də nə isə anladır,
Başa düşən də, düşməyən də eyni yola iz salır.
Eh, nə qədər "lənət olsun" demək olar
Bir də "kaşkiləri" nə vaxta qədər dolduracam cibimə?!
Görəsən hansı gündə tapacam tanrını, ya da o məni tapacaq
Maraqlıdır, görəsən sonuncu ad günüm nə vaxtdır.
Sonları nə çox sevdim mən,
Sən demə hər bir başlanğıcın bir sonu var.
Uzun bir musiqinin sonu olduğu kimi,
Sənin də musiqin bitəcək, ey dünya.
Kimlər sevdi səni, kimlər ağlatdı
Dövlətlər üzr istəsin səndən, sən axı pak və təmiz idin.
Əşi yox ee heçnə düzələsi deyil
Hələ bu siyasətin övladı olacaq, ey dünya çalış öldür özünü.

## Rəngli həqiqətlər

Ağla... Bir-iki damcı göz yaşının ziyanı olmaz
Bax gör necə ağlayır buludlar, halbuki ölməyib tanrı.
Sanki tez qocalmışam, qabar olub əllərim
Ancaq güzgülər eynidir, daxili aləm görünmür.
Necə maraqsız gülürsünüz
Elə bircə gülüşünüz insanı öldürür.
Tez yoruluruq, tükənirik
Çılpaq ruhumuzu heç əzizləməyimiz gəlmir.
Həkimlər tanrı, tanrı həkim
Bu gün onların sözündən çıxmalıyıq.
Lənət olsun, rəngli həqiqətlər göy qurşağı kimi
Qadınlar aldadıcı, hər şey gözəl görsəndikcə aldanırıq.

# Yaşatmaq həyatı

Mən buludu sevdim, günəşdən qaçaraq
Xoşbəxtliyimi xərclədim, beş qəpiklik sözləri eşidərək.
İndi sən durub mənə kədərdən danışırsan
Heç vecimə də deyil, rəngbərəng göy qurşağı.
Uşaqlıqdan çıxaraq, qocalığa doğru addımlamaq
Öldürmək, yaş asfaltın üstün də gəncliyi öldürmək
Geriyə yol yoxdur, qocalıq da dönüb baxmaq.
Yaşamamaq nəfəs alaraq, kar olaraq sözləri eşitməmək
Cəmiyyətin qüsurlarını, olmayan barmaq ilə saya bilməmək
Çox çətindir yaşatmaq həyatı, dünən ki, kimi dünya dönür.
Söz azadlığı öldürülüb, dirilmir
Hər haqqı deyən ağız, gözləri həbsxanaya qurban verir.

# Zaman gedir

Zaman gedir, saatın əqrəblərini əksinə qaytarmır
Səhv-düz bütün əməllərin hərəkət də bilinir.
Bir gecə oturub düşünürsən və görürsən ki,
Sən demə insan öz-özünün bəlası olur.

Kin, nifrət niyə insan bu xüsusiyyətlərə malik olur
Hanı bəs sevgi, insan ürəyi hər zaman buz kimi olmur.
Bir gün dayan güzgünün qarşısında və danış onunla
Soruş...! Sən kimsən, içimdə yatan insan kimdir?!

Ataraq hər şeyi, çantaya yığ hisslərini
Qaç get uzağa, amma onsuz da tək olmayacaqsan.
Bədəninin daxilində, bir insan daha olacaq
Doyunca danış, qayıdan da isə gəlmə eyni yoldan.

# Müharibə saatı

Hələ oyuncaq nədir bilmədən
Müharibə saatının birin də balaca əllər torpağa uzadıldı.
Saçları dağılmış ananın
Susuzluqdan qurumuş dodaqları, göz yaşları ilə islanırdı.
Toz, duman, yaşamaq üçün qaçan insanlar
Kənarda durmuş, oyuncağa bərk-bərk sarılmış
Qıvrım saçlı uşağın gözün də canlanırdı.
Son dəfə ağlayan körpəni, bir dəfə ana gözündən baxmaq
Balaca bədəni doyunca qoxlaya bilmədiyi üçün
Qışqırmaq, səmaya baxaraq buludlara bağırmaq.
Biraz səssizlik, toz-dumandan sonra dağınıq evlərə baxmaq
Atanın diz üstə yerə çökməsi
Uzanmış övladına baxaraq, son da saçlarını oynadan görmək
Sən bir də gəl ata gözündən bax.

# Kim bilir?!

Kitablardaki kimi deyil həyat,
Unut dostum, unut bu dünyanı.
Kimlər gəldi, kimlər gedir
Görəsən necədir vəziyyət gedənlərdə.
Həyat bəlkə də bizim gördüyümüz bir yalan, kim bilir
Təsadüfləri sevənlər üçün, sadəcə bir-iki gülümsəmə bəsdir.
Yorulduğumuz da ölə bilmirik, onda yorulmamalıyıq
Çünki, həyatın yorğunlunu ölümdən betər.
Ağlamaq yaxşıdır, ağla dostum ağla
Bax, buludlar da ağlayır,
Həmin zaman düşün ki, dünya parçalanır insan əlindən.
Səninlə danışıb, gülməyimə baxma
Kim bilir, bəlkə də biz şizofren rolundayıq.

# İnanma

Mən bir az göy-qurşağı kimiyəm

Elə bilirsən yaxınam, yox çox uzağam.

İnanma, mən seni sevə bilməyəcəm

Çünki mən ayrılığa bənzəyirəm.

Biraz əynim bulaşıb, xoşbəxtliyim çirklənib

Gülmək nədir unutmuşam, qaç get məndən

Qorxuram sənə də keçər dərdlərim.

Ayrılıq iki insandan ibarətdir deyirlər

İnanma, görmürsən intihar edənlər tək başına özlərindən ayrılır.

Əşi neylirsən məni sevib

Bir mənə bax, bir də qanlı əllərimə

İndicə sevginin damarlarını kəsib gəlmişəm.

Amma qorxuram, qadınlar kədərimi əlimdən alar

Sənə də inanmıram çıx get, çünki xoşbəxtlik qoxusu gəlir səndən...

# Suriyalı uşağın sahili

Mən anamın lay-lay səsi üçün darıxdım
Mən oyuncaqlarımı heç tam sevə bilmədən ayrıldım,
Görəsən neçə oyuncaq arxamca ağladı, heç bilmirəm.
Balaca əllərimi torpağa qatdılar
Çox tez oldu, hələ mən anamın əllərinə doya bilmədim
Qardaşımla birgə parklar da doyunca oynaya bilmədim,
Bədənim qarışdı torpaqların altına, gözləmədiyim anda
Çox tez oldu, saatların əqrəbləri mənim üçün dayandı.
Halbuki mən hələ çox şey sevə bilərdim
Ancaq alınmadı, üst başım sulara boğuldu və mən tez getdim.
Öldüyüm sahillərdə,
Mən dalğalar boyunca qaçaraq oynaya bilərdim
Amma olmadı, zaman mənim üçün tükəndi.

# İtirənlər dünyası

Öldüyüm gün, adım çadır da xatırlanacaq

Sonra saatlar unutduracaq adımı, heç kəs xatırlamayacaq,
Şəhər belə unudacaq, yollar da izim qalmayacaq.
Deyəsən həyatın dərmanıdır ölmək
Həmin zaman qurtuluş taxılır insan sinəsinə.
Ölümü arzulamıram, istəmirəm böcəkli torpağı
Dua da etsəm, göylər eşitməyəcək bilirəm.
Bilirəm, bir dua var heç yerinə yetmiyəcək
Analar ölməsin desəm də, göylər bir işarə vermiyəcək, bilirəm.
Atalarda ölür, itirəcəyimiz başqa hansı doğmanı əlavə edək?!
Bir-birimizi itirənlər dünyasındayıq
Hər kəs əqrəblərin hesabına itirir,
Və bir gün göylər də itirəcək, buludlar olmayacaq.

## Gözlərin qocalıb

Tanış gəlir gözlərin hardansa

Hə, əllərini indi xatırladım, onlar gülüşlərimin qatili.

O, beş mərtəbəli binaların içi ilə getmişdin

Niyə qayıtdın geri,

Yarımçıq qalmış xəyallarımı öldürməyəmi gəldin?!

Get, bura mənim xarabamdır

Tərki dünyanın için də heç kəsə yer yoxdur.

Mən artıq güvənmirəm insanlara

Sonda acı çəkməyim deyə, insanlara sərhədlər qoydum.

Sənə bur da yer yoxdur

Yadına gəlir sənə bir söz demişdim?

Sən isə siqareti yandırıb,

Sevgi bu kül kimi olacaq, demişdin.

Bax batıb gülüşlər, sənli limanlarım yanıb

Elə bir kədər dalğası buraxdın ki,

Sevgini qurtarmaq istəyərkən, özüm batdım.

Rədd ol, gözlərin artıq mənə iyrənc gəlir

Axmaq şeirlər artıq sevgiyə nifrət edir.

Sən mənim sözlərimin bədəni olmuşdun

Mən yazdıqca sən gözəlləşdin.

Amma çıxıb getdiyin xoşbəxtlik fəslindən sonra

Görürəm artıq gözlərin qocalıb

## Qəribədir bilirəm

Bir qadını sevmək

Və sonra küçənin bir döngəsində onu atıb getmək.
Qəribədir bilirəm, qadın sevmək özü bir xəstəlikdir
Heç bir dərman kömək etməz, ağ-xələtli insanları isə unut getsin,
Çünki dərmanı olmayan bir xəstəlikdir, boş ver.

Biraz yalanlarımız qocalıb, doğrular isə nədənsə cavan qalıb
Həyat rənglərini hədiyyə edir,
Öldüyümüz gün yəqin ki, başa düşərik.
Qəribədir hə?! Gecələr musiqini ruhumuza yeritmək
Bunu nə üçün və ya kimin üçün isə etmək
Qəribədir bilirəm.

Öpmə, heç sərin nəfəsinə də ehtiyac yoxdur
İndi sən heç yanıma gəlmədən belə ayrıla bilərsən.
Bir zəng və qulağımda ayrılıq sözü, qəribədir
Hətta xoşbəxtliyi belə, monitorun arxasında axtarırıq.
Qəribədir bilirəm.

İnsanlardan qaçmağımız, öldürülən hər bir ünsiyyətin nümunəsidir
Bacardığımız qədər öskürək,
Bəlkə sonuncu ümüdü çıxartdıq ciyərlərimizdən.
Qaldı haralardasa qatarımız,
Qara və ağ çantalar da var idi
İçi dolu sevgi, ac qalmış insanlara paylamadıq.
Qəribədir bilirəm, hər şey səhv ucbatından olur.

## İnanc haqqım

Soyundum bütün inanclarımı
Ey tanrı durmuşam sənin qarşında
İndi sən göstər mənə inancını.
Payımı belə artıq istəmirəm,
Mənə yalnız səmadan həqiqət göndər.
Cənnət hurilərinə görə, sənə inanmıram
Mən sənə ancaq cənnətsiz inanıram.
Şeytan səni sevirdi, sevdiyi üçün tərk etdi
Çünki bəzən sevdiyin üçün tərk edirsən.
Eh... Sən danışmırsan bilirəm
Bəs bu susqunluq nə üçündür?!
Sən heç dualara cavab vermirsən
Bütün dualar sən demə, səssiz cavablar daşıyır.
Mən səni qibləyə, məkkəyə görə sevmirəm
Səni mən olduğun üçün sevirəm.
Gecələr dualarım şeirlərə bəzən çevrilir
Mən səni dualarım üçün heç sevmirəm
Səni dualarsız sevirəm.
Sevməyim üçün, beş dəst vaxta ehtiyac yoxdur
Səni zamansız sevirəm.
Bəlkə, buludlardan axıdasan həqiqəti
Axı dünya dönür, səni 70 dən çox yer də bildirirlər.
Bax, sənin adından, sənin olduğun bədənləri kəsirlər
Elə sənin adından, siyasətə atılıblar, ticarət yürüdürlər.
Hər kəs yazılanları bir cür başa düşür
Tanrı, bəlkə mənə inanc haqqımı verəsən.

## Dumanlı suallar

Dumanlıq... Bu gün sualların cavabın da dumanlıq var
Gözüm görmür, nə qədər işıqsız yolda irəlliləmək olar.
Sən də get, onsuz da yalnız öyrəşmişdim kölgənə
İndi danışmır dodaqlar, sadəcə əllər yazır.

Bir fəsildir buraxıram hər il otağımdan
Təqvimləri cırmışam, qalıb yalnız qırıq saatlar.
Keçdiyim eyni yollardan, geri dönmərəm
Məni as hisslərimdən, bu gecə də tanrı ilə söhbətdəyəm.

# Danış

Mənə gecələrdən danış,

Səssiz üşüyüb, gözləri yuma bilməməkdən.

Mənə pıçıltıdan danış

İçində gedən söz müharibəsindən.

Sarıların dəhşətindən danış

Qısa şəkildə yuxuların olmamasından başla

Sonra keç səhərlər də günəşi görməməyə.

Ulduzları sevməyindən danış

Onlara çatmağını, soyuq əllərin ilə toxunmağından danış.

Həyatını iki hissəyə böl

Səssiz və yorğun düşmüş.

Tanrının duasından danış

Ona çatmaq hissini mənimlə bölüş.

Daha sus bəsdir

Uzun cümlələr deyəsən bitmir.

Qısa danış, həyatının məzmununu ver mənə

Yoxsa uzun cümlələr bədənini qurudar.

Solmuş gülüşlərinə biraz göz yaşı axıt

Ölmüş ümüdlərin üçün buludlara bağır.

Zəncirlə əllərini, sözlərin ilə gözlərini bağla

Sonra gecə yarısında küçələrdə qaç

Qoy binalardan işıqlar yansın, ətraf aydınlansın.

Zamanı söndür, saatların səsini kəs

At dənizlərə qoy boğulsun.

## Adsız bir şəhər

Salam həkim, yenə mən gəldim

Sarılarımdan qurumuş ruhum var, onu gətirdim.

Mənə yardım elə,

Nə bilim götür apar sarılarımı uzağa.

Və mənə heç kəsin görə bilməyəcəyi bir şəhər ver

Sonra gecəni ver mənə, günəş olmasa da olar.

Bayramları götür sənin olsun

Çünki mən sıxılıram yalançı gülüşlərdən.

Mənim vaxtımı oğurlayan

Bəzi müəllimləri at geriyə.

Kitablardan gətir, tök ruhuma

Fərqi yoxdur əzilmiş, cırılmış

Əsas odur sözlər təmiz olsun.

Bilirsən həkim, axmaq şeirlər belə kömək eləmir

Sevgi, güldürmə məni nə olar.

İndi saçları ətirli olan, gözləri danışan qadınlar azalıb.

Şərqin fahişəsinə çevrilib bəziləri

Gələcəyin bəzi anaları heroin qoxur.

Həkim, mən görünməz olmaq istəyirəm

Çünki, onsuz da bəziləri üçün beləyik.

Sən heç məni anlamırsan

Sənin andında yalandır, satılıb elə beş-on manata.

Nə isə gedirəm mən

Tənqidlərin belə xeyiri olmayacaq dünya da yaşayırıq.

Al sənin olsun

Mənə isə adsız bir şəhər ver.

# Beşinci fəsil

Ovucumda gətirmişdim ulduzları sənə
Çünki, sən insanların ölməsini istəmirdin.
Göylərdən oğurlamışdım, indi buludlar ağlayır
Neyləyim indi de mənə
Sən axı günəşi sevirdin, kədərli buludları yox.
Uzaq məsafələr ayırdı bizi, xəritələrdə baxıram sənə
Heç bu qədər təsəlli görməmişdim.
Sən elə getdin ki, sözlərim qalmayıb səssizləşdim
Yollarda axtardım, sözlərdən əlavə,
Heç sənin izini də tapa bilmədim.
İndi boş səkilər, bir də tək yarpağın olduğu oturacaqlar qalıb
Beşinci fəsli qoydun mən də, sən bax belə gedərsən.
Bu beşinci fəslimi soyuq, sənsiz keçirirəm
Adlarını hətta bilməyib içdiyim şərablar var,
İndi beşinci fəslimi qeyd edirəm sənsiz.
Siqareti yandırmıram artıq, metafora yaratmışam
Dişlərimin arasında gəzdirirəm, sənin sevmədiyin siqaret
dənəsini.
Yandırdım dört fəslimi,
Küllərini yığıb, beşinci fəsil yaratdım sənin saçlarının xətrinə.

# Daralmış nəfəs

Və səndən uzaqlarda deyildi əslində
Elə səndə idi, o xoşbəxtlik güzgüsü.
Mən sənə, sən mənə baxdıqca
Niyə ayrılığı xatırlamalı idik?!
Xoşbəxtliyi bitişdirmək istəyirdik
Kədər ayırdı.
Təbəssümlər intihar edirdi
Ayrılmağın, təqvimim də qırmızı halqaya alındı.
İndi hər səhər günəş bir qara cism kimi
Baxır səmadan kədərə bürünmüş varlığa.
Səni buludlarmı aldı?!
Öldün, qaldın yoxsa hələ də yuxu görürsən?!
Mən səni görmürəm
Görməyim üçün görəsən neçə addım atmalıyam
Nə qədər nəfəs tükətməliyəm görəsən
Sanki on bir mərtəbəli binanı ayaqla çıxıram.
Nəfəsim daralır
Sən uzaq nöqtəyə artıq çevrilmisən.

# Eyni dünyadan

Məsələn, biz eyni dünyada olmamalıydıq
Mən səhərlər isti yatağımdan dururam,
Amma sənin yatağını, yeddi yaşın tamam olmamış yandırıblar.
Yox, bu belə olmamalıdır
Zirvəyə çatmaq üçün pillələri qalxanlar, uşaqları əzməməlidir.
Niyə eyni dünyadan olduq?!
Mənim oyuncaqlarım oldu
Amma sən oyuncaqsız, ölümə söykənən uşaq oldun.
Sən necə mənimlə birgə eyni dünyanın sahəsinə düşdün?!
Mənim saatlarım biraz sakit,
Ancaq sənin əqrəblərinin səsi, güllə səsinə qarışıb.
Sənin göz yaşın palçıqlı
O, qıvrım saçlarının isə tozdan rəngi dəyişib.
Yox bu belə olmamalı idi
Sən mənimlə eyni dünyadan olmamalı idin.

# Bir bulud

Analar qədər yorulur atalar
Duanın anaya təsiri olmadığı kimi, atalarada təsirsiz ötüşür,
Göylər həm anaları, həmdə ataları götürür övladlardan.
Övladlar üçün atanı və ananı yer də saxlayan bir bulud olardı kaş
Aparmazdı göylərə, elə hər zaman cavan qalardılar.

Kaşlara nifrət edirəm,

Onlar insana təsəlli verməkdən başqa bir işə yaramırlar.
Lüğətimdən də çıxar da bilmirəm,
Çünki çətin bir gündə təsəllisiz qalmaqdan qorxuram.
Niyə ataların saçı tökülür, bəlkə qabar olmuş əllər zədələyir saçları
Bax görürsən yenə təsəlli tapdım.
İllərin yorğunluğudur o saçlar, düşüncələr bircə-bircə salır onları yerə
Analarında saçları ağarır, heç bir bulud belə kömək etmir,

Nə anaya, nə də ataya.
O, gözlər ki, övladı uzağa qoya bilmir,
O, sevinc ki, özgə əllərə rahat təslim etmir,
Atanın və ananın qəlbindən daha çox sevən tapılmaz inan ki.
Heç bir şəxs belə atadan daha çox sevə bilməz qızını
Heç bir qadın belə, ana qədər kədərə bürünməz övladı üçün.
Hərdən dərdi deməyin atalara, analara
Çünki, gecələr yuxusuz olmalarına səbəbkar olarsınız.
Ey buludlar, sizə səslənirəm

Dəyməyin analara, atalara
Onlar övladların tamamlanmış, ayrılmaz hissələridir.

## Uzaq

Mən uzaqdan intiharam,

İnsanların aciz şəkildə iplərə sarılmalarından iyrənirəm.

Mənə belə baxma,

Bu fikirləri versəm sənə, iki gün dözə bilərsən?

Hərdən yoruluram, içimdə müharibələr gedir bəzən

İnan ki, hərdən mən deyiləm, sarılarımdır əvəz edir məni.

Ölüm mənə maraqlı gəlir artıq

Amma ölmək istəmirəm, tezdir hələ.

Bədənimə yad deyiləm, sözlərimi ona üfürürəm

Ancaq nə olsun, bir gün o məni tərk edəcək

Maraqlıdır, görəsən bədənsiz necə görsənəcəm.

Qorxmuram bilirsən qadın

O, hiss artıq yoxdur mən də

Onu insanlar yaradır, əslində o hiss heç vaxt mövcud olmayıb.

Bizə nələr öyrətdilər, çoxlu yollar göstərdilər

Hələ də yolun kənarındayıq, elə azdırıblar ki, geri qayıda bilmirik.

Qara gözlüm, bizə rənglərdən danışırdılar

Eh... Sən demə həyatın rəngi yox imiş.

Ağ-qara film kimi oynuyuruq

Amma inanmıram mən, bu filmin qabaqcadan rolları verilsin.

Taleh qurulmamış, indi nə qururuq o var

Bəziləri sökmək istəyir,

Ac-gözlük, paxıllıq arasından uzağa aparmalıyıq hissləri.

Sən yorulmadın?

Hər gün içirsən, çəkirsən

Pəncərənin kənarına bu dəfə də içki şişəsini qoymusan.

Chopin, yenə tüstüyə boğularaq ona qulaq asırsan

Saçlarının ətri tüstüyə boğulub, sən vecsiz dəryaya boğulmusan, bilirəm.

Düz edirsən, bəzən lazımdır

Bədəni və ruhu götürüb, bəzən topluluqdan uzağa aparmaq lazımdır.

## Soyuq yanvar

Soyuq yanvar və sən yoxsan

Beşinci fəsil də bitti, amma yenə də yoxsan.

Yenə çürümüş qələm və yanmış vərəqlər

Gözlərini unutmamaq, hər dəfə yazdıqca şeir.

Sənsiz vaxtlara öyrəşmək və tək başına sevmək

Yoluxucu da olmasa yenə də xəstəlikdir.

Görüşmək, hər gecə vaxtsız xəyallarla

Səni bəzəmək, uzaq məsafələri yad edərək.

Yanvar qadınım, görəsən səndə üşüyürsən?!

Yoxsa oralarda, isti bir əllər var?!

Unutdurmaq, keçmiş xəyalları məcburən silmək

Və sən etdiyim ən gözəl doğrulardan birisən.

Səncə necə silim,

Sanki xəyalları edama sürükləyirmiş kimi.

Məncə özləri sağollaşarlar

Sənin sağolların kimi.

Əlvida, beşinci fəsillərin ən soyuq yanvarı.

# Sarışan

Çıxart daxilimdən sarışanları
Onlar mənim əsəblərimdir.
Ey qadın, götür apar sarışanlarımı
Gecələr yuxusuz olmağıma səbəbkardır.
Daxilimi dəlib, deşən suallar var
Məndən qabaq bir ürəyim var, fikirlər onu öldürə bilər.
İçimdə sükutu pozan səslər ucalır
Onlardan biri mənəm,
Digəri isə mənim rəqs etdiyim sarışandır.
Bu rəqsin sonu olmalıdır əlbət
Uşaqlığımdan gəlir, bədənimi yaralayan rəqslər.
Lənət olsun bu səsə, bu rəqsə, nifrət edirəm sarılarıma
Çıxart əynimdən bu xoşbəxtsizliyi, mən artıq bezdim.
Sağol gedirəm, bu şəhər sarışan qoxuyur
Arxaya baxmadan qaçmaq lazımdır,
Düzəlməz həyat, düzəlməz şəhər, yeni bir dünyaya ehtiyac var.
Ey sən sarılarımı aparmağa qorxan qadın,
Mənə bir söz de, elə bir söz ki,
Xoşbəxtlik paltarıma yapışsın və heç çıxmasın.
Eh, görürsəndə tükənən sözlərimiz var
Nə isə boş ver, gedirəm arxamca sarılarımı daşıyaraq.

## Zamansız dünya

Divarın küncündə bir saat var

Heç,  amma heç səsini bəyənmədiyim əqrəblər fırlanır.

O, rəqəmlər ömrümüzü alır, bəlkə də elə səsi öldürür bizi

Günləri dəfn edir, ona görə də sevmirəm o iki əqrəbi

Çünki on iki üzərində olduqda, bir gün daha bitir həyatın nağılı.

Dünyamı sürətləndirir o qolumdakı saat da

Bu gün səhər elə onu öldürdüm, çıxartdım qolumdan

Amma nə olsun?! Getdiyim hər yolda çıxır o əqrəblər qarşıma.

Lənət olsun, niyə dünyanın zamanı var

Axı tanrı zamanı yaratmadı, buludlar zamansız səmalar da gəzir.

Elə o əqrəblərdir, atanı və ananı alır dünyadan

Mən heç sevə bilmirəm zamanı, onlar doğmalarımı alır əlimdən.

Bir də tələsmək var yaşamaq üçün

Məsələn, sevdiyin qara saçlı bir qadın vaxt ilə döyüşür

Soyuq xəstaxana otaqlarına çatmamış, zamana uduzur

Amma sən ölə bilmirsən, yalnız əqrəblərə baxıb təsəlli axtarırsan.

Ölən bir insanın ad gününü qeyd edirsən

Saatlar ona işləyir, amma bilmirsən o hardadır

Bəlkə də zamansız bir dünyadadır.

O, iki əqrəbi yığışdırın on ikinin üzərindən

Çünki insan həyatının ömrünü yeyir.

Zaman dünya da insanları qocaldır

Gənclik gedir əldən, gənclik

Anaların, ataların saçları ağarır bu zamanın axınına görə

Yığışdırın əqrəbləri, zamansız bir dünya daha gözəldir.

## Ölmüş göyərçin

Boyalı saçlar, boyalı əllər

Onun xəyalları aydın və daha rəngli.

O, insanların nəfəsindən uzaqda

Tələsən addımların, tozlu binaların xaricində.

Heç nə yox sadəcə biraz boya, ağ vərəqlər və biraz musiqi

Çəkdikcə hiss etmək bütün ağrıları

Və hiss etmək xoşbəxtlik dərinliyini.

Günəşi örtən pərdələr,

Gecə olduqda isə ay işığını otağa salmaq.

O, öz rəsmlərinin tanrısı

Xəyallar isə hər dəfə onun son duası.

Boyalara büründükcə bürünmək

Saf və təmiz olmaq rəsmlər kimi.

Onun çəkdikləri kədər ilə xoşbəxtlik arasında son divar

Şəhərcik iyindən uzaqlarda dəniz iyinə qarışıb ciyərləri.

Orda kiçik bir daxma var

İçi dolu kitablarla və birdə boya, ağ kağızlarla.

Hər gün Bethoven, isti bir kofe

Son da unutmaq, damarlardan axan dərdləri.

Acılı sifətlərdən uzaqda, gözlər yalnız isti rəsmlərə baxır

Səmimiyyətsizlik yox, yalnız rəsmlərin gülüşü var.

O, rəssam qadın

Və sonuncu rəsmi ölmüş göyərçin.

## Suallarla dolu yüklənmək

Bu gün yenə suallarla dolu yüklənib evə gedirəm
Cavabların iyini sadəcə uzaqlardan hiss edə bilirəm.
Şəhərin sakitliyinə qarışmaq olmur
Sanki hər dəfə kimsə qışqırmaq istəyir.
Bezibmi insanlıq?!
Gözlərmi yoxsa əllərmi yorğun.
İsti bir kofe və kitablardan başını qaldırmamaq
Gözəl bir dərmandır susmaq.
Ölmüş vicdanların səslərini duymamaq
Bəzən danışmamaq, nə daxildə nə də xaricdə.
İnsanlardan qaçmamaq, yalnız bəzən uzaqlaşmaq
Özünü tapmaq güzgülərdə və ona susmağı öyrətmək.
Hələ daha çox şey öyrənəcəyik
Bir gün soyuq əllərimizlə ulduzlara toxunacayıq.
Çox isti olacaq gizli cavablar kimi
Tez-tez nəfəs alacayıq bəlkə də.

# Hökmdar və insan

İyrənc xəstəlik,
Şəhər təpədən-dırnağa obsessiv-kompulsiv olub.
Hökmdar dövlət yox, millət olmalıdır.
İnsanlar dövlətdən yox, dövlət insanlardan qorxmalıdır.
Cəhənnəm ilə qorxuduldunuz, amma halbuki,
Bura elə cəhənnəmdir, dolu fahişələrlə.
Həyatın rəngini reklam edirlər
Hansı rəngdən danışırsınız, ölübdür bütün rənglər.
Əsas qalib olmaq deyil,
Sanki Hitlermi qalib oldu, sonunda aciz olub intihar edərək.
Baxın görün nə iz qoydu
Sonra düşünün siz nə iz qoyacaqsınız deyə.
Xeyir axtarırıq tozlu partalarda
Gənc alim gördüm, universited də boşuna zaman yellədir.
Nə sən xeyir verdin mənə, 11 il
Nə də sənin ali dərəcən mənə verəcək 4 il.
Başımızı qatırlar, özlərini düşünərək
Cəmiyyətin kitab oxuması vacibdir,
Ancaq birinci puldur, ona görə də kitablar pulludur.
Lənət olsun kapitalizmin hər döngəsinə
Bir dənə ideologiya göstər ki, beyin oğurlamasın.
İşid tanrını səhv anladı
Bəs inanclı mollalara nə oldu?!
Hər şey puldur,
Beyini götürüb saman yeritdilər.

## Yorulmaq

Yoruldum, boş gülüşlərin zamana xərclənməsindən

Çox yoruldum, buludların arasına qarışan sözlərdən.

Biraz uzağa,

Nəfəsimi dinləyə biləcəyim yerlərə aparmalıyam bədənimi.

Qaçaraq küləyə qarşı

Geridə qoymalıyam boğucu sarılarımı.

Çiyinə yüklənmiş sualları toplamaq

Və sonda ruhu sığallamaq cavablar ilə.

Nəfəsimin bir tanrı nəfəsi olduğunu dərk etmək

Duaları buludlara yox, bədənə üfürmək.

Düşüncə olaraq yaşamaq

Anlamsızların arasından çıxmaq

Unutmamaq ki, peşmançılıq keçmişlərə dayanar.

Bəzən boş vermək,

Dəyişməmək və özünü görünməz qandallardan xilas etmək

Və özünlə dartıb çəkmək digər insanları.

Bu dünyanın görüntüsünü yaşamaq

Sonda pozulacaq görüntüyə şahid olmaq.

## Həyat

Və sən həyatsanmı?!
Düşündükcə var olan, düşünmədikcə sönən
Sən bir şam kimisən, üzərində yanan alovlu insanlar.
Bəlkə bir sualsan, içi dolu cavablar
İçində də biz olduqca,
Heç bitməyən tapmacalar.
Sınıq güzgülər,
Sənimi əks edir, yoxsa məni?!
Biz deyilən bir kəlmə daha olmadı, o gündən.
Yalanlarmı başını qatır
Yoxsa doğrular daha mürəkkəb olub?!
Heç olubmu iki seçim arasında qalıb
İçin tükənmiş kimi olasan?!
Olmaz, əlbəttə ki,
Axı sən həyatsan
Bəlkə də verilən seçimləri sıralayırsan.

## Foto

Bizdən geriyə qalacaq olan fotolar

Bəlkə gülmək üçün, bəlkə də kədər üçün.

Bir məna axtarırsan?! axtarma

Onsuzda puç olacaq, çünki həyatın sonu ölümdür.

Gəl səssizliyə bürünək biraz

Söndürək gözlərimizi, bağlıyaq qulaqlarımızı

Bir neçə saatlığına sağollaşaq insanlarla.

Pəncərəni bərk bağla, şəhərin səsi içəri daxil ola bilməsin

Saatların da səsini kəs zənn edək ki, yoxdur zaman.

Gəl, gəl indi sarıl mənə

Qucaqla belimi birlikdə baxaq fotolara.

Deyəsən təsəllimiz o, olacaq

Dur bir dənə də biz çəkək, gələcəkdəkilər üçün.

Axı biz sabahları gözləyən varlıqlarıq

Xəyallar qurub sabaha saxlayanlarıq.

Biz yaratmaqdan daha çox sökməyi bacarırıq

Öyrətmək həvəsi ilə yox, tənqid etmək ilə alışırıq.

Bəziləri balıqların çəkilmələri üçün gözlədikləri qarmaq var

Dənizin də yox oluşunu gözləyənlər var.

Eh, nə isə çox danışdım

Gəl, keçmişdən gələn fotolara baxaq

Offlayaq, həyat bax budur deyək

Nə edək bəlkə geriyə fotolardan başqa heç nə qoymayaq?!

# Biraz addımla

Gözlərini bağla, qayıt beşiyə qədər.

Əgər bacarırsansa, xatırla birinci yaşını.

Addımla keçmişin nöqtəsinə doğru

Bəlkə gələcək üçün,

Xoşbəxtlik qırıntıları taparsan orda.

Yaxşı və pis xatirələr içində

Tap çıxart o, içindəki müqəddəsliyi.

Bircə dəfə yalnız bax geriyə

Keçmiçdən apar, üzünü güldürən dəyərləri.

Birdə heç vaxt qayıtma, dost

Elə qal ancaq indi ki, nöqtə də.

Sən xəyallarla dolusan axı

Seç birini, bütün qapılar açıqdır üzünə.

Daha düş bəsdir

Getmə, sürətli qatarla.

Biraz addımla, daha dərin nəfəs al

Bax gör necə gözəldir,

Sənin görmək istədiklərin.

Və sən yaşadıqca, həyat da parlayır

Təbəssümün olduqca, həyatda gülümsəyir.

Sən öldükcə isə

Ölüm həyatı özü ilə daşıyır.

Məncə bəsdir kollu yollar

Çıx daha düz asfalt yolla addımla.

Daha döyüşmə, sev və əzizlə

Suallar sənin ruhun, cavablar isə yeni dünyan.

# Yalandan

Mən aldada bilərəm səni, doğrularını oğurlayaraq
Yalandan sevərəm səni, dilimin tələsinə salaraq.
Öpərəm, qoynuma basaram
Heç ruhun belə duymaz, digərlərindən fərqlənmərəm.
Saçlarını qoxlayaram, yalandan oynayaram
Eşq pərvanələrinin döndüyünə inandıraram.
Elə sevərəm ki, səni
Sadəcə qorxuram öz yalanıma özüm inanaram.
Həm də qorxuram ki, xoşbəxt olaram,
Sonra ayılmaram, darıxaram sənin sarı saçların üçün.
Əzabların qarşısından qaçıram
Nə olar məni bağışla, səni ancaq yalandan sevə bilərəm.
Bilirsən əslində özüm-özümü aldadıram
Yalandan sevirəm deməyim belə yalandır, gülüm.
İnanma, məni heç ciddiyə də alma
Sən heç sevmə məni
Çünki o qədər yalandan sevdim ki, səni

Həkim gecələri mənə qadağan qoydu.

# Buludsuz, günəşsiz

Sən daha yığma saçlarını

Tök çiyinlərinə qoy rəqs etsinlər küləklə.

Biraz gülümsə

Daha bəsdir iyrəndin xoşbəxtlikdən.

Əyləş qarşı oturacaqda sözüm var sənə

Bilirsən?! Sən yatarkən

Mən sənə baxaraq vərəqlərimə şeir söyləmişəm.

İndi icazə ver

Gözlərinə baxaraq şeiri pıçıldayım sənə.

Çoxmu dəyişdik görəsən

Mən bilən saatlar dəyişir insanı.

Sən getdikdən sonra

İllərə yorğun olmuşam.

Pəncərəmdən çox dəyişib fəsillər

Deyəsən dünən də yağış yağırdı.

Mən bilən indi olub yaz fəsli

Amma sən gedərkən payız fəsli idi.

Daha günəş də maraqsız olub

Elə bil hər səhər məcburən oyanır.

Hərdən qara buludlarla savaş olur

Sən heç görmüsən,

Qara buludlar qalib gəlsin günəşə?!

Yadına gəlir yağış damlası altında ölməyi dilədin sən

Bəs nə oldu yağış?!

Deyəsən tərk etdi səni buludlar.

Sevmədin günəşi, sevə bilmədin buludları

Sən elə uç buludsuz, günəşsiz açıq havada.

## Bir şəhər yaratmaq

İllər keçdikcə qocalmaq bilməyən zaman
Və saat əqrəblərinin yerinə ölən insanlar.
Göz yaşı ilə heç vaxt heç nə düzəlmir
Çalış bunu dərk elə ağlayan adam.
Uzaqlara bax,
Bəlkə elə bir şəhər var ki,
Orda yoxdur həqiqətlər.
Suallarla dolu bir dünya
Bəzən səmimi, bəzən də olmayan cavablar.
Necə edək ki, fərqli həqiqətlər olmasın
Ya da necə edək ki,
Yaralı dünyanı vicdansızlardan qurtaraq.
Hər gün sarılarımın zərbəsindən ağrıyan ruhum
Yataqda, gecələr sola və sağa dönərək bezmək
Və bir gün hər şeyə rədd ol demək.
Kitablara sarılmaq və yazmaq
Fəlsəfə dərinliyində üzərək.

Əgər istədiyimiz bir şəhər yoxdursa

Onda bir şəhər yaradaq.

Və orda nə qadın zorakılığı

Nə də ki, uşaqların güllə səsinə şahidliyi olacaq.

İncə varlıqlar döyülməməli

Uşaqlar isə müharibə saatlarında oynamamalıdırlar.

Bir şəhər yaratmaq,

Və o şəhərin mərkəzinə göyərçinlər doldurmaq.

O, şəhərdə zamanı dondurmaq

Heç bir evdə əqrəblərin səsini eşitməmək.

Şəhəri rəngləmək, ən gözəl sevgi ilə

Güvənmək insanlara,

Və birlikdə çiyin-çiyinə addımlamaq.

Şəhərdə heç bir göz yaşı görməmək

Fərqli həqiqətlər yox

Hamı bir, hamı bir həqiqətdə addımlayır.

O, şəhəri yaratmağa elə başlayaq daxilimizdən.

## Sülh ağacı

Suallarımın yanından götür məni

Apar cavabların yanına.

Bəlkə hər gecə yazmalıyam ki,

Daxilimdə sözlər tükənsin

Və mən səssizləşim.

Amma inanmıram,

Nə vaxtsa daxildə sözlər azalar.

Götür apar məni qadın

Elə bir yerə apar ki,

Orda hər gün yağış yağsın.

Yağışın altında islanak, rəqs edək

Əgər ağlasan onda heç göz yaşın bilinməyəcək.

Yağış damlalarına qarışaq,

Ancaq buludların ağlaması görünəcək.

Gərək bir gün bədənsiz olduğumuzu təsəvvür edək

Şəhərdə gəzək, biz hamıya baxaq,

Amma heç kim bizi görməsin

Və son da nəticə çıxardaq.

Yazaq, pozaq

Elə yazdıqca hər dəfə dirilək.

Ataq özümüzü dənizə,

Amma heç boğulmayaq

Sadəcə boğularaq ölən insanların hissini yaşayaq.

Gəl, gözlərindən öpdüyüm

Çantanı topla, içinə ümüdlərini yığ

Mən sadəcə sülh toxumunu götürəcəm.

Sonra düz şəhərin mərkəzinə əkəcəm

Bəlkə buludların ağlaması ilə o, böyüyəcək.

Saçlarının ətrinə doymadığım qadın

Sonra bilirsən nə edəcəm?!

O, ağac böyük olanda

Ətrafına tikanlı sözlər salacam.

Mənim qanadsız mələyim

Görəsən onda da o, ağacı kəsəcəklər?!

Eh... Heç vaxt tükənmiyəcək xəyallar.

Kim bilir, bəlkə də həyatımız xəyaldan ibarətdir?!

Nə isə boş ver

Keç piano qarşısına,

Ruhumu buludlardan uzağa apar.

## Bəlkə

Bəlkə yoxdur zaman,

Sadəcə saatlar aldadır bizi.

Bəlkə yoxdur uzaqlarda bir qapı

Elə təsəlli axtarırıq görünməz yollarda.

Kim isə dua edir baxaraq göylərə

Kim isə axtarır tanrı nəfəsini daşıyaraq.

Bir uşaq ac yatır arzularını düşünərək

Bir insan ev düşünür çöllərdə yataraq.

Amma bunu heç bir inanc açıqlamır

Ya taleh qurulmayıb,

Ya da hər şey bir yuxudur öləndə oyanacayıq.

Həyat kiçik bir uşaqdır

Könlünə dəydikcə küsür, amma tez də barışır.

Onun gözəl musiqisi var

Bəlkə hər gün dəyişən,

Bəlkə də heç dəyişməyən notlar.

Drijorun gözəl hərəkətləri

Və içində gizlənən həqiqətlər

Bəlkə var, bəlkə də yox.

## Bir mərkəz

Dərk olunmuş həyat ucalır beynimdə
Heç nə səbəbsiz deyil,
Tanrı zər atmayıb inan mənə.
Hər şeyin başlanğıcı varsa
Deməli olmalıdır sonu əlbət.
İnsanlar fərqli baxışlarla addımlayır
Amma deyəsən hamı addımlamır
Kimi sürünür, kim isə ipdən tutub dartılır.
Ancaq bilmək olmur,
Həyat ehtimallarla dolu.
Görəsən varmı taleh?!
Yoxsa nə qururuqsa o var?!
Hər şeyin neytral olduğunu bilməliyik
Gec ya tez.
Zaman qaçdıqca, deyəsən bizdə qaçmalıyıq.
Geridə qoyub keçmişi,
Daha uzaq məsəfalərdəki nöqtələrə baxmalıyıq.

Məncə daha anlamalıyıq

Bu qədər çoxlu yolların

Apara biləcəyi bir mərkəz olmalıdır.

Daha çox həzm etməliyik

İki fikrin birləşməsindən

Üçüncü fikir yaratmalıyıq.

Daha çatmalıyıq bu mərkəzə doğru

İnanmalıyıq, hardasa bir mərkəz var.

## Şaxəli cavablar

Unutma bu fikirləri dost

Qorxma, get dərinə

Tap çıxart ordan düşüncə dəyərini.

Bu yazdıqlarımı unutma

Düşün və inan

Onda hər səhər boylanmalıdır günəş pəncərəndən.

Sən bacarmalısan

Tap çıxart dərinliyindəki müqəddəsliyi.

Zamanda gecikmə, biraz cəld ol

Saatlar artıq qaçır.

Yuxudan oyanmamış tapmalısan səbəbini.

Və sən artıq bilməlisən

Hara gedir bu şaxəli cavablar.

Məncə artıq vuruşmamalıyıq suallarla

Onlara baxmalıyıq bir dost kimi.

Çalış unutma xoşbəxliyi

Arada istəyirsən yadına sal kədəri

Axı o, səni düşünməyə vadar edirdi.

Bunları yaxşı dinlə müqəddəs insan.

İçində boğ nifrətini, şeytanı topla çantana

At dəniz dalğalarına

Qoy boğulsunlar və birdə olmasınlar.

Sən sadəcə təksən içində

Unut başqa səsləri.

Eşit dərinlikdəki müqəddəsliyini

Unutma bu yazılarımı.

Sənin içində sən olan səs pıçıldayır

Dinlə yalnız öz səsini.

İnanma yalanlara, nağıllara

Bax gör hara aparır bu şaxəli cavablar səni.

## Libas

Bir cızıq çəkirəm

Bütün səhvlərin andına.

Doğrularımı deyəsən böyüdürəm

Səhvlərin haqqına.

Daha çox anlamağa çalışıram

Çalışıram və son da böyüyürəm.

Fikirlərimin dəyəri ilə gündən-günə böyüyürəm

Bəlkə də təhlükəli oluram

Anlamayanların pıçıldısına.

Təpədən-dırnağa bürünmüşəm

Gəl indi bacarsan çıxart məni

Bu gözəl görünməz libasdan.

Amma bacarmarsan, bacara bilmərsən

Bu fikirlərin toplanmış libasıdır.

Səndə də var

Tap çıxart içindəki dərinliyi.

Gündüzlər susmağa çalış içində

Sözləri gecələrə saxla, qorxma tükənmərsən.

Biraz get, biraz daha get

Qorxma dərinlikdədir o, müqəddəslik.

Əl vur ona, amma zamana dəymə

Çünki yayıla bilər bədəninə.

Çalış dart çıxart dərinliyindəki müqəddəsliyi

Sonra geyin əyninə

O, gözəl libası.

Bir anlıq gözlərini bağla

Pıçılda bütün duaları bədəninə

Və sonra aç

Necə də gözəl yaraşır libas

İndi özün bax güzgüyə.

## Nöqtə

Anacan, deyəsən mən tapdım
Hardadır cənnət nöqtəsi.
Bilirəm necə qurtulmaq lazımdır
İnsanın daxilində yanan cəhənnəm alovundan.
Artıq bilirəm səssizlik insana köməkdir
Suallar acı, cavablar isə şirindir.
Uzaqlaşdıqca ətrafdan,
Bütün gördüklərin nöqtələrə çevrilir.
Bəlkə də ən uzaq nöqtə belə doğrudur
Şaxəli cavablar, bəlkə də bir ağaca bağlıdır.
Ən uzun yollar yorucudur
Amma hər bir çətinliyin,
Son da nəticəsi gözəl olmalıdır.
Əlbəttə yaranlanmalıdır hər bir cəngavər
At belindən düşməlidir, öyrənməlidir
Axı bütün səhvlər insanı böyüdür.

Böyüməkdən qaçmamalıdır insan, yalnız qaçmalıdır yalanlardan

Axı öldürür yalanlar doğruları

Oğurlayır insanın inanmaq haqqını.

Alçaldır insanın bütün vicdanını

Daxili əzabların çıxara biləcəyi xoşbəxtliyi

Günəş belə həmin zaman,

İnsan üçün kədər saçar.

Soyuq cavablar

Artıq hiss edirəm tüklər biz-biz durur

Deyəsən mən cavabların nöqtəsindəyəm.

## Sənə sarılmaq

Sənə sarılmaq, qorumaq saçlarını

Hətta küləyə görə səni qısqanmaq.

Sevmək, sənə alışmaq

Yorğun olsaq da,

Gözlərinə baxaraq oyanmaq.

Sözlərini dinləyərək

Baxışlarına heyran qalmaq.

Səni sevmək,

Hər gün oyanan günəş kimi.

Xatırlamaq simanı

Olmadığın günlərin xətrinə.

Səninlə gülüşləri bölüşmək

Kədərlənəndə isə göz yaşını birlikdə axıtmaq.

Gecələr ulduzları saymaq

Son da birlikdə yuxulayaq.

Yuxu da görüşək

Özümüzü xoşbəxtlik libasın da görək

Ayılaq, qoy havadan keçib getsin kədər.

## Təsəlli

Sən bu şəhərin gözləri idin
Amma mən ruhumu yarımçıq qoyaraq
Səni axtaran o, insan oldum.
Sən bu şəhərin səsi idin
Və mən sənin arxanca qışqıraraq
Sözlərimi küçələrin arasında itirdim.

Nəfəs?! O, sən olmusan?!
Eh... Bəs niyə belə tez tükəndin?!
Səninlə olan xəyallarımın arasına
İndi hasarlar tikildi.
Bilirsən?! Daha qoxun gəlmir bu mənzildən
Və mən də yuxusuz qalmışdım
İki gündür axtarırdım
Bu gün elə tapdım yuxusuzluğumun səbəbini.

Otaqdan sənin asdığın şəkilləri çıxartdım

İndi boş divarlar da,

Səninlə olan görüntülərimə baxıram.

Arada gülürəm, gülürəm

Elə hey gülürəm.

Gəlib məni otaq da gülən görsən

Fikir vermə, sadəcə sən də gül.

Mənim kimi,

Təsəlli taparsan bəlkə.

## Fikir

Gecikməmək lazım

Çünki zamanın əclaf əqrəbləri var.

Nə qədər suallar çox olsa da

Addımlamaq yox, qaçmaq lazım.

Küləyin əksinə, yağış damlalarına doğru

Var gücünlə,

Sualları cavablara götürmək lazım.

Artıq növbəti yazı qarşılamaq üçün

Ümüdləri açmışam buludlara.

Yağışa toxunmaq üçün,

Tanrılıq üçün,

Fikirləri bəzəmişəm buludlara.

# Yaradaq

Günəşdən qabaq oyanıb,

Şəhərin sakitliyinə bürünmək.

Göylər qaranlıq, ulduzlar yox

Dumanlı yollar da,

Heç kimi axtarmamaq.

Yazdıqca səssizləşmək,

Hər gün tanrılıq etmək.

Bir nöqtə axtarmaq, sonra

Ucsuz bucaqsız, şaxəli cavablar görmək.

Gözləri yummaq və heç nə görməmək

Qulaqları tıxamaq və heç nə eşitməmək.

Bəlkə olar yenidən düzəltmək

Sıfırlamasaq da, heç olmasa yenidən yaradaq.

## Otaq

Gözəl nağıllarımız var, xəyallarımıza dayanacaq

Keçmişlərdən tapmadığımızı

Gələcəkdən axtarırıq, təsəlli yönünə dayanaraq.

Bizim gülüşlərimiz var idi.

Və bir gün bədbəxtliyə çaşıb güldük

O, gün bu gündür daha yaxamızı buraxmır əclaf.

Əvvəllər çox danışırdıq, susmağı unutmuşduq

Gecələri gündüz fərz edərdik,

Amma indi günəşdən qaçaraq ay işığını axtarırıq.

“Bəhanə” adlı söz dilimizdə gəzmirdi

Çox heyif ki, indi bəhanələrə sarılırıq.

Deyəsən hər şeydən bir əmma çıxartdılar.

Bəziləri heç sakitliyi sevmədilər

Və günə bir oyun çıxartmağa qərar verdilər.

Çirkli cəmiyyətdən təmiz oldu, tozlu kitab rəfləri

Otağın hər küncü kədərlə boyansa da

Küçədən daha təmiz oldu çirkli bir otaq.

Mənə toxunmayacaq qədər, zərərsiz oldu vərəqlər.

Bir qırıq qələm də dost oldu, hər səfər.

Ancaq sətirlər də bəzən təhlükəli olur

Məsələn: Anlamayanların sözü kirlətməsi kimi.

## Bir gün

Danışdıqca insanların gözlərinə

Onlar sənə baxacaqlar anlasalar da, anlamasalar da.

Və anlayanlar öyrənmək istəyərlər

Anlamayanlar isə,

Özlərindən sözlər əlavə edib, cümlələri kirlədərlər.

Bir gün çox danışıb, susmağı öyrəndim

Səssizləşdim, qərar verdim

Hər kəsin cisminə baxaraq lazım deyil pıçıldamaq.

Kimlərsə mənəvi böyüyür,

Kimlərsə eyni nöqtə də qalır

Və mənim bildiyim pillədən də düşmək olmur, daha.

Bir vaxtlar mənalar axtarırdım, səbəblərlə yanaşı

Sonra anladım ki, mənalar lazımsız,

Səbəblər isə təkcə önəmli.

Günümüz bitir yenə qardaş

Bu gün nə öyrəndin saat 12-ni vurmamış?!

Keçmişlər üçün nə qaldı?!

Bitməz gələcəklər, o deyəsən hər zaman var idi.

Və bu gecə üçün növbəti yuxularımız gəlir

Görəsən ayılmağımız həyat üçün,

Görünməz yazılarımı, yoxsa özümüzəmi bağlı?!

Səhərlərə qədər yenə təsəllimi qoyduq?!

Eh... Yenə də bir gün bitdi,

Bitişlərdən necə də zəhləm gedir.

## Səhnəcik

Saniyələr, dəqiqələr uçur

Görəsən onlar bizi tələsdirir

Yoxsa gizlincə qurulmuş taleh var?!

Kədərimiz, xoşbəxtliyimiz

İçimizdə kök salmış bir hissəyə bağlıdır.

Və əgər hər şey öncədən budaqlanıbsa

Maraqlıdır, sevmədiyimiz budaqları

Çiçək açmamış görəsən kəsə bilərikmi?!

Hər şey onun istəyinə bağlıdırsa

Onda insanın seçimləri uçub gedəcək buludlara.

Qurulmuş taleh

Görəsən 3-4 cümlə dua dəyişirmi onu?!

Yuxudan ayılmağımız həqiqətə aparırmı?!

Amma hələ ölmürük, istəmirik

Çünki taleh hələ “öl” deməyib.

Doğurdanmı səhnəyə hazırlanmış insanlarıq?!

Tanrı, şeytan, mələklər də yəqin ki, seyircilərdir.

Və sonuncu həyəcanlı səhnəcik

Güman edirəm ki, həqiqətdir.

## Göyərçin

Kim olursan ol, yenə gəl
Çəkinmə, qorxma, qana bulanmış dizlərinlə gəl.
Hər küçədən keç, axtar
Səmalara qalx, buludların yanından keç, yenə axtar
Və son da bacarsan daxilini hiss et, daha axtarma.
Dön, var gücünlə küləyi qısqandıraraq dön
Topla, səmaların nurunu libasına topla.
Dərin nəfəs al, içini doldur müqəddəsliklə
Hər gecə səmaya baxaraq etdiyin duayı
Bu dəfə bədəninə üfür.
Hey... Səninləyəm gözəl insan,
Səninləyəm hey, müqəddəs insan.
Sən olduqca həyat var
Yoxsansa, varlığından da ötə yoxdur.
Hər eşqin pərvanəsi insanda yatar.
Kəpənəklər uçuşar, insanın içinə çökən də gözəlliklər
Sənli, mənli yoxdur bu həyatda
Bircə təklik və dünyaya yaraşan sülh olmalıdır.
Gəl, həyat gözəldir

Dostluq üçün gəl, hər şeyi geridə qoy gəl.

Sən də gəl ey şeytan

Sənin üçündə bir yer ayırarıq.

Təki dön, için sevgi ilə dolacaq şərti ilə

Sülh üçün əllərii birləşdirəcəyin təqdirdə dön.

Və sülh naminə dünyanı sevindirək.

Kiçikdən tutmuş böyüyə qədər bütün insanları sevindirək.

Qoy nurla dolsun gözlərimiz

Açıq səmalardan tutmuş, bütün yerlər sülhlə dolsun.

Elə olsun ki, birdə ölməsin göyərçinlər

Hər zaman uçsunlar səmalarda,

Onlar yaraşırlar bu dünyaya.

# Fərdi dünya

İçi boşdur sevginin

Elə “dost” kəliməsi kimi.

Zənn edirdin ki?!

Hər şey reklamlar da və filmlərdəki kimi olur?!

Səni aldadıblar, inanma.

Öncə yalanı göstərib

Sonra içindən doğrunu seç dedilər.

Çoxlu fikirlər söylədilər

Və hələ də qulağımıza səslər gəlir.

Ancaq, halbuki

Daha gözəldir fərdi dünya.

Nəyi dəyişək?

Nə üçün edək?

Axı bir insan varlığının fikri

Milyonlara rahat deyil.

Nəyə gərəkdir sərhədlər?!

Mən nifrət edirəm,

Gözə görünməz divarlara.

Səncə dəyişəcəkmi ümumi dünya?!

Eh... Hara dəyişir?!

Mənim daha gülməyim gəlir

Dünyanı dəyişmək istəyənlərə.

Çox filmlər təsəlli verdi bizə

Ancaq mən daha əmin oldum

Bu dünya, bu aləm dəyişməyəcək.

Sən də bəsdir,

Bir-iki dənə kitab oxuyub qəhrəman oldun.

İstədiyin qədər kitab vərəqlə

Amma, son da öz fərdi dünyanı rənglə.

Sadəcə, öz dünyandan,

Məsləhətlər ver, paylaş bəşəriyyətlə.

Bir tək dəyişmə heç kəsi və heç nəyi

Çünki zənn etdiyin yaxşılıqlar

Unutma, kiminsə həyatını korlaya bilər.

Və əl çək ümumi fikir qoymaqdan,

Yaddan çıxart sərhədləri

Bax gör necə gözəl parlayır fərdi dünya.

## 01:11

Gecədən danışır kəlimələr

Mən xaricən sussam da,

Daxilən içimdə fırtınalar qopur.

Bədənimin bir hissəsində

Rəqs edən sayrışan hallar

Digər hissəsində isə

Sinəmə ağırlığını toxunduran,

Gözə görünməz əllər.

Və mübarizə aparmamaq,

Daxili çəkişmə ilə.

Toxunmamaq onlara fikirlərlə,

Pıçıltısının olduğunu zənn etməmək.

Məndən başqa daxilimdə kim olacaq?!

Mən, mən və yenə mən.

Saat 01:11-dən başladıq bu gün

Sətirlərin dərinliyinə enməyə.

Qələmim sanki bir qarmaqdır

Hər dəfə daxilə qarmağı atdıqca

Bir atışda çıxardıram,

Onlarca fikirləri.

Amma nə olsun?!

Bitmir, tükənmir

Və mən daha inanmışam, daxili okeanım bitməyəcək

Belə yazmaqla intiharlarım.

Masa arxasına keçib yazdıqca

Bir düyüm atıram kəndirlə boğazıma.

Sanki o, kəndir nəyi isə xatırladır mənə.

01:30-un titrəyişindəyəm

Bir yudum su, fikirləri təmizləmək üçün

Mən yenə saatlarla yola gedə bilmirəm.

Hər dəfəsin də əqrəblərə nifrətlə baxıram.

Rədd olub çıxıb getmirlər

Və mən ona da əmin oldum

Saatların varlığı mənə borcludurlar.

01:42 biraz daha günəşə yaxınlaşıram

Ancaq nəyə görə gecədən ayrılmalıyam?!

Eh... Nə isə, boş ver.

Əgər xeyirli sabahlar varsa

Qoy bu dəfə də üzərimizə bulaşan təsəllini

Sabahlara əmanət edək.

01:50 dörd divar mənə baxır

Çox səssizəm, sadəcə pıçıldayıram.

Lənət olsun, o əqrəbin səsi

Mənim pıçıltımdan qat-qat yüksəkdir.

Və o, ölümə addımladığım saniyələri sayır

Zənn etmirəm tanrı belə bir şey istəmişdi.

Mən gecədən sağollaşan varlıq

Günəşi görmək ümüdü ilə,

Yenə yuxularıma sarılıram.

Görəsən əbədi yuxusuzluğumuz

Bizə nə çarə qoyacaq?

02:02, saatların əqrəbləri

Hələ rəqs edirlər, zamanın sahəsində.

## Sayısız dünyalar

Yenə çayın yanında kədər var
Bu gecə, yenə səssizliyim qalıb.
Sinəmə bir ağırlıq çöküb
Mən başa düşə bilmirəm
Suallarınmı, yoxsa cavablarınmı ağırlığı bu?!

Həyatın bir mənadan xaric olduğunu,
Böyük bir əmmasını gördükdən sonra,
İşgəncəli qocalığın heç bir yaşantısı qalmır bədən də.
Bizə demişdilər ölümdən danışma
Axı niyə?!
Bəlkə faydası yerlə-göy arasından böyükdür?!

İntiharı sevməyən Tanrı
Niyə bəs son da insanın alın yazısına yazırdı?!
Özümüzü ulduzlardan asmaq üçün
Tanrının bir-iki dənə,
Pıçıltısı bəsdir daha.
Hər dəfə eyni hisslərlə oyanmaqdan,

Günəşin üzünə kədərlə baxmaqdan,

Bir buludun arasından tanrı səsini eşitməməkdən,

Yoruldum, yoruldum və əmin oldum.

Zərrə-zərrə toplanmış fikirlərin

Bəzən faydadan da əlavə, ziyan verməsi

Səhra yolunda susuz qalmağa bərabərdir.

Bir gün bir xəstəliyin ucbatından

Hər şeyi unutmaq və xatırlamamaq

Görəsən faydalımı yoxsa işgəncəlimi?!

Və yuxu da dünyalarını yaradanlar

Görəsən xoşbəxtdirlərmi?!

Necə bir hissdir Tanrılıq etmək?!

Hə?! Şəhər sənin, dünya sənin

Öz yuxuna xoş gəldin.

## Kədər qoxulu

Sən kədər qoxulu saçlarınla rəqs edərdin, mənsiz
Və mən səni kənardan izləyərdim, səssiz-səmirsiz.
Bir neçə dənə ağlayan buludlar var idi
Onlar ağladıqca sən xoşbəxt olardın,
İslaq üzünlə necə də gülümsəyərdin, səbəbsiz.

Daha bu gecədən ulduzları tək sayırsan
Uzaqdan əyləşib sənə baxırdım və gördüm
Əvvəlki tək səmalarda gəzirdi əllərin.
Hər dəfə ay görsəndikcə
Daha səni xatırlamamaq mümkün deyil,
Çünki, sən onda toxunmuşdun gözlərimə.

Mən çox sevdim deyəmi, tərk edildim?!
Axı sən xəyali pəncərəmdən,
İşıq saçan qadın idin.
Bəs nə oldu?!
Sən sevginin bir ayrılıq hissəsi olmamalı idin.

## Bir dəniz

Bir dalğa vururdu özünü sahilin kənarına

Küləyə nifrətindənmi?! Yoxsa sevgisindən?! Bilmək olmurdu.

Minlərcə insanlar baxardı ona

Kimi kədərlə, kimi sevinclə.

Nümunə idi, insanın daxilində ürəyinə vuran  fikirlər

Tam yerinə düşmüşdü, sanki

Dənizlə əlaqələndirmək hissləri.

Sən ona danışardın, bütün cümlələrini

Və o, elə bil dalğaları ilə cavab verərdi.

Görəsən külək olmasa, günəş olmasa

Darıxardımı dəniz?!

Səmalara paralel baxar və buludlar ağlardı

Öz durğunluğu buludlara qarışardı.

O, həm kədərli hissə, həm də xoşbəxtlik hissəni yaşadardı

Onlar da məhv olacaq, hər şeyin məhv olması kimi.

Sakitliyə bürünmüş dalğalar

Onlar dənizin bir yaraşığı idi.

## Sətirlər

Bir musiqi səslənir,
Əlini qəlbinə qoy və dinlə.
Bu bizim kədər notumuzdur
O, orda çırpınır.
Və bilirsən?! Qadın
Kədər əvvəlkindən daha çox sancır
Sanki, sənin saçların da boğur məni.

Bir neçə gündür,
Sinəmə bir ağırlıq çöküb.
Hər gülüşümdə də,
Kədər məni xoşbəxtlik ipindən dartır.
Bu heç sevdiyim bir kədərə bənzəmir
Mən lap bezdim, bu ağrılardan.

Bu cür kədərə lənət olsun
İnanma mənə, indi yazdığım sətirlərdən,
Heç biri kömək etmədi mənə.
Boğuluram, boğuram misralarımı

Və növbəti intihar sözlərin üzərində.

## Güzgüdəki insan

Bilmirəm, niyə həyat var

Səncə, məqsədlər bu teatr üçün önəmlidirmi?!

Bilmirəm, niyə bu qədər təbəqələr var

Səncə, yüksək təbəqə bu qədər önəmlidirmi?!

Təkrarlama... Təkrarlama, özün ol, ey insan

Heç kəs eyni deyil və eyni olmayıb.

Və Kafka demişkən

Ölümün olduğu yer də,

Başqa nə ciddi bir şey ola bilərki?

Səncə?!

Mən bilmirəm, ölüm önəmlidirmi?!

Eh... Bezdim

Sual verirsən, cavab yoxdur.

Bu necə dialoqdur belə, lənət olmasın.

Hə... Mən də bilmədim bu necə dialoqdur

Amma deyirəm ki, ey güzgüdəki insan

Nə yaxşı ki, susmadın, bu gecə.

## Sənsizlik

Məndən sənsizliyi soruşma
Heç kim soruşmasın, çünki bir adı yoxdur
Sən sənsizliyə bir ad verə bilərsən?
Mən ancaq təsvirləri deyə bilərəm.
Məsələn: Günəş sarı saçları ilə görünməyəcək,
Pərdələrin rəqsini izləyəcəksən,
Bir ağırlıq çökəcək hərəkətlərinə,
Səslər çox yavaş gələcək, bəzən heç eşitməyəcəksən.
Qaçmaq istəyəcəksən,
Amma hara, onu bilməyəcəksən
Çünki hər tərəf sənsizliklə dolacaq.
Sənsizliyin bir tərəfi bax budur
Kədər... Kədər... Kədər
Otağının divarlarını bəzə bu sözlərlə
O, kəlimənin abu-havası dəyişəcək hər şeyi.
Musiqilərin içərisində sənsizlik gəzəcək
Hər gecə yumulan gözlərin qaranlığında olacaq, o
Sənsizlik, onun bir xeyri yoxdur.

## Bəzən

Bəzən, sadəcə susmaq istəyərsən

Qolundakı saatın səsini, ağaclardakı yarpaqların xışıltısını

Və öz daxilindəki səssizliyi dinləmək istəyərsən.

Bəzən, kədərə bürünərsən

Gözlərin bir nöqtəyə zillənər.

Və son da dərinliyə varıb,

Həyatın mənaya daxil olmadığını öyrənərsən.

Bəzən, bir qadın gələr

Gözləri ilə sənə gülümsəyər, əllərinə toxunar

Sonra, sağol demədən çıxıb gedər.

Bəzən, hər şey cəhənnəmə qalsın, demək istəyərsən

Boğulduğunu hiss edərsən və sonra o, da keçər.

Lənət olsun, sıxıntı gələr və gedər

Amma nə zamansa yenidən qonaq gələcək deyə, düşünərsən.

Bəzən, sadəcə yazarsan

İçindəkilər tükənməsə də belə.

Bəlkə də vərəqlər dərdini daha yaxşı dinləyir

Və hər gecə yazarsan

Amma əmin ol, səni səndən daha yaxşı anlayan olmayacaq.

Bəzən, tək başına skamya da əyləşərsən saatlarca

Sanki, bir qadın gəlib

Əlləri ilə gözlərini bağlayacaqmış kimi

Gözləyərsən, ancaq heç kəs gəlməz.

Bəzən, bir musiqi dinləyərsən

Ancaq, musiqinin içində də o, xatırlanar.

Təkliyi seçərsən və darıxarsan

İnsanlara baxarsan və yenə də darıxarsan

Bunlar bəzən olar, amma niyə?!

Sonda da anlayarsan ki,

Həyatın boyunca nə tam xoşbəxt,

Nə də ki, tam kədərli olmayacaqsan.

Və bəzən ola bilər ki, eyni sualları verərsən

Məsələn: Axı niyə məhz mən?

## Vecsizlik

Tərk etmək deyildi, sadə yollar
Bəlkə də kolun üzərinə basmaq idi, hər şey.
Artıq dərin nəfəslər belə kömək etmir
Məncə dəyişilməlidir bəzi üfüqlər.
Həyatı öyrətməyəcək heç kim bizə
Nə müəllimlər, nə valideynlər
Nə də ki, tanışlar.
Həyat sadəcə uzun bir qatardır
Və hər bir vaqonları,
Özün gəzməlisən tək-tək, açaraq kupeləri.
Qarşılaşacağın hadisələr, səni qorxutmasın
Onsuz da qorxu hissini,
İnsandan başqa heç kəs yaratmadı.
Zirvələri unutmaq, insanlara güvənməmək
Bunları etmək, əslində deyildi bir səhv.
Zənn etmək ki, hər gülən insan səmimidir
Bəlkə də o, gülüşün altında bir yalan gizlənmişdir.
Həyatın sahələrini ciddiyə almaq,
Bu qədər lazım deyildi.

Biraz vecsizlik tamını dadmaq

Bəlkə də ən doğru üsul idi.

## Cəhənnəm

Bəlkə də mən,

Cənnətdən gəldim bu cəhənnəmə.

Ya da buranı

Bir cəhənnəmə çevirdim özüm üçün.

Mən, daxilən tamamlanmamış hissəyəm

Kədər yarımçıq, xoşbəxtlik yarımçıq

Və biri də gəlir, yarımçıq sevməyi öyrədib gedir, hələ.

Bura bir cəhənnəmdir?

Mənə qısa cavab ver

Məsələn: Hə və yox kimi.

Boğazıma niyə düyünlənib sıxıntılar?!

Axı mən bezdim,

Səhərlər eyni cür durmaqdan.

Günəşə lənət oxumaq

“Ağlayan buludları” sevmək

Ancaq onlar da həmişə gəlmirlər.

Hərdən hər ikisindən bezirəm

Yəni, həm kədərdən həm də xoşbəxtlikdən

Cənnətlə cəhənnəmin ortasındayam sanki.

Dodaqlarıma yaxmağa davam et həyatı
Çünki həyatın dadı getsə damağımdan
Bir də məni görmərsən buralarda.
Ehtiyatlı ol, qoyma
Həyatın dadı qurusun damağımda.
Bir fikir var bilirsən?!
Tikir həyatın özəyini.
Mənə o, fikirdən danış
Elə danış ki, daxilim tamamlansın.
Asaq bəlkə özümüzü?
Hər kəsdən xəbərsiz.
Son dəfə şəhərə gülümsəyib, asaq özümüzü?
Ya da şəhəri boş ver
Bir-birimizin gözlərinə dikilərək,asaq bədənimizi?
Elə də bilirdim,
Mən ölmək istəmədikcə,
Sən də bu cəhənnəmdə yaşamaq istəyirsən.
Bir yol var, ümüd sönməz deyirlər
İntihar bir qaçış deyil, bəlkə də.
Cəhənnəm burdadır,
Gəl biz cənnəti axtaraq

Əminəm o, da buralarda bir yerdədir.

Əşi… Boş ver intiharı, mənim kimi

Axı cənnət bizi gözləyir,

Cəhənnəmin ortasında.

Bilirəm, mən açdım intihar söhbətini

Və mən də bağlayıram.

Biz “Ağlayan buludlarla”

Söndürərik cəhənnəm alovunu.

## Yaxşı ki, varsan

Bəlkə gedək buralardan?

Sadəcə sən və mən.

Bir neçə dənə kitab toplayım çantaya

Zamanın bilinməyən vaxtında, gedək buralardan.

Heç kəsə sağol demədən

Özümü xatırlatmadan, heç kimə

Səni hamıdan gizlədərək, aparım gərək buralardan.

Bir vərəq olsun dostumuz

Mən toplayım fikrimi,

Sən isə qarala kağızı.

Əlimdən əksik olma, heç zaman

Sən barmaq uclarıma, mən isə sənə toxunum.

Səninlə çox xoşbəxtəm,

Gecələr bəzən yuxusuz olsam da belə.

Sən səssizliyimdən bir parça

Yollarım ümüd işığı, sənlə olduqca.

Və mən əminəm ki,

Buraları tərk etdikcə

Sən də olacaqsan mənimlə.

Yaxşı ki, varsan, qələmim

Mən səni hər zaman həvəslə daşıyacam çantamda.

# Heç biri

Tanrımı yoxsa şeytanmı?
Hər ikisini seçirəm, dostum.
Cənnət hurilərlə, yoxsa cəhənnəm kömürlə?
Heç biri deyirəm, axı mənim seçimim var.
Zamanmı, yoxsa zamansızmı?
Mən nifrət edirəm zamanın kökünə
Dostum, bu gün saatlardan danışma.
Xoşbəxtlikmi, yoxsa kədərmi deyirsən?
Eh… Tamamlanmayacaqlar bilirəm,
Ona görə də heç biri deyirəm.
Qadının saçları, yoxsa gözləri?
Mənə ya hər ikisindən danış,
Ya da sus, heç birini demə.
İki yol tər-təmiz, üçüncü yol çirkli
Sən hansı yönə gedirsən?
Sonu təmiz olacaq yola gedirəm
Ona görə də əvvəli çirkli olmalıdır yolların.
Mən üçüncü yolla irəlliyirəm.
Nə isə dostum bu günlük bəsdir,

Sən indi ölməyəmi gedirsən, yoxsa yaşamağamı?

Heç biri deyirəm.

## Kəlimələr

Yazmadığım bir mövzu varsa
Xatırlat mənə,
Asım boynundan kədəri.
İndi, günəş şüaları
Atır özünü pəncərədən içəri
Amma mənim içimdə hələ də gecədir.
Tozlu masanın üzərində yazıram,
Atıram, kəlimələri vərəqin içinə.
Onları bəzən qaralasam da
Yenə də saf və təmiz qalırlar, bir möcüzə kimi.

Bu gündən yağış damlalarına çevriləcəm
Axacam boynundan,
Tökülərək saçlarına, əllərində gəzəcəm.
Sərt bir toxunuş olmayacaq sənə
Məni hiss etməyin üçün, çox sakit gələcəm.
Bir də gecənin yarısında
Öpəcəm gözlərindən,
Buludlar ağlamalarını bitirməmiş.

Kəlimələr, içimdə gəzərək çıxırlar çölə

Sonra, sözlərinin gözlərinə baxmasını hiss edirsən,

Əvvəlcə kədərli, sonra xoşbəxtlik toxunuşu olur, sanki.

Bir qadın nə qədər ağlaya bilər ki?!

Göz yaşları dayanar, bir neçə saata

Amma içindəki hıçqırıq, illəri ala bilər.

Başımın üzərindən

Bu gündən ayrılır “ağlayan buludlar”.

Amma mən daha bilirəm

Bu çox uzun çəkməyəcək,

Bir neçə saata qayıdacaqlar, onlar.

Deyəsən həqiqət var.

Bitti!

İndi isə düşünməyə başla. Məntiqini qarşına qoy və öz fikirlərini ortaya çıxartmağa çalış. Sonra keç güzgü qarşısına və Mən kiməm? sualını özünə ünvanla. Sualın cavabını yaxşıca düşündükdən sonra əlinə bir qeyd dəftəri, bir dənə də qələm götür və cavabını qeyd etmiş ol. Qeyd etdikdən sonra isə o, yazdığını oxu və dərk et. Səbəbləri axtarmağa çalış. Ümumiyyətcə həyat da etdiyin bütün əməllərinin səbəblərini bundan sonra düşünməyə başla. Çünki həyat mənadan xaric, amma səbəblərlə zəngin bir yerdir. Və bu arada unutmadan bunu da deyim sənə. Öz içində bir dünya yarat və ona sahib ol.

Kitabın üz və arxa qapağını hazırladığı üçün, xüsusi olaraq İsrafil Sadiqov adlı dizaynerimə xüsusi təşəkkürümü bildirirəm. Hər zaman var ol.

## M NEW WORLD



## CEYHUN MƏMMƏDOV-“AĞLAYAN BULUDLAR”

Kitab iki şəhərə ayrılır. Hekayələr və şeirlər şəhəri. Hər iki şəhərə daxil olarkən, özünüzlə çətir götürməyin. Çünki üzərinizə yağacaq kəlimələri hiss etməyə çalışın. Şüurunuzun ən dərin qatlarına enəcək, cümlələr. Qorxmayın, bu sizin xeyirinizədir. Daha dərin düşünmək və özünüzü dərk etmək diləyi ilə.

Beyindən axan fikirlər buludlardan tökülən yağış damlaları kimidir. Və bu damlalar torpaq üçün xeyirli olduğu qədər, insan beynindən çıxan fikirlər də elə insanın özü üçün xeyirli əlamət idi. Fikirləri güzgü kimi görmək, onları dərk etmək və onlardan yeni fikirlər yaratmaq mənəvi böyüməyimə və dünyamın dəyişməsinə bərabər oldu. Sevgi, həyata baxış, yaxşı, pis xüsusiyyətlər, Tanrı, Şeytan, məntiq və məntiqsizlik istiqamətləri hamısı bu kitab da yer alıb. Bu kitab sizə seçimlər verəcək. Təqdim etdiyim xüsusiyyətləri özünüz seçəcəksiniz.

Qaranlıq bir otaqda tək oturaraq şam işığında oxuyacağınız bu kitab sizin mənəvi böyüməyinizə səbəb olacaq. Diqqətlə, təkrarən və təhlil edərək oxuyacağınız hər bir sətir sizin daxilən dərinliyə enməyinizə yardımçı rol oynayacaq. Bu fəlsəfi kəlimələrlə qidalandığınız təqdirdə dərinlikdən çıxaracağınız fikirlərə inanmağa çalışın. Sadəcə inanmaq istədiyinizə inanın. Qoyun “Ağlayan Buludlar” sizin daxilinizə öz damlalarını axıtsınlar. Hər bir damlanın faydasını hiss etməyə çalışın.

Facebook.com/Ceyhun Memmedov
İnstagram.com/ceyhunmemmedov7
Youtube.com/M New World